**Azərbaycan Milli Elmlər Akademiyası**
**akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# İSLAM HƏMRƏYLİYİ VƏ AZƏRBAYCAN: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

**BAKI-2018**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur*

**Elmi redaktor:** **İlkin Əlimuradov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin aparıcı elmi işçisi*

**Müəllif kollektivi: il.ü.f.d. A.N. Həbibov, fəl.ü.f.d. E.N. Məmmədov, fəl.ü.f.d. İ.Ə. Əlimuradov, fəl.ü.f.d. L.F. Məlikova**
**"İSLAM HƏMRƏYLİYİ VƏ AZƏRBAYCAN: REALLIQLAR VƏ PERSPEKTİVLƏR"**
Bakı, "Papirus Nəşriyyat-Poliqrafiya" nəşriyyatı, 2018, 196 s.

*Tədqiqat işinin əsas məqsədi müasir dövrdə aktuallıq və mühümlük kəsb edən islam həmrəyliyi problemini Azərbaycan nümunəsi əsasında tədqiq etməkdir. Tədqiqatda hər şeydən əvvəl islam həmrəyliyinin tarixi kökləri və bu istiqamətdə atılmış "pioner" addımlar öyrənilmişdir. Növbəti addım kimi bu anlayışın dini-ideoloji əsasları tədqiqata cəlb edilmiş, indiki dövrdə öz əksini tapdığı hüquqi-siyasi qurumlar araşdırılmışdır. Bundan sonra islam həmrəyliyinin Azərbaycan nümunəsinə, Azərbaycan Respublikasında bu istiqamətdə atılmış addımlara diqqət yetirilmişdir. Nəhayət, sözügedən anlayış yeni dünya sistemi və müasirliyin çağırışları kontekstində araşdırılmış, mövcud təsəvvürlər müxtəlif yanaşmalar prizmasından nəzərdən keçirilmişdir.*

**İSBN 978-9952-25-108-1**

©AMEA Şərqşünaslıq İnstitutu, 2018

## M Ü N D Ə R İ C A T

Ön söz ............................................................................4

**I Fəsil**
İslam həmrəyliyi: dünəndən bu günə...........................................12

**II Fəsil**
İslam həmrəyliyinin dini-ideoloji əsasları ....................................52

**III Fəsil**
İslam həmrəyliyi və müasir Azərbaycan .....................................95

**IV Fəsil**
İslam həmrəyliyi – yeni dünya sistemində alternativ
təşəbbüs kimi .............................................................................144

# ÖN SÖZ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, islam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 10 yanvar 2017-ci il tarixli qərarı ilə 2017-ci ili "İslam Həmrəyliyi ili" elan etmişdir.

Ölkə rəhbərinin bu qərarı Azərbaycanın uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olması, islam dininin yayılmasında və eyni zamanda Müsəlman intibahının bərqərar olmasında mühüm rol oynaması, eləcə də Azərbaycan ərazisinin ilk vaxtlardan islam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratması ilə sıx bağlıdır. Ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar, müxtəlif rayon və şəhərlərimizdə mövcud olan ziyarətgahlar, digər dini abidələr, xüsusən Qafqazın iki ən qədim məscidindən biri olan 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi bunun bariz nümunəsidir.

İslam dini Ərəbistan yarımadasının hüdudlarından kənara çıxaraq çoxsaylı millətlərin ümumi dininə çevrilmişdir. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər. Böyük Azərbaycan mütəfəkkir və alimləri, şair və ədibləri – Bəhmənyar, Xətib Təbrizi, Şəhabəddin Sührəvərdi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Mahmud Şəbüstəri, Məhəmməd ibn Hinduşah Naxçıvani, Seyid Yəhya Bakuvi, Həsən bəy Rumlu, Hacı Zeynalabdin Şirvani və yüzlərlə digərləri qiymətli əsərləri ilə ecazkar islam mədəniyyətinə bənzərsiz incilər bəxş etmişlər. İslam mədəniyyətinin, xüsusilə hədisşünaslığın "qızıl dövrü" hesab edilən

IX əsr müsəlman alim və mütəfəkkirlərinin arasında Əhməd bin Harun əl-Bərdici (Bərdəli) kimi həmvətənimizin olması və uzun illər keçməsinə baxmayaraq, islam üləması və tədqiqatçıları tərəfindən hörmətlə anılması, təqdir edilməsi bizim qürur mənbəyimizdir.

Tariximiz, dəyərlərimiz, milli kimliyimiz ilə sıx bağlı olan islam dini daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuş və islam dininin dəyərləri dövlət qayğısı ilə əhatə olunmuşdur. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidi və Gəncə şəhərindəki İmamzadə kompleksi dövlət tərəfindən əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi olan Heydər məscidi inşa edilmişdir.

Xalqımız tarix boyu müxtəlif xalqlarla birgə yaşamağa adət etmişdir. Etnik kimliyindən asılı olmayaraq, müxtəlif azsaylı xalqlar Azərbaycanda mehriban həyat sürürlər. Müdrik xalqımızın formalaşdırdığı mədəniyyət müxtəlif dinlərə, eləcə də eyni din daxilində fərqli məzhəblərə, fikir ayrılıqlarına hörmətlə yanaşmağı labüd hesab edir.

Azərbaycanın qədim tarixi vardır. Xalqımız əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatmış və qorumuşdur. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Əhalisinin 96 %-ni müsəlmanlar təşkil edən Azərbaycan islam həmrəyliyi işinə böyük önəm verir. Bu məsələ ölkə rəhbərliyinin qarşısında duran prioritet məsələlərdən biridir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

1991-ci ildə müstəqilliyini bərpa edən ölkəmiz artıq 26 ildir ki, müstəqil siyasət həyata keçirir. Azərbaycan ötən illər ərzində dünyanın bir çox ölkələri və nüfuzlu təşkilatları ilə, o cümlədən müsəlman ölkələri ilə çox yaxın münasibətlər qurmağa nail olmuşdur. Bu əlaqələr BMT və digər beynəlxalq təşkilatlarda ölkəmizin dəstəklənməsində mühüm rol oynayır. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Ötən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmiş və Kontakt Qrupu yaradılmışdır. Eyni zamanda Azərbaycan elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı olan İSESCO-nun fəal üzvüdür. Ölkəmizin paytaxtı Bakı şəhəri 2009-cu il üçün İSESCO tərəfindən "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdir. İslam mədəniyyətinin paytaxtı elan olunması üçün həmin şəhər ölkə və region səviyyəsində mühüm tarixi keçmişə, islam və bəşər mədəniyyətində elm, incəsənət, ədəbiyyat sahəsində töhfələrə, elmi-tədqiqat, arxeoloji təhsil mərkəzlərinə, fərdi və kollektiv şəkildə mədəni tədbirlər təşkil edən mədəniyyət qurumlarına malik olmalıdır. Azərbaycanın paytaxtı öz qədimliyi və müasirliyi ilə bütün bu qayda və prinsiplərə cavab verir. Bakı həm də dini, milli və etnik tolerantlıq mərkəzi kimi dünyada tanınır. Ölkəmizin digər bir bölgəsi, tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri olan Naxçıvan bütün böyük keçmişi ərzində islam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır. Bununla əlaqədar olaraq Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbayca-

nın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür.

Bu gün fəxrlə deyə bilərik ki, ölkə daxilində islam həmrəyliyi tam təmin olunmuşdur. Lakin biz hələ tam şəkildə öz məqsədimizə çatmamışıq. Ölkəmizin məqsədi odur ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin edilsin. Bu məqsədin tam şəkildə həyata keçməsi üçün Azərbaycan böyük səylə çalışır və önəmli addımlar atır. Ölkəmizin beynəlxalq təşkilatlar çərçivəsində və dünyanın gündəliyində duran məsələlərin həlli işində nümayiş etdirdiyi münasibət və mövqeyi bir daha göstərir ki, islam həmrəyliyi Azərbaycan üçün sadəcə bir şüar deyil, əsas istiqamətlərdən biridir.

Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Ölkəmizdə bütün xalqların, dinlərin və məzhəblərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvətə xalqımızın müdrikliyi, uzaqgörən daxili və xarici siyasətimiz sayəsində nail olmuşuq. Bu sərvəti qorumaq və gələcək nəsillərə ötürmək hər birimizin borcudur.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Böyük fəxrlə qeyd edirik ki, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ölkəmiz ev sahibliyi etmişdir. Bu forumun Azərbaycanda keçirilməsi ölkə rəhbərliyi tərəfindən mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsindəki fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edilmişdir. 140-dan artıq ölkənin nümayəndəsi Sivilizasiyalar Alyansı ilə bağlı mühüm məsələlərin müzakirəsi üçün əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi Azərbaycana gəlmişlər. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter alan Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da, ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası dialoqa həsr etmişdir. Bu da ölkəmizin

Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsü olması deməkdir. Bu gün isə bu körpü həm də siyasi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir.

Müasir dünyada dözümsüzlüyün, islamofobiyanın, ksenofobiyanın, antisemitizmin artdığı bir dövrdə 2016-cı ildə multikulturalizmin, 2017-ci ildə isə islam həmrəyliyi məsələsinin ölkənin daxili və xarici siyasətinin əsas mövzularından birinə çevrilməsi Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqa verdiyi önəmin bariz nümunəsidir. Dinlərarası münasibətlərin önəmli olması, əksəriyyəti çoxmillətli və çoxkonfessiyalı ölkələrdən ibarət olan dünyada vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün böyük əhəmiyyət kəsb etməsi Bakıdan, yüksək, mötəbər kürsülərdən dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

2017-ci ildə ölkəmizdə IV İslam Həmrəyliyi Oyunları yüksək səviyyədə keçirilmişdir. Əllidən artıq ölkədən 3 mindən çox idmançının, minlərlə qonağın iştirak etdiyi bu idman, eyni zamanda dostluq, qardaşlıq bayramında milli komandamız yarışlarda qalib gələrək birinci yerə layiq görüldü. Əlbəttə ki, bu bizim üçün önəmli idi, lakin ölkəmizin ən böyük uğuru və nailiyyəti islam həmrəyliyini əyani şəkildə nümayiş etdirməsi oldu. Qeyd etmək lazımdır ki, bu yalnız idman tədbiri deyildir, bunun böyük ictimai-siyasi əhəmiyyəti vardır.

İslam həmrəyliyi işinə böyük önəm verən, eyni zamanda bu istiqamətdə səylərini əsirgəməyən Azərbaycan bütün müsəlman ölkələrinin bu məsələyə ciddi yanaşmalarını vacib hesab edir. Azərbaycanın 20% ərazisini işğal etmiş Ermənistanla müsəlman ölkələrinin dostluq əlaqələri qurması qəbuledilməzdir. Ölkə Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: "Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu ən böyük riya-

karlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz".

AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir tarixi şöbəsinin dörd aparıcı elmi işçisi tərəfindən hazırlanmış "İslam həmrəyliyi və azərbaycan: reallıqlar və perspektivlər" adlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab dörd fəsildən ibarətdir. "İslam həmrəyliyi: dünəndən bu günə" adlanan fəsildə "həmrəylik" sözü ətraflı şəkildə izah edilir, islamda həmrəyliyin əhəmiyyətindən danışılır, iman qardaşlığı, ümmət şüuru, müsəlmanların vəhdəti, erkən islam cəmiyyətində həmrəylik, Məkkə və Mədinədəki islam həmrəyliyi, Məhəmməd peyğəmbərin vəfatından sonra baş verən bəzi hadisələr və bunların aradan qaldırılmasında həmrəyliyin rolu, Səlib yürüşünə qarşı islam həmrəyliyi, Türk İstiqlal müharibəsi və islam həmrəyliyi, XX əsrdə islam həmrəyliyinə doğru atılan addımlar, islam məzhəblərini yaxınlaşdıma evi, İslam Konfransı Təşkilatı, günümüzdə islam həmrəyliyi kimi mövzulardan bəhs edilir. Qeyd edilən başlıqlar altında maraqlı məlumatları təqdim edən Aslan Həbibovun əldə etdiyi nəticələrdən biri də budur ki, "Böyük ümidlərlə girdiyimiz XXI əsr də müsəlmanlar baxımından mənfiliklərlə başladı. Qərbdə başlayan islamofobiya müsəlmanlara münasibətə ciddi təsir etdi. Ərəb baharı hadisələrinin ardı olan Suriya hadisələri müsəlmanlar arasındakı ixtilafı bir az daha dərinləşdirdi. Son günlər bu istiqamətdə müsbətə doğru düzəlmə müşahidə olunur."

II fəslidə islam həmrəyliyinin dini-ideoloji əsaslarından danışan Elvüsal Məmmədovun qənaətinə görə, XX əsrin 50-ci illərində dünya müstəmləkəçilik sisteminin dağılması əhalisinin böyük əksəriyyətinin müsəlman olduğu ərəb ölkələrinin müstəqillik əldə etməsi ilə sürətləndi. Həm milli azadlıq hərəkatının gedişi, həm imperializm və digər xarici təzyiqlərə qarşı birlikdə çıxış etmək

cəhdləri, həm də Fələstin problemi ərəb dünyasında birləşmə və həmrəylik zərurətini meydana çıxarmışdı. E.Məmmədov bildirir ki, "Müsəlman həmrəyliyinin hüquqi-ideoloji əsaslarına gəlincə, islam nöqteyi-nəzəri, ümmətin birliyi, din qardaşlığı konsepsiyaları bu həmrəyliyin ideya bazasını əmələ gətirir". O, "Tövhid", "Ədalət", "Bərabərlik", "Sülh və köməkləşmə (əməkdaşlıq)" və "İslam qardaşlığı"nı islam nöqteyi-nəzərinin özünəməxsus prinsip və dəyərləri kimi xarakterizə etmiş və qeyd etmişdir ki, bu prinsip və dəyərlər həm tarixi təcrübədə əksini tapmışdır, həm də birlik və həmrəylikdə baza, təşviqedici mexanizm rolunu oynaya bilər.

Haqqında danışılan kitabın III fəsilində Azərbaycan xalqının multikulturalizm və həmrəylik ənənələrindən, islam dəyərlərinin milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olmasından, ölkə rəhbərliyinin bu məsələlərə böyük önəm verməsindən, bu diqqət və qayğının yalnız müvafiq qərarlarda deyil, eyni zamanda əməli işlərdə öz əksini tapmasından, əvvəlki illərdə, eləcə də "İslam Həmrəyliyi İli"ndə görülən işlərdən ətraflı şəkildə bəhs edilməklə, müasir Azərbaycanın islam həmrəyliyi işinə verdiyi töhfələrdən bəhs edilir.

"İslam həmrəyliyi – yeni dünya sistemində alternativ təşəbbüs kimi" adlanan IV fəsilin müəllifi Leyla Məlikova islam həmrəyliyi ideyasını qlobal tarix və Şərq-Qərb münasibətləri kontekstində öyrənməyə çalışmış və islam reformizminin alternativ təşəbbüs kimi uğur və uğursuzluqlarından geniş şəkildə bəhs etmişdir. Müəllifin qənaətinə görə, "İslam mütəfəkkirləri islam regionunun bütün dövlətlərinin beynəlxalq əlaqələrin yeni sisteminə bərabər səviyyədə daxil olması istiqamətində səylərini birləşdirmə zərurətinə xüsusi diqqət yetirirlər. Lakin Yaxın Şərqdə davam edən münaqişələr və hazırkı dövr üçün yaranmış çox mürəkkəb dövlətlərarası münasibətlər region ölkələri arasında sabit əlaqələrin və inteqrasiyanın yaranmasına maneçiliklər törədir. Beləliklə, ehtimal edə bilərik ki,

qloballaşma dövründə beynəlxalq əlaqələr sisteminə Yaxın Şərqin dünyanın ən nüfuzlu bölgələrindən biri kimi daxil olmasını təmin etmək üçün dünyanın bu hissəsinin dövlətləri öz inkişaflarında bir çox mərhələləri keçmək və bir çox maneələri aşmaq məcburiyyətində olacaqlar."

**İlkin Əlimuradov**
*AMEA akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru.*

**Aslan Həbibov**
*İlahiyyat üzrə fəlsəfə doktoru, AMEA akad.*
*Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun Din və ictimai fikir tarixi*
*şöbəsinin aparıcı elmi işçisi*

# I FƏSİL
# İSLAM HƏMRƏYLİYİ: DÜNƏNDƏN BU GÜNƏ

## 1. Həmrəylik nədir?

Ərəbcə "ət-tədamun", türkcə "dayanışma" mənasına gələn həmrəylik hər hansı bir qrupu, cəmiyyəti meydana gətirən fərdlərin duyğu, fikir və mənfəət birliyi ilə bir-birinə qarşılıqlı olaraq bağlanmaları, bütün məsələlərdə bir-birinə dəstək olmaları mənasına gəlir.[1]

Həmrəylik müxtəlif formada ortaya çıxır və cəmiyyətlərə görə fərqlənir. İbtidai cəmiyyətlərdə həmrəylik qohumluğun cürbəcür formaları (qan, süd və s.) əsasında qurulmuşdur. Daha inkişaf etmiş və mürəkkəb cəmiyyətlərdə həmrəyliyin bir çox mənbələri vardır.

Məlum olduğu kimi, insan təbiətən sosial varlıqdır. Tək başına yaşaması mümkün olmayan insanın xoşbəxtliyi cəmiyyətin xoşbəxtliyi ilə əlaqədardır. Qarşılaşdığı çətinliklərin öhdəsindən tək gələ bilməyən fərd başqaları ilə paylaşmağa ehtiyac hiss edir. Təbii fəlakət, müharibə və xəstəliklər kimi ağır problemlər ancaq cəmiyyətin birgə səyi nəticəsində aradan qaldırıla bilər. Birgə yaşamağın tələbi olan həmrəylik sayəsində insanlar yardımlaşmağı, birlikdə iş

---

[1] İsmail Parlatır. Türkçe Sözlük, Türk Dil Kurumu, Ankara, 1998, s. 534.

görməyi öyrənirlər. Bunun nəticəsində insanlar daha tez və daha çox iş icra edirlər.

Həmrəylik cəmiyyət və millətlər arasında, həmçinin millət daxilində formalaşa bilər. Həmrəylik, əsasən, iki şəkildə təzahür edir: maddi və mənəvi.

**Maddi həmrəylik** yuxarıda qeyd etdiyimiz və digər problemlərin həlli istiqamətində fərdin sahib olduğu maddi imkanlarını səfərbər etməsi, bu yolda fədakarlıq göstərməsidir.

**Mənəvi həmrəylik** isə daha geniş məna kəsb edir. Mənəvi həmrəylik insanların və ya müəyyən bir sosial qrupun müxtəlif müsibətlərdən ötrü çəkdiyi ağrı və kədərini sadəcə başa düşmək, maddi yöndən onlara dəstək vermək deyil, eyni zamanda ağrısı olanları, yoxsulları, təcrid olunanları, özünü yalnız hiss edənləri, xülasə müxtəlif psixo-sosyo-ekonomik problemlər içində əziyyət çəkən məzlumları mənəvi məsuliyyətin bir tələbi olaraq könüllü dəstəkləməkdir.[2] Yəni başqalarının dərdinə və kədərinə şərik çıxmaq, bunları ürəkdən hiss etmək və bölüşməkdir.

### 2. İslamda həmrəyliyin əhəmiyyəti

Yuxarıda da qeyd etdiyimiz kimi həmrəylik fərdlərin bir-birinə qarşılıqlı olaraq bağlanmaları və bütün məsələlərdə bir-birinə dəstək olmaları mənasına gəlir. Yəni həmrəylik cəmiyyəti təşkil edən fərdlərin birlikdə sevinməsi, birlikdə kədərlənməsi, qarşılaşdıqları problemlərin həlli üçün birlikdə səy göstərməsidir. Həmrəylik cəmiyyət olmağın zəruri nəticələrindəndir.

---

[2] http://www.mynet.com/cevaplar/manev%C3%AE-dayanisma-manev%C3%AE-destek-nedir/6332700

Qurani-Kərimdə və Məhəmməd peyğəmbərin hədislərində möminlər daim həmrəy olmağa çağırılır, bunun son dərəcə məsuliyyətli iş olduğu fikri aşılanır. Həmin ayə və hədislərə baxdığımız zaman islamda həmrəyliyin üç əsas dayaq üzərində qurulduğuna şahid oluruq. Bunlar din (iman) qardaşlığı, ümmət şüuru və müsəlmanların vəhdətidir.

### 2.1. Din (iman) qardaşlığı

Qardaş (və ya bacı) deyildiyi zaman bir ata-anadan, yaxud yalnız bir ata və ya anadan olan uşaqların hər biri ağıla gəlir. Bu tərifə görə sadəcə qan qohumluğu ilə bir-birinə bağlı olan fərdlər qardaş (və ya bacı) sayılır. Buna eyni zamanda bioloji qardaşlıq (və ya bacılıq) da deyilir. İslama görə bu cür qardaşlıq (və ya bacılıq) həmin fərdlər arasında məhrəmiyyət yaradır (bu fərdlər öz aralarında evlənə bilməzlər), eyni zamanda onlar bir-birindən irs apara bilərlər.

İslamda bioloji qardaşlıqla yanaşı, bir də süd qardaşlığı vardır. Eyni ananın süd verdiyi fərdlərin bir-birinə olan nisbəti süd qardaşlığı (və ya bacılığı) şəklindədir. İslama görə süd qardaşlığı bioloji qardaşlıqdan fərqli olaraq miras hüququna səbəb olmaz, lakin aralarında məhrəmiyyət yaranır. Süd qardaş-bacıların bir-biri ilə evlənməsi qadağandır.

Bu iki qardaşlıqla yanaşı, islamda bir də din (iman) qardaşlığı anlayışı mövcuddur. Din (iman) qardaşlığı hər iki qardaşlıq növündən fərqlidir və yeri gəldikdə daha da möhkəm qəbul edilir.

İslamda bu növ qardaşlığa “uxuvvət” deyilir. Ərəb sözü olan uxuvvət, eyni ata-anadan və ya bunların birindən dünyaya gələnlər arasında qan qohumluğunu bildirməsi ilə birlikdə, eyni sülalə, qəbilə və ya millətə mənsub olan, eyni əqidə və dəyərləri, dünyagörüşünü paylaşmaq kimi ortaqlıq və oxşarlıqları olan şəxs və ya qruplar arasındakı birlik və həmrəylik ruhunu ifadə edir. Bu, Quran, hədis

və digər islami mənbələrdə nəsil və qan əlaqəsinə əsaslanan əsəbiyyət məfhumunun ziddi olaraq, tövhid əqidəsini əsas götürən mənəvi birliyi və bölüşmə məsuliyyətini ifadə etmək üçün istifadə olunur. [3]

Din (iman) qardaşlığında məhrəmiyyət və miras yoxdur. Bu qardaşlıq münasibətində fərdlər bir-biri ilə mənəvi rabitələrlə bağlıdırlar və bu rabitə son dərəcə möhkəm və həssasdır. “Qurani-Kərim”də Hucurat surəsində belə buyurulur: “Şübhəsiz, möminlər qardaşdır...”[4]

Məhəmməd peyğəmbər öz hədislərində bu qardaşlıq növünü daha açıq şəkildə izah edir: “Möminlər bir-birini sevmək, bir-birinə mərhəmət etmək və şəfqət göstərməkdə bir bədən (daxili orqanları) kimidirlər. Orqanlardan biri əziyyət çəksə, digər orqanlar onun əziyyətinə şərik olur.”[5]

Bir başqa hədisdə isə belə qeyd olunur: “Bir-birinizlə əlaqənizi kəsməyin, arxa çevirməyin, kin saxlamayın və paxıllıq etməyin. Ey Allahın bəndələri! Qardaş olun. Bir müsəlmanın din qardaşını üç gündən artıq tərk edib küsülü qalması halal olmaz. Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz, onu zülmə tərk etməz. Kim qardaşının bir ehtiyacını ödəsə, Allah da onun ehtiyacını ödəyər. Kim qardaşını bir kədər və əziyyətdən xilas etsə, Allah da onu qiyamət günü kədər və əziyyətdən xilas edər. Kim bir mömin qardaşının səhvini görməyib örtərsə, Allah da onun səhvini görməyib örtər.[6]

---

[3] Mustafa Çağrıcı. Kardeşlik // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi: 44 clddə, XXIV cild, İstanbul, 2001, s. 485.

[4]Hucurat surəsi 13-cü ayə.

[5] Əbu Abdullah Məhəmməd ibn İsmail əl-Buxari. əs-Səhih, İstanbul 1992, Ədəb 27; Əbul-Hüseyn ibn Həccac ən-Nişaburi. əs-Səhih, İstanbul, 1992, Birr 66; Əhməd ibn Hənbəl, əl-Müsnəd. Beyrut t.y., c.4, s.270; Məhəmməd Baqir Məclisi. Biharul-ənvar, Muəssəsətul-vəfa, Beyrut, 1404 h, c. 71, s. 234.

[6] Əbu Davud Süleyman ibn Əşas. əs-Sünən, İstanbul, 1992, Ədəb 38, 46, 60; İbn Macə Əbu Abdullah Məhəmməd ibn Yezid əl-Qəzvini. əs-Sünən, İstanbul, 1992,

Ayə və hədislərdə də görüldüyü kimi islamda möminlər bir-biri ilə iman bağı ilə bağlanmış, bir-birinin dərdinə şərik olan, sevincini bölüşən və s. xüsusiyyətlərlə tərif edilir.

### 2.2. Ümmət şüuru

İslam bir tərəfdən ardıcıllarını qardaşlığa səsləyirsə, digər tərəfdən onlara ümmət şüuru qazandırmağa çalışır.

Lüğətdə "istiqamətləndirmək, nəzərdə tutmaq, qabağa keçmək, imam olmaq" kimi mənalara gələn "əməmə" kökündən törəyən ümmət sözü, "peyğəmbər göndərilən bir cəmiyyət, qövm, hər qəbilədən bir qrup insan, hər canlı cinsi, bütün yaxşılıqları özündə toplayan şəxs və ya tabe olunan öndər" kimi mənalara gəlir.[7]

Terminoloji mənası isə könüllü və ya məcburi olaraq eyni yer, eyni zaman və eyni din kimi səbəblərlə bir araya gələn cəmiyyət şəklində tərif edilir.[8]

Quranda 64 yerdə keçən[9] ümmət sözü yuxarıda qeyd olunan mənalarda işlənmişdir. İslam alimləri, ümməti iki mənada işlətmişlər. Birinci mənada, sonuncu peyğəmbərin gəlişi və islamiyyətin yaranıb Ərəbistan yarımadasının xaricində yayılmasından etibarən bundan xəbərdar olan bütün insanlar ifadə edilir. İkinci mənada isə "Məhəmməd peyğəmbərə iman gətirib ona tabe olan kütlələr" şəklində başa düşülür.[10]

---

Müqəddimə 17; Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizi. əs-Sünən, İstanbul, 1992, Hüdud 3, hədis 1426.

[7] Əbul-Hüseyn ibn Faris. Möcəmu məqaisil-luğə, (Təhqiq Əbdüssəlam Məhəmməd Harun), Darul-cil, Beyrut, t.y., c. 1, s. 21-28; Məhəmməd ibn Mükərrəm ibn Manzur. Lisanul-ərəb, Daru Sədr, Beyrut, 1990, c. 12, s. 22-28.

[8] Rağıb əl-İsfəhani. əl-Müfrədat, Beyrut, Darul-fikr, 2006, "ümm" maddəsi,

[9]Məhəmməd Fuad Əbdulbaqi. Möcəmul-müfəhrəs liəlfazil Quranil-Kərim, Çağrı Yayınları, İstanbul 1990, s. 80.

[10] Halil İbrahim Bulut. Ümmet// Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, 44 cilddə İstanbul, 2012, c.42, s. 308.

İrqçilik və milliyyətçiliyi qadağan edən islam dini rəngindən və dilindən asılı olmayaraq, bütün müsəlmanların Allah qarşısında bərabər olduğu fikrini irəli sürərək onlarda "ümmət" şüurunu formalaşdırmağa çalışmışdır. İslama görə ailə, qohum, qonşu və ya millət olsun, ümməti bir-birinə bağlayan ən üst məfhum "din (iman) qardaşlığı"dır.[11]

## 2.3. Müsəlmanların vəhdəti

İman qardaşlığı ilə bir-birinə bağlı olan müsəlman ümmətinin ayaqda qala bilməsi üçün lazım gələn xüsuslardan biri və ən önəmlisi vəhdətdir. "Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir!"[12] ayəsində müsəlmanlardan təfriqəyə düşməmələri tələb edilərək, əks halda gücdən düşəcəkləri bildirilir. Belə olan halda bəs vəhdət nədir?

Vəhdət birlik, bərabərlik içində olmaq deməkdir. Müxtəlif ideologiya və inanclara sahib insanların ortaq məxrəcə gəlmələri, müştərək nöqtələrdə eyni görüş və strategiyanı güdmək üçün həmfikir olmaları deməkdir. Vəhdət bəzilərinin düşündüyü kimi insanın öz görüşünü tərk edib, başqasının görüşünü qəbul etməsi deyildir. Bir qrupun öz inancını yox edib, başqa bir qrupla birləşməsi deyildir. Bir məzhəbin, bir ideologiyanın öz inancından imtina edib, başqa bir inanc və ideologiyanı qəbul etməsi də deyildir.[13]

---

[11]Mehmet Emin Özafşar. "Toplumsal Dayanışma ve Kardeşlik", İslâm'a Giriş: Ana Konulara Yeni Yaklaşımlar, DİB Yayınları, İstanbul, 2007, s. 377. Bu haqda geniş məlumat üçün bax: Şeyxülislam Allahşükür Paşazadə. İslamda ümmət və şüubilik, Bakı, Bilik, 1992, s. 42-69.

[12]Ənfal surəsi 46-cı ayə.

[13] https://www.tebyan.net/index.aspx?pid=63107

Vəhdətin baş tutması üçün lazım olan ən əhəmiyyətli amil dialoqdur. Dialoq iki və ya daha çox tərəfin sivil formada ünsiyyət qurmasıdır. Dialoq tərəflərin qarşılıqlı olaraq özlərini tanıtmalarıdır. Dialoq mübahisə deyil, qarşılıqlı tanışmaqdır. Çünki mübahisədə bir tərəfin öz fikrini digər tərəfə qəbul etdirmə cəhdi vardır. Dialoqda isə hər bir tərəf öz inancını qarşı tərəfə açıq şəkildə tanıtma imkanı əldə edir. Həmçinin qarşı tərəfin də görüşləri ilə tanış olur.

## 3. Erkən islam cəmiyyətində həmrəylik

Yuxarıda da qeyd etdiyimiz kimi, üç əsas dayaq üzərində qurulan islam həmrəyliyi cəmiyyəti təşkil edən fərdlərin bir-birinə möhkəm bağlanması və bütün məsələlərdə bir-birini dəstəkləməsidir.

Məhəmməd peyğəmbərin gətirdiyi yeni dinin ən çox vurğuladığı xüsus da məhz müsəlmanların birlik və bərabərliyi idi. Zəif, güclü, varlı, kasıb, ərəb, qeyri-ərəb, fərq qoymadan ümmət şüuru ilə vəhdət içərisində hərəkət etməyi tövsiyə edən Məhəmməd peyğəmbər Məkkə müşriklərinin bütün təzyiqlərinə qarşı ancaq bu şəkildə müqavimət göstərməyin mümkünlüyünü qeyd edirdi.

Məhəmməd peyğəmbər təqribən 23 illik peyğəmbərlik dövründə müsəlmanların həmrəyliyi üçün çox çalışmış, cəmiyyətin həlak olmasına səbəb olacaq hər cür fitnə və fəsadın aradan qaldırılmasına cəhd göstərmişdir.

### 3.1. Məkkədə həmrəylik

İslamda ilk həmrəylik nümunəsi Məkkədə baş vermişdir. Müsəlmanların yüksəlişinə mane ola bilməyən Məkkə müşrikləri, Məhəmməd peyğəmbərin zəif tərəfdarlarına qarşı zorakılığa başladılar. Onları tabe olduqları yeni dindən köhnə dinə qaytarmaq üçün müxtəlif vasitələrə əl atdılar.

Məkkə dövründə ən çox əziyyət çəkənlər, şübhəsiz ki, cəmiyyətin kasıb təbəqəsi və qullar idi. Xüsusilə qullarının müsəlman olmasına dözə bilməyən Məkkə müşrikləri onları müxtəlif növ işgəncələrə məruz qoyurdular. Qızmar Günəş altında susuz saxlayır, ağır daşlar altında əziyyət etdirirdilər və s.

Müsəlmanlar bu çətinliklərə ancaq maddi və mənəvi həmrəylik sayəsində sinə gərə bildilər. Bunun ən gözəl nümunəsi Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə binti Xüveylid tərəfindən göstərilmişdir.

Məlum olduğu kimi, Xədicə binti Xüveylid hələ Məhəmməd peyğəmbərlə evlənmədən qabaq ticarətlə məşğul olan varlı bir qadın idi. O, Məhəmməd peyğəmbəri ticarətdə onunla ortaq olduqda yaxından tanıma imkanı əldə etmiş, şahid olduğu yüksək məziyyətlər səbəbilə onunla evlənmə fikrinə düşmüşdür.

Xədicə binti Xüveylid, eyni zamanda ilk müsəlman olan qadındır. O, Məhəmməd peyğəmbərlə evləndikdən sonra həyatın çətinliklərinə qarşı onunla çiyin-çiyinə mübarizə aparmış, islam dinini təbliğ etməyə başlamasından sonra bütün sərvətini onun ixtiyarına vermişdir. Məhəmməd peyğəmbər də həmin sərvəti islamın yayılması üçün xərcləmişdir.[14]

Məkkə dövründəki müsəlman həmrəyliyinin bir başqa nümunəsi isə Bilal Həbəşinin azad edilməsidir. İslamı qəbul edən Bilalı köhnə dinə qaytarmağa çalışan Üməyyə ibn Xələf onu isti qumlar üzərində uzadır və sinəsinin üstünə ağır bir daş qoyaraq işgəncə edir, yeni dini inkar etməsini tələb edirdi. Bilal da ağasının dediyini

---

[14] Cəfər Subhani. Furuği-əbədiyət, (Türk dilinə tərcümə edən Seyyid Cafer Hüseyni, Kadri Çelik), Sekaleyn, İstanbul, 2004, s. 142-143.

yerinə yetirmir, təkidlə yeni dindən dönmürdü. Bunu görən Üməyyə də işgəncənin dərəcəsini artırırdı.[15]

Bilala işgəncə verildiyi xəbəri varlı səhabə Əbu Bəkrə çatmış, o da Üməyyəyə Bilalın qarşılığında özünün daha güclü qulunu verməyi təklif etmişdir. Əbu Bəkrin təklifini qəbul edən Üməyyə Bilalı ona vermiş, ona istədiyi kimi davranmaqda sərbəst olduğunu bildirmişdir. Əbu Bəkr də öz növbəsində Bilalı azad etmişdir.[16]

Bu və analoji hallar erkən Məkkə müsəlman cəmiyyətində dəfələrlə baş vermişdir. Müsəlmanların ortaya çıxan çətinliklərə həmrəylik sayəsində sinə gərdiklərini görən Məkkə müşrikləri bu dəfə onları kütləvi şəkildə cəzalandırmağa qərar verdilər. Buna görə müsəlmanlarla bütün əlaqələri kəsdilər.

Qəbilədaşlarının onlara qarşı hərəkətini görən müsəlmanlar bu çətinliyin öhdəsindən gəlməyin yeganə yolunun həmrəylik olduğunu başa düşürdülər. Bunun üçün də bütün müsəlmanlar Əbu Talib dərəsində toplanmağa başladılar. Bu yolla iqtisadi embarqo və blokadaya müqavimət göstərə biləcəklərini düşünən insanlar burada misli görülməmiş bir həmrəylik nümayiş etdirdilər. Əllərindəki var-dövləti və pulu bir yerə toplayaraq birlikdə istifadə etdilər. Üç il keçmiş, pul qurtarmış və müsəlmanlar aclıq və yoxsulluq ucbatından ağac yarpaqları ilə qidalanmalı olmuşdular.[17] Bu şəkildə əqidələrindən dönməyərək çətinliklərlə mübarizə apara bilmişdilər.

---

[15] Subhani, Furuği-əbədiyət, s. 196.

[16] Buxari, əs-Səhih, Fəzailu-əshabin-nəbi, 23.

[17] Hüsni Ədhəm Cərrar. Allah naminə qardaşlıq və sevgi, (Tərc. Elvüsal Məmmədov), “İdrak” İctimai Birliyi, Bakı, 2010, s. 42-43.

### 3.2. Mədinədə islam həmrəyliyi

Məkkədə bütün bunlar baş verərkən Məhəmməd peyğəmbər öz tərəfdarlarına Həbəşistana (indiki Efiopiya) köç etmə əmrini verdi. Digər tərəfdən Yəsribdə müsəlman icması formalaşmağa başlamışdı. Məkkəyə gəlib Məhəmməd peyğəmbərə gizlicə biət edən yəsribliler onu öz şəhərlərinə dəvət etdilər və himayə etmə sözü verdilər. Məkkədə yaşamaq imkansız hal aldıqda Yəsribə hicrət əmri verildi. Lakin bu dəfə vəziyyət fərqli idi. Yəsribə sadəcə möminlər deyil, Məhəmməd peyğəmbər də hicrət etmək əmrini almışdı.

Hər şeyini Məkkədə qoyaraq doğma yurdlarını tərk edən məkkəlilərin köməyinə daha əvvəl islamı qəbul edən yəsribli[18] qardaşları yetişdi. Onlar mühacirləri qonaq etmək üstündə bir-biri ilə yarışdılar. Hətta bunun üçün püşk atmağa başladılar.

Məhəmməd peyğəmbərin Mədinədə gördüyü işlərin ən əhəmiyyətlisi aralarında uzun illərdir qan davası olan iki qəbiləni – Övs və Xəzrəci barışdırmaq oldu. O, yaxşı bilirdi ki, yüz ildir bir-birinə düşmən olan bu iki qəbilə arasında ədavət davam etdikcə Mədinədə əmin-amanlıq yaranmayacaqdır.

Məhəmməd peyğəmbərin müsəlmanların həmrəyliyi uğrunda gördüyü başqa bir iş isə mühacirlərlə (Məkkədən hicrət edənlərlə) ənsarı (mədinəli müsəlmanları) qardaş elan etmək oldu. Mühacirlərlə onları doğma qəbul edən mədinəli müsəlmanlar arasındakı qardaşlıq hissi Məhəmməd peyğəmbərin onları qardaş elan etməsi ilə zirvəyə çatdı. Bu hiss o dərəcə güclü idi ki, qan qardaşlığından da üstün hesab edilirdi.

---

[18] Məhəmməd peyğəmbər Yəsribə hicrət etdikdən sonra bu şəhər Mədinətur-Rəsul adını aldı və qısaca Mədinə deyildi.

Məhəmməd peyğəmbər müxtəlif yerlərdən gəlmiş, fərqli zümrə və irqlərə, əsil-nəcabətə mənsub insanlardan ibarət birlik yaratdı. Peyğəmbərin elan etdiyi qardaşlıq, əsil-nəcabətli səhabələrlə zəif zümrə mənsubu olan müsəlmanlar arasındakı münasibətləri möhkəmlətmişdi. Məsələn, əsil-nəcabətli Həmzə ibn Əbdülmüttəlib ilə tanınmamış nəsildən olan Zeyd ibn Harsiə qardaş olmuşdular. Bir sözlə, qardaşlıq islam cəmiyyətinin fərdləri arasında əməli bərabərlik prinsipini formalaşdırmışdı. [19]

Məhəmməd peyğəmbər tərəfindən elan olunan qardaşlıq qətiyyən sözdə qalmadı, əməli müstəvidə də özünü göstərdi. Qardaş qardaşının hər cür ehtiyacını qarşıladı, evini, işini onunla paylaşdı. Subaylar evləndirildi, qardaşlarının qürbət hissini yaşamamaları üçün əldən gələn edildi.

Mədinədə qardaşlıq elanının səbəblərini Məhəmməd Əbu Zəhra belə açıqlayır:

**Birinci:** güclü və zəif arasında yaxınlığı təmin etmək, möminlər arasındakı dostluğu möhkəmləndirmək və bir möminin digərindən üstün tutulmasına imkan verməmək;

**İkinci:** mühacirlər müxtəlif qəbilələrin nümayəndələrindən təşkil olunmuşdular. Məsələn, Qəraşi oğulları daha varlı idilər. İslam qardaşlığı sayəsində onların arasındakı qəbilə təəssübkeşliyi, əsil-nəcabətə bağlılıq kimi hallar aradan qaldırılmalı idi;

**Üçüncü**: Mədinə müsəlmanları arasında da birlik yox idi. İslamı qəbul etməzdən qabaq Mədinənin Xəzrəc və Övs qəbilələri arasında dəhşətli müharibə olmuşdu. Ədavət hissi mütləq unudulmalı idi. Bunun da öhdəsindən islam qardaşlığı gəldi;

---

[19] Cərrar, Allah naminə qardaşlıq və sevgi, s. 45.

**Dördüncü**: Məhəmməd peyğəmbərin qardaşlıq prinsipi təkcə hər hansı bir arzuedilməz halın qarşısını almaq, yalnız mühacirlərlə mədinəli müsəlmanlar arasında birlik yaratmaq deyil, həm də müsəlman olan bütün insanları birliyə alışdırmaq məqsədi güdürdü. Bundan sonra belə bir sistemə böyük ehtiyac hiss olunacaqdı".[20]

Qardaşlığın yuxarıdakı təsviri islam cəmiyyətində sabitliyə yol açan, parçalanmadan qoruyan əlaqələr sistemini özündə əks etdirir. Bəli, qardaşlıq islam cəmiyyətini iğtişaşlardan, hərc-mərclikdən sığortalayan qüvvədir. Mədinəli müsəlmanların məkkəli mühacirlərlə qardaşlaşması qəbilə təəssübkeşliyi münasibətlərinin də tezliklə aradan qalxmasına rəvac vermiş oldu.[21]

Nümunələrdə də görüldüyü kimi, Məhəmməd peyğəmbər möminlər arasındakı din (iman) qardaşlığı hissini gücləndirməyə çalışmış, bu şəkildə cəmiyyətdə vəhdəti təmin etmiş, müsəlmanlara ümmət şüuru qazandırmış, bu da möminlərin həmrəyliyi baxımından əhəmiyyət kəsb etmişdir.

## 4. Məhəmməd peyğəmbərin vəfatından sonra baş verən bəzi hadisələr və bunların aradan qaldırılmasında həmrəyliyin rolu

Məlum olduğu kimi, Məhəmməd peyğəmbər bir peyğəmbər olmaqla yanaşı, başqa vəzifələri də öhdəsinə götürmüşdü. Bu vəzifələrdən biri də Mədinədə əsasını qoyduğu islam dövlətinə başçılıq idi. Bu hal təbii olaraq ondan sonra kimin dövlət başçısı olacağı məsələsini aktuallaşdırırdı.

---

[20] Məhəmməd Əbu Zəhrə. Xatəmun-nəbiyyin, Qahirə, Darul-fikr əl-ərəbi, 2012, c. 2, s. 490-493.

[21] Cərrar, Allah naminə qardaşlıq və sevgi, s. 48.

Məhəmməd peyğəmbərin vəfatından sonra bu məsələ aktuallıq kəsb etmiş, müsəlmanlar arasında ixtilaf yaranmışdır. Bir qrup mədinəli ənsar Bəni-Saidə kölgəliyində toplaşıb öz namizədlərini xəlifə seçməyə çalışdılar. Məsələdən xəbər tutan Əbu Bəkr və Ömər dərhal hadisə yerinə getmiş, məsələyə müdaxilə etmişlər. Uzun sürən mübahisələr nəticəsində Əbu Bəkr xəlifə seçilmişdir.

Əbu Bəkrin xəlifə olmasına başda Əli ibn Əbi Talib olmaqla, Haşimoğulları etirazlarını bildirmiş və ona biət etməkdən imtina etmişlər. Bu da müsəlman cəmiyyətində parçalanmaya səbəb olmuşdur.[22]

Bütün bunlar baş verərkən Məhəmməd peyğəmbərin vəfatını fürsət bilən bəzi qəbilələr zəkat verməkdən imtina etdilər. Mərkəzi hakimiyyəti tanımayan bu qəbilələrlə yanaşı, Müseyləmə kimi yalançı peyğəmbərlər də ortaya çıxmağa başladı.

Bir tərəfdə Mədinədə pərakəndəlik, digər yanda dindən dönmə halları, islam dövlətinə qarşı fürsət gözləyənlərin həvəslənməsinə səbəb olmuşdu. Hadisəyə tez bir zamanda və sürətlə müdaxilə edilməsə, bunun çox ağır nəticəsi ola bilərdi.

Vəziyyətin gərginliyini görən Əli ibn Əbi Talib və Haşimoğulları aralarındakı ixtilafı bir kənara qoyub, müsəlmanların ümumi mənafei üçün birlikdə hərəkət etməyə qərar verdilər. Müsəlmanların həmrəyliyi nəticəsində islam dövləti böyük bir təhlükəni dəf edə bildi.

Əli ibn Əbu Talib və Haşimoğullarının bu hərəkəti müsəlmanların vəhdəti baxımından əhəmiyyət kəsb edirdi. Bu durum Əli ibn Əbu Talibin xəlifə seçilməsi ilə zirvəyə çatdı.

---

[22] İlyas Üzüm. Mezhep // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, 44 cilddə, XXIX, İstanbul, 2004, s.526.

Əli ibn Əbu Talibin xəlifə seçilməsi ilə birlikdə müsəlman cəmiyyətində yeni problemlər özünü göstərdi. Onun xilafətinə qarşı çıxanların səbəb olduğu daxili müharibələr müsəlmanların yenidən parçalanmasına səbəb oldu. Müsəlmanlar fərqli adlar altında bölündülər.

### 4.1. Səlib yürüşünə qarşı islam həmrəyliyi

Yuxarıda da qeyd etdiyimiz kimi Məhəmməd peyğəmbərin vəfatından sonra baş verən hadisələr müsəlmanlar arasında bəzi problemlərin yaranmasına gətirib çıxartdı. Əvvəllər o qədər dərin olmasa da, sonralar müsəlmanlar arasında fərqli məzhəblərin yaranmasına səbəb oldu. Bu məzhəblər arasında vaxtaşırı toqquşmalar baş vermiş, qan tökülmüşdür.

Bütün bunlara baxmayaraq, müsəlmanlar yeri gəldikdə onlara qarşı yönələn təhlükəyə qarşı birlikdə mübarizə apara bilmişlər. Aralarındakı ixtilafı bir tərəfə qoyub ortaq düşmənə qarşı birləşməyin yolunu tapmağa çalışmışlar. Bu həmrəyliyin ən gözəl nümunələrindən biri də səlibçilərə qarşı göstərilən həmrəylikdir.

Qərbi Avropa dövlətlərinin xristian dini üçün müqəddəs sayılan torpaqları (indiki Fələstin və Suriya ərazilərini) ələ keçirmək naminə XI-XIII əsrlərdə Yaxın Şərq istiqamətində həyata keçirdikləri irimiqyaslı hərbi yürüşlər tarix kitablarında "səlib yürüşləri" adı ilə xatırlanır. “Səlib” ərəb dilindən tərcümədə “xaç” deməkdir. Bu yürüşün iştirakçıları fərqlənmə rəmzi kimi öz geyimlərinə qırmızı parçadan kəsilmiş xaç simvolu tikirdilər. Buna görə də bu hərbi əməliyyatları “xaç yürüşləri”, onların iştirakçılarını isə “xaçlılar” və “səlibçilər” adlandırırlar. Tarixdə səkkiz böyük Səlib yürüşü olmuşdur.

Səlib yürüşləri müsəlmanların tabeçiliyində olan torpaqları, xüsusilə İsa Məsihin məzarının yerləşdiyinə inanılan Yerusəlim (Qüds) şəhərini “kafirlər”dən xilas etmək pərdəsi altında həyata

keçirilirdi. Əslində isə bu hərbi yürüşləri törədən səbəbləri o zamankı siyasi-iqtisadi, sosial-mədəni şəraitdə axtarmaq lazımdır. Mərkəzi hakimiyyətdən uzaqlaşmağa, müstəqil olmağa can atan Avropa feodalları özləri üçün geniş ərazilər ələ keçirmək istəyirdilər. Avropadakı bütün torpaqlar artıq çoxdan bölüşdürülmüşdü. Feodallara qeydsiz-şərtsiz hakimiyyət sürmək üçün boş və sahibsiz ərazilər lazım idi. Onlar bu məqsədlə müsəlmanların əlindəki torpaqları mənimsəmək niyyətində idilər. Ardı-arası kəsilməyən daxili müharibələr, dəhşətli yoluxucu xəstəliklər sadə xalqı əldən salmışdı. Sıravi insanlar səyyahların xatirələrində rast gəlinən cənnətə bənzər yerləri, "su əvəzinə süd və bal axan çayları" ələ keçirmək arzusunda idilər. Avropanın iri ticarət mərkəzləri də mühüm strateji mövqeyə malik olan, ticarət yollarının kəsişmə nöqtəsində yerləşən torpaqlara sahib olmaq istəyirdi. Bir tərəfdən də Roma papaları öz malikanələrini Şərqə doğru genişlətmək, 1054-cü ildəki kilsə parçalanmasından sonra zəifləmiş nüfuzlarını Müqəddəs Torpağın hesabına möhkəmlətmək və eyni zamanda papalıq üçün təhlükə törədən dövlətlərin başını müharibə ilə qatmaq məqsədini daşıyırdılar. Mühüm səbəblərdən biri də Bizans imperatoru I Aleksiy Komninin papaya müraciət edərək Bizans torpaqlarını hədələyən səlcuq türklərinə qarşı mübarizədə onu dəstəkləməsini xahiş etməsi idi.[23]

Xristian aləmində bütün bunlar baş verərkən islam dünyasında vəziyyət heç də yaxşı deyildi. Bir tərəfdən şiə-sünni gərginliyi mövcud idisə, digər tərəfdən sünni məzhəbləri də öz aralarında problemlər yaşayırdı.[24]

---

[23] http://az.islam.az/article/a-100.html

[24]Bu haqda bax: Hayrettin Karaman. İslam'ın Işığında Günümüz Meseleleri, İz Yayıncılık, İstanbul, 2003, II, 633-639.

Şimali Afrikada Abbasilərə alternativ olaraq qurulan Fatimilər dövlətinin qurucuları şiəliyin ismailiyyə qoluna mənsub idilər. Hədəfləri isə Abbasiləri ortadan qaldırıb bütün islam dünyasının hakim olmaq idi.[25]

Digər tərəfdən isə hənbəlilər özlərindən olmayan sünni və şiələrə qarşı zorakılıq tətbiq edir, təkfir edərək onlara yaşama haqqı vermirdilər. Əhli-sünnənin digər məzhəbləri arasında da vəziyyət gərgin idi.

Mərkəzi Abbasi hakimiyyəti zəifləmiş, bölgələrdə xəlifəyə zahirən bağlı olan və əslində müstəqil olan müsəlman dövlətləri yaranmışdı. Bu dövlətlər də bir-biri ilə müharibə şəraitində idilər.

Xristian aləmindən gələn təhlükədən qorunmağın yeganə yolu aralarındakı ixtilafları bir tərəfə qoyub, ortaq düşmənə qarşı birləşmək idi. Ancaq bu yolla düşmənin hücumlarını dəf etmək mümkün idi.

İslam tarixində sünnilərlə şiələr arasında baş tutan ən önəmli vəhdət məhz bu dövrdə baş vermişdir. Səlibçilər qarşısında sünnilərlə suriyalı imamiyyə şiələri birlikdə çiyin-çiyinə mübarizə apararaq çox gözəl həmrəylik nümayiş etmişlər.

Mənbələrdə qeyd olunduğuna görə, Tripolini səlibçilərə qarşı müdafiə edən imamiyyə şiəliyinə mənsub İbn Əmmarın köməyinə sünni Humus əmiri şəxsən gəlmiş, Şam əmiri isə ordu göndərmişdir.[26]

Həmin dövrdə müsəlman həmrəyliyinin bir başqa nümunəsi Hələbdə görülmüşdür. Burada səlibçilərə qarşı örtülü bir sünni-imamiyyə ittifaqı vardı. Hələbin səlibçilərin əlinə keçməsinə mane

---

[25] Eymen Fuat es-Seyyid. Fatîmiler // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, 44 cilddə, XXII cild, İstanbul, 2000, s. 230.
[26] İbnul-Əsir Məhəmməd ibn Məhəmməd ibn Əbdülkərim əş-Şeybani. əl-Kamil fit-Tarix, Misir, 1356, c.9, s. 55.

olan şəxslərdən biri və bəlkə də, ən önəmlisi imamiyyə fəqihi Əbul Fəzl ibn Həşşab (v. 1125) idi.[27]

1110-cu ildə Hələbin yaxınlığındakı əl-Əsarib qalasının səlibçilərin əlinə keçməsi hələbli sünnilərlə şiələr arasında vəhdət hissinin ortaya çıxmasına səbəb oldu. Şəhərin hakimiyyəti uğrunda rəqabət halında olan sünnilərlə imamiyyə şiələri düşmən təhlükəsinə qarşı çıxış yolunun məhz ixtilafları bir tərəfə qoymaq və birlikdə hərəkət etmək olduğunu görürdülər. Bu səbəblə bir çox fəqih, tacir və təsəvvüf rəhbərindən təşkil olunan bir qrup Səlcuqlu sultanı Məhəmməd ibn Məlikşah (1105-1118) və Abbasi xəlifəsi əl-Müstəhzirdən (1094-1118) kömək istəmək üçün Bağdada getdilər.[28]

Səlibçilərə qarşı mübarizədə analoji ittifaq həmin dövrdə sünnilərlə ismailiyyə şiələri arasında müşahidə olunur. Məlum olduğu kimi, şiəliyin bir qolu olan ismailiyyə, imamiyyəyə nisbətən sünnilər tərəfindən daha təhlükəli görülmüşdür. Xüsusilə yuxarıda da qeyd etdiyimiz kimi, Abbasilərə qarşı Misirdə Fatimi dövlətini quran və alternativ xilafət yaradan ismaililərlə sünnilər arasında daima gərginlik olmuşdur. Nizari ismaililər bir çox sünni din və dövlət adamına sui-qəsd təşkil etmişdi.

Aralarındakı dərin düşmənliyə baxmayaraq, bütün ixtilafları bir kənara qoyub mövcud ciddi təhlükə qarşısında həmrəylik nümayiş etdirə bilmişlər. Mənbələr Səlahəddin Əyyubi ilə nizari şiələrin lideri Sinan arasındakı ittifaqın səlibçi hücumlarının dəfində mühüm əhəmiyyət kəsb etdiyini qeyd edir.[29]

---

[27] Muhammed b. Muhtar eş-Şankıtî. Haçlı Savaşının Etkisi Altında Sünni-Şii İlişkileri, Mana Yayınları, İstanbul trs., s.

[28] İbnul-Əsir, əl-Kamil, 9, 141.

[29] Bu haqda geniş məlumat üçün bax: Şankıti, Sünni-Şii İlişkileri, s. 107-162.

Bütün bunlar həmrəyliyin əhəmiyyətini göstərdiyi kimi, digər tərəfdən də müsəlmanların yeri gəldiyində birlikdə hərəkət edə bildiyini ortaya qoyur.

Səlibçilərə qarşı nümayiş olunan həmrəylik, təəssüflər olsun ki, monqollara qarşı göstərilməmişdir.

Bu dövrdə islam dünyası xüsusən də İran, İraq və Suriya bölgəsi siyasi və ictimai baxımdan qarışıq vəziyyətdə idi. Bu dövrdə İran Səlcuqluları süqut etmiş (1157), Anadolu Səlcuqluları Səlib yürüşlərinə görə zəifləmiş, İran Səlcuqlularının qalıqları üzərində Xarəzmşahlar dövləti qurulmuşdu. Həmin dövrdə Misir və Suriyanı əlində tutan Əyyubilər Anadolu Səlcuqluları ilə gedən mübarizədə zəifləmişdi.[30]

Belə bir dövrdə Monqol istilaları başlamış, islam dünyası buna qarşı hər hansı bir həmrəylik nümayiş etdirə bilməmişdir. Çünki həmin ərəfədə sünnilərlə şiələr arasında çəkişmə mövcud idi. Bununla yanaşı, sünnilər öz aralarında da ixtilaf halında idi. Hənbəlilərlə əşarilər, hənəfilərlə şafeilər arasındakı rəqabət zamanla toqquşmaya səbəb olur və bunun nəticəsində qan tökülürdü.[31]

Öz aralarında problemlər yaşayan müsəlmanlar, təəssüf ki, monqol təhlükəsinə qarşı vəhdət təşkil edə bilməmiş, ağır nəticəsi ilə qarşı-qarşıya qalmışdılar.

---

[30] Bertold Spuler. İran Moğolları: Siyaset İdare ve Kültür İlhanlılar Devri 1220-1350, (Tərc. Cemal Köprülü), TTK, Ankara, 1987, s. 29-30; Ayşe D. Erdem Kuşçu. “İlhanlı Devleti’nin Kuruluşu ve Memlüklerle İlk Teması”, Türkler, VIII, s. 364.

[31] Qazi Nurullah Şüştəri. Məcalisul-muminin, Tehran, 1945.

## 4.2. Türkiyədə Milli Azadlıq hərəkatı və islam həmrəyliyi

İslam tarixində müsəlman həmrəyliyinin ən gözəl nümunəsi Türk Milli azadlıq hərəkatı zamanı müşahidə olunmuşdur. Bir çox cəbhədə mübarizə aparan və torpaqlarını düşmən işğalından azad etməyə çalışan türklərə islam dünyasının bir çox yerindən maddi və mənəvi dəstək gəlmişdir.

Məscidlərdə namazlarında Osmanlı türklərinin qalibiyyəti üçün dua edən müsəlmanlar onlara silah-sursat, pul və əsgər yardımı da göstərmişlər.

Türklərin milli mübarizəsinə dəstək verən xalqlardan biri də Azərbaycan xalqıdır. Həmin dövrdə müstəqilliyini yenicə qazanmış olan Azərbaycan Cümhuriyyəti hökuməti Anadoluda başlayan milli mübarizə hərəkatına etinasız yanaşmamış, əlindəki bütün imkanlardan istifadə edərək mənəvi və maddi dəstək nümayiş etdirmişdir.

Məsələn, Azərbaycan höküməti müxtəlif yollarla Amasyada olan Cəmil Cahid (Toydəmir) bəylə məktublaşaraq Anadoluya hər cür yardım göstərməyə hazır olduqlarını bildirmişdir.

Yenə həmin dövrdə Azərbaycan Cümhuriyyəti Baş naziri Nəsib bəy Yusifbəyli türklərə 1.5 milyon fransız franqı miqdarında pul qarşılığında çek göndərmişdir.

Azərbaycandan Türkiyəyə maddi yardımdan başqa, hərbi yardım da göstərilmişdir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti ordusuna bağlı bir dəstə cümhuriyyət dağıldıqdan sonra Kazım Karabəkir komandanlığındakı şərq cəbhəsi dəstələrinə qoşulmuşdur.

Bir piyada batalyonu və bir süvari polkundan meydana gələn dəstə dərhal Şərq cəbhəsinə göndərilmiş və Şərqi Anadolunun erməni işğalından azad edilməsi ilə nəticələnən hərəkata qoşulmuşdur. Azərbaycan türklərindən meydana gələn bu dəstə qazandığı

uğurlardan ötrü həmin polkun əsasında 6-cı süvari tüməni meydana gətirmişdir.

Bu nizami dəstə ilə yanaşı milli mübarizənin müxtəlif cəbhələrində də çoxlu sayda azərbaycanlı zabit və əsgər könüllü şəkildə iştirak etmişdir. Məsələn, Çanaqqala döyüşündə bir çox azərbaycanlı iştirak etmiş və şəhid olmuşdur.

Milli mübarizədə türk qardaşlarına köməyə gedən əsgər və zabitlərin önəmli bir hissəsi İstiqlal müharibəsindən sonra da orduda qalmış və müxtəlif üst rütbələrə qədər yüksəlmişdir.

Azərbaycan xalqının qardaş türk xalqının milli azadlıq mübarizəsinə dəstəyi Azərbaycan Sovet Respublikası dövründə də artaraq davam etmişdir.

Azərbaycanın göstərdiyi maddi yardımdan əvvəl Türkiyəyə qarşı göstərdiyi qardaşlıq nümunəsi həmin dövr üçün çox önəmlidir. İngilislər tərəfindən həbs edilərək Maltaya sürgün edilən İttihad və Tərəqqi Partiyası üzvlərinin və keçmiş hökumətin məmurlarının xilası üçün Azərbaycan tərəfinin göstərdiyi cəhdlər diqqəti cəlb edir. O dövrün Azərbaycan rəhbəri Nəriman Nərimanov Bakıda olan ingilislərin Maltada saxlanılan türklərlə dəyişdirilməsini təklif etdi. İngilis hökuməti bu təklifi qəbul etmədi.[32] Azərbaycan hökuməti də öz növbəsində Bakıdakı ingilis əsirlərinin qaytarılmayacağını bildirdi.

Həmin dövrdə Azərbaycan mətbuatı da qardaş Türkiyə xalqına dəstək nümayiş etdirirdi. Bakıda latın hərfləri ilə nəşr olunan "Yeni Yol" qəzeti Azərbaycan xalqına belə səslənirdi: "Mustafa Kamalın əsgərlərinin təkbaşına mübarizə apardığı bir dövrdə Anadoludakı türk qardaşlarımıza kömək etməli, iaşə toplamalı və lazım gəlsə,

---

[32] H. Adıgüzel. Atatürk, Nerimanov ve Kurtuluş Savaşımız, İstanbul, İleri Yayınları, 2004, s. 89.

gedib orada canımızı fəda etməliyik..."[33] Bütün bunlar azadlıq mübarizəsi edən qardaş türk xalqının müharibə əhval-ruhiyyəsini artıran amillər idi.

Bununla yanaşı, Sovet Azərbaycanı qardaş Türkiyə xalqının Milli Azadlıq hərəkatında kifayət qədər ona maddi yardım göstərmişdir. 1921-ci ildə türk ordusunun bir-birinin ardınca əldə etdiyi I və II İnönü müharibələri şərəfinə 30 vaqon neft, 2 vaqon benzin və 8 vaqon qaz yağı göndərmişdir.[34] Bundan əlavə, şəhid əsgərlərin yetim qalmış uşaqlarının qaldığı uşaq evləri üçün hər ay üç tank qaz yağı göndərilməsinə qərar verilmişdi. [35] Eyni şəkildə Nərimanovun xüsusi əmri ilə Azərbaycan hökuməti tərəfindən TBMM-nin heç bir tələbi olmadığı halda, 62 vaqon neft göndərilmişdi. Bundan başqa, Azərbaycan hökuməti qardaş türk xalqına istiqlal mübarizəsi boyunca hər ay 62 vaqon neft və 3 vaqon qaz yağı göndərməyi öz öhdəsinə götürmüşdü.[36]

Mustafa Kamal Atatürkün borc tələbinə qarşılıq Nəriman Nərimanov Ankaraya 500 kiloqram qızıl göndərmişdir. TBMM Hökuməti bu qızılın 200 kiloqramını dövlət büdcəsinə ayırmış, qalanlarla isə silah-sursat almışdır. Daha sonra isə Rusiyadan alınan 10 milyon qızıl rubl da Ankaraya göndərilmişdir.[37]

Yuxarıda qeyd etdiklərimiz Türkiyə ilə Azərbaycanın qarşılıqlı yardımı dövlətlərarası mənfəət münasibətlərinin üstündə idi. Bunun ən gözəl izahı bizcə "müsəlman həmrəyliyi"dir. Nəriman Nərimanovun Atatürkə yazdığı məktubda belə ifadə olunur: "Paşam, türk

---

[33] B. Aslan. Türkiye Azerbaycan İlişkileri ve İbrahim Ebilov (1920-1923), İstanbul, Kaynak Yayınları, 2004, s.108-109.
[34] Adıgüzel, Atatürk, Nerimanov ve Kurtuluş Savaşımız, s. 116.
[35] Aslan, Türkiye Azerbaycan İlişkileri, s. 104.
[36] Aslan, Türkiye Azerbaycan İlişkileri, s. 104.
[37] Adıgüzel, Türkiye Azerbaycan İlişkileri, s. 117.

millətində belə bir ənənə var; qardaş qardaşa borc verməz, qardaş hər halda qardaşının əlindən tutar. Biz qardaş xalqlarıq, həmişə və hər bir şərtdə bir-birimizin əlindən tutacağıq. Bu gün etdiklərimiz bir qardaşın etdiyindən başqa bir şey deyildir."[38]

Azərbaycan xalqı ilə yanaşı Hindistan müsəlmanlarının da Türk İstiqlal müharibəsində böyük rolu olmuşdur. İki ölkə arasındakı məsafənin uzaq olmasına baxmayaraq, hind müsəlmanlarının milli mübarizə, Türkiyənin müstəqilliyinə maddi yardımlar və siyasi sahədəki fəaliyyətləri olduqca önəmlidir.

Türk Milli Azadlıq hərəkatını dünya ictimaiyyətinə xüsusən də ərəb və islam dünyasına çatdırmaqda və beləcə türklərə maddi və mənəvi dəstəyin təmin edilməsində Hindistan müsəlmanlarından Mövlana Məhəmməd Əli və Şövkət Əli qardaşları, Ağa Xan, Seyyid Əmir Əli, Abdulbari, Yusif Əli, Şeyx Qidavi və İspahani kimi liderlərin təşkil etdiyi Hind Xilafət Komissiyasının İngilislərə qarşı başladığı hərəkat ilə Ağa Xanın ingilis hökümətinə müracəti əsas rol oynamışdır.

Məhəmməd Əli Anadoluya gələrək milli mübarizə rəhbərləri ilə görüşmüş və işğalçılara qarşı edilən mübarizəni daha yaxından görmək imkanı əldə etmişdir. O, bu ziyarəti əsnasında Mustafa Kamal Atatürk ilə görüşmüş onunla bəzi məsələləri müzakirə etmişdir. Bu görüşdə Mustafa Kamal ondan Hidistanda Anadoludakı mübarizə ilə əlaqədar təbliğat aparmasını xahiş etmişdir.

Məhəmməd Əli ilə Mustafa Kamal arasındakı əlaqə Məhəmməd Əlinin Hindistana qayıtmasından sonra da davam

---

[38] Adıgüzel, Atatürk, Nerimanov ve Kurtuluş Savaşımız, s. 117. Bu haqda geniş məlumat üçün bax: Mahir Aslan. Atatürk ve Azerbaycan Politikası, Yüksek Lisans Tezi, Trakya Üniversiteti Sosyal Bilimler Enstitüsü, Edirne, 2008, s. 27-54.

etmişdir. Məhəmməd Əli 70 min müsəlmanın adından Mustafa Kamala yazdığı məktubunda Hindistan Xilafət Komissiyasının izləyəcəyi siyasət haqqında qəti qərara gəldiyini qeyd etmiş və sülh müqaviləsinin Türkiyə əleyhinə nəticələnməsi halında bütün islam ölkə nümayəndələrinin iştirak edəcəyi və islam həmrəyliyi adına son qərarların veriləcəyi bir konfransın təşkilini təklif etmişdir.

Hindli müsəlmanların fəaliyyətləri nəticə vermiş və ingilis hökuməti istər müsəlman, istərsə də buddist, heç bir hindistanlıdan Anadoludakı milli güclərə qarşı istifadə etməyəcəyini bildirmişdir.

Hindli müsəlmanların müsəlman türk xalqına dəstəyi bunlarla məhdud deyildi. Onlar siyasi dəstəklə yanaşı maddi və hərbi yardımlar da göstərmişlər.

Həmin tarixlərdə Anadoludakı mübarizə hərəkatına yardım göstərmək və silah göndərmək məqsədilə Hindistanda pul yığılmışdır.

Bu dövrdə Hindistan müsəlmanları müxtəlif adlar altında və xeyli sayda insan gücü ilə Anadoluda milli mübarizə lehinə faktiki olaraq vuruşmuşlar. Bu hərəkət Hindistan müsəlmanlarının Türkiyəni sadəcə mənəvi olaraq deyil, eyni zamanda hərbi sahədə də dəstəklədiklərini və müsəlman türk xalqının işğaldan azad olması üçün çalışdıqlarını aşkar bir şəkildə göstərir.

Hindli müsəlman əsgərlərdən bir qismi Anadoluda bölgə-bölgə gəzdirilmiş, Anadolu xalqına istiqlal mübarizələrində tək olmadıqları, bütün müsəlmanların onlarla həmrəy olduğu mesajı verilmiş, bu da onların əhval-ruhiyyəsini yüksəltmişdir.[39]

---

[39] Metin Hülagü. Milli Mücadele Dönemi Türkiye-İslam Ülkeleri Münasebetleri, s. 919. http://www.atam.gov.tr/wp-content/uploads/Metin-H%C3%9CLAG%C3%9C-Milli-M%C3%BCcadele-D%C3%B6nemi-T%C3%BCrkiye-%C4%B0slam-%C3%9Clkeleri-M%C3%BCnasebetleri.pdf

Hindistan müsəlmanlarının ingilis hökümətinə təzyiqi nəticəsində ingilislər istər buddist, istərsə də müsəlman olsun heç bir hindlini Anadoludakı milli güclərə qarşı vuruşdurmayacağını qəbul etmişdir.[40]

Türklərin milli mübarizəsində payı olan bir başqa xalq isə Suriya xalqıdır. Suriya xalqı həmin dövrdə Anadoludakı müsəlman qardaşları ilə həmrəylik nümayiş etdirmiş, buradakı müstəqil partiyalar Fələstin və İraqdakı partiyalarla birləşərək Türkiyə tərəfdarı mövqeyindən çıxış etmişlər.

Bununla yanaşı, Mustafa Kamal tərəfindən Şam müftisinə Anadoluda yunanlara qarşı əldə edilən qalibiyyəti bildirən və ondan islam davasının uğur qazanmasına vəsilə olması üçün mövlud və dua oxumasını istəyən bir teleqram göndərilmişdir. Bu zəfər xəbəri Şam və Hələbdə böyük sevinclə qarşılanmış, şənliklərlə qeyd edilmiş, Mustafa Kamala Şam əhalisinin qabaqcıl şəxsiyyətləri tərəfindən təbrik teleqramı göndərilmiş və ona "Seyful-islam" ünvanı verilmişdir. Bundan başqa, bəzi məscidlərdə 22 sentyabr axşamı mövlud oxudulmuş, Beyrutda yığılan on min lira da yardım olaraq Anadoluya göndərilmişdir.[41]

Milli İstiqlal müharibəsində türkləri dəstəkləyən bir başqa ölkə isə İrandır. Türk milli mübarizə liderləri İran ilə münasibətlərə əhəmiyyət vermiş və bu ölkə ilə yardımlaşma müqaviləsi bağlamışlar. Bu zaman İran təhsil naziri Mümtazuddövlə rəhbərliyində bir heyət Ankaraya gəlmişdir. İran təhsil naziri bir müsahibəsində: "İki millət arasındakı qardaşlıq əlaqələrinin son zamanlarda daha da

---

[40] Abdülkerim Rafik. Türkiye-Suriye İlişkileri 1918-1926 // Türk Dünyası Araşdırmaları Dergisi, (Tərc. Sabahattin Samur), fevral 1994, sayı 88, İstanbul, s. 44-58.

[41] Rafik, Türkiye-Suriye İlişkileri, s. 51, 57.

gücləndiyini, bundan sonra hər iki millətin fəlakət və xoşbəxtliklərini qarşılıqlı olaraq birlikdə bölüşəcəklərini”, – bildirmişdir.[42] Türkiyə ilə İran arasındakı münasibətlər sonrakı illərdə daha da inkişaf etmiş və hərbi yardımlaşma ilə yanaşı təhsil sahəsində də həmrəyliyə qədər uzanmışdır.[43]

İraq xalqı da müsəlman türk xalqını milli mübarizəsində tək qoymamış və onları dəstəkləmişdir. Mustafa Kamal Atatürk Kərbəla müctəhidlərindən biri ilə əlaqə qurmuş və onunla məktublaşmışdır. Şeyxdən gələn və Millət Məclisində oxunan bir məktubda şeyxin öz tərəfdarlarına milli mübarizə və islam üçün mümkün olan hər yola müraciət etmə təlimatını verdiyindən bəhs edilir. Şeyx eyni zamanda İraqın digər bölgələrinə də təbliğat qrupu göndərəcəyinə dair söz verirdi.[44]

Rusiyanın hakimiyyətində olan müsəlmanların da Anadoludakı milli mübarizə hərəkatına maddi olaraq yardım etdikləri bilinir. Onlar maddi yardımla yanaşı, siyasi yardım da göstərmişlər. Məsələn, Rusiyadakı Petroqrad müsəlmanları müsəlman olmayan hər hansı bir dövlət tərəfindən Türkiyəyə hücum olunarsa, müsəlman türk xalqına dəstək verməyə qərar vermişlər və bununla əlaqədar olaraq Rusiyanın idarəsində olan bütün müsəlmanlara bir bəyanat göndərmişlər. Bu bəyanat burada yaşayan bütün müsəlmanlar tərəfindən qəbul edilmişdir.[45]

Milli mübarizə sırasında müsəlman türk xalqını dəstəkləyən müsəlmanlar bununla məhdud deyildir. İslam dünyasının hər

---

[42] Salahi Sonyel. Türk Kurtuluş Savaşı ve Dış Politika I, Ankara, 1987, II, 232.
[43] M. Larşer. Büyük Harbde Türk Harbi, (Tərc. Mehmed Nihad), II cild, İstanbul, 1928, s. 120.
[44]Hülagü, Milli Mücadele Dönemi Türkiye-İslam Ülkeleri Münasebetleri, s. 923.
[45] Sonyel, Türk Kurtuluş Savaşı, c. II, s. 58-59, 230.

tərəfindən qardaş türk xalqının azadlığı uğrunda verdikləri mübarizə dəstəklənmiş, onlara maddi, mənəvi və hərbi yardımlar göstərilmişdir. Bu da islam həmrəyliyinin çox gözəl bir nümunəsini təşkil etmişdir. [46]

Yuxarıda qeyd etdiyimiz nümunələrlə yanaşı həmin dövrdə Osmanlı Türkiyəsinin müsəlman Azərbaycan və Dağıstan xalqına yardımı da İslam həmrəyiliyi çərçivəsində dəyərləndirilməldir.

Məlum olduğu kimi Bakıda hakimiyyəti ələ keçirmiş S. Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejimi həm mərkəzdə həm də bölgələrdə Azərbaycanın türk-müsəlman əhalisinə qarşı kütləvi soyqırım həyata keçirirdi. Qırğınların qarşısını almaq və Azərbaycan xalqının müstəqilliyini qorumaq üçün Osmanlı Türkiyəsinin rəhbərliyində Qafqaz İslam Ordusu quruldu.

Qafqaz İslam Ordusu fəaliyyət göstərdiyi dövrdə Göyçaydan Bakıya qədər olan əraziləri bolşevik-daşnak qüvvələrindən, Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdaxiləçilərindən azad etdi. [47]

Osmanlı Türkiyəsinin bu yardımı həmin dövrdə İslam həmrəyliyinin parlaq təzahürüdür.[48]

## 5. XX əsrdə islam həmrəyliyinə doğru atılan addımlar

Yuxarıda da qeyd etdiyimiz kimi istər Məhəmməd peyğəmbərin sağlığında, istərsə də vəfatından qısa bir müddət sonra

---

[46] Bu haqda geniş məlumat üçün bax: Hülagu, eyni məqalə.

[47] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, Bakı, 2009, c. 2, s. 104-105.

[48] Bu haqda bax: Esmeralda Həsənova. Azərbaycan Respublikasında İslam həmrəyliyinin ideoloji-siyasi əsasları haqqında//Azərbaycan Şərqşünaslığı, sayı 1 (15), 2017, s. 25; Həmin müəllif. Sovyet Azerbaycanı M.K. Atatürkün Söylev ve Demeçlerinde (20. y.y. başlangıcında)//XI. Türk Tarih Kongresi Materialları, Türk Tarih Kurumu Basımevi, Ankara, 1914, s. c. 6, s. 2187-2188.

müsəlmanlar həmrəyliyə diqqət yetirmiş, yalnız bu sayədə ayaqda dura biləcəklərini başa düşmüşlər. Bunun üçün də cəhd etmiş və bunun səmərəsini görmüşlər.

Lakin çox keçmədən müsəlmanlar arasında ixtilaflar dərinləşmiş, daxili çəkişmələr və ziddiyyətlər müsəlmanların əqidəvi mənada parçalanmasına gətirib çıxartmışdır. Bu əqidəvi parçalanma özü ilə bərabər fiziki parçalanmanı da gətirmişdir. Vahid islam dövləti parçalanmış, müxtəlif bölgələrdə dövlətlər yaranmışdır. Daha sonra bu dövlətlər arasında münaqişələr baş vermiş, aralarında müharibələr yaşanmışdır.

Yuxarıda da qeyd etdiyimiz kimi islam dünyası Səlib yürüşləri kimi böyük problemlə qarşı-qarşıya qalmışdı. Müsəlmanlara qarşı kütləvi müharibələrə başlayan Avropa ölkələrinin hücumlarını dəf etmək yalnız həmrəylik sayəsində mümkün olmuşdu. Bu vaxt sünnilərlə şiələrin vəhdəti ortaq düşmənə qarşı müsəlmanların müqavimət göstərməsinə imkan yaratmışdır.

Lakin çox keçmədi ki, islam dünyası başqa böyük bir fəlakətlə qarşı-qarşıya qaldı: Monqol istilaları. Parçalanaraq kiçik dövlətlərə bölünən müsəlmanlar Monqol istilalarına qarşı birləşə bilməmiş və tək-tək işğal edilərək darmadağın edilmişdilər. Monqollar günahsız-günahkar ayırd etmədən talan etmiş, İslam dünyasını viran qoymuşdular.

İslam dünyasında ixtilafların gətirdiyi müsibətlər Əndəlüs Əməvi dövlətindən də yan keçməmişdir. Məlum olduğu kimi, Əndəlüs Əməvi dövləti 711-1492-ci illər arasında indiki İspaniyada hökm sürən İslam dövləti idi. 1031-ci ildə son xəlifə III Hişamın ölməsilə Əndəlüs torpaqları çoxlu sayda müstəqil dövlətlərə bölünmüşdür. Bu kiçik dövlətlər həm öz aralarında çəkişmiş, həm də İspaniya xristian dövlətciklərinin hücumu ilə qarşı-qarşıya qalmışdır.

Bir zamanların hər sahədə parlaq ulduzu olan Əndəlüs Əməvi dövləti həmin tarixdən etibarən zəifləməyə başlamış, daha sonra süquta uğrayaraq parçalanmışdır. Müsəlman mədəniyyətinə aid məscid, mədrəsə, saray və bir çox bina məhv edilmiş, yaşlı, qadın, uşaq demədən qətlə yetirilmişdir. Xülasə, dövrünün şanlı Əndəlüs Əməvi dövlətindən demək olar ki, heç bir iz qalmamışdır.[49]

Müsəlmanların başı üzərindəki qara buludlar bunlarla məhdudlaşmadı. Onlar siyasi mənada daha da parçalandılar. Bu dövlətlər öz aralarında çəkişərək bir-birlərini zəiflədir, baş verən müharibələr müsəlmanlara qan və göz yaşından başqa bir şey gətirmirdi. Daha sonra kənardan müdaxilələrlə həmin dövlətləri də parçalayaraq kiçik dövlətlərə bölməyə müvəffəq oldular. Artıq vahid islam dünyası yox idi. Onlarla kiçik müsəlman dövlət var idi.

İslam dünyası bir vaxtlar sadəcə siyasi və hərbi mənada deyil, eyni zamanda elm sahəsində də lider idi. Müsəlman alimlərin elm sahəsində əldə etdikləri nailiyyətlər, müasir Avropa elminin əsası sayılmaqdadır. Müsəlman alimləri tərəfindən yazılan elmi əsərlər Avropa məktəblərində uzun müddət oxuduldu. Bir vaxtlar hər sahədə lider olan və başqaları tərəfindən qibtə və həsəd ilə baxılan müsəlmanlar siyasi və hərbi sahədə olduğu kimi, elm sahəsində də tənəzzülə uğradılar, acınacaqlı vəziyyətə düşdülər.

Ancaq, çox təəssüf ki, müsəlman ümməti öz keçmişindən lazımi dərs almadı. Nə Quranın buyurduqları, nə də Məhəmməd peyğəmbərin xəbərdarlığı müsəlmanların oyanması üçün kifayət etdi. Aralarında mövcud olan ixtilafları bir tərəfə qoyaraq tövhid bayrağı altında birləşə bilmədilər. Bir zamanlar öz ehtişamı ilə gözləri

---

[49] Bu haqda geniş bilgi üçün bax: Aslan Həbibov. Ebu'l-Abbas Ahmet b. Ammar el-Mehdevi, Hayatı, Eserleri ve Tefsirdeki Metodu, Yüksek Lisans Tezi, Ondokuz Mayıs Üniversitesi Sosyal Bilimler Enstitüsü, Samsun, 2003, s. 4-7.

qamaşdıran islam dünyası keçmiş qüdrətini itirdi, geriqalmışlıq, aclıq və safalətlə yad edilməyə başladı.

Müsəlmanların geriləməsinin qarşılığında Qərb sürətlə inkişaf etdi. Coğrafi kəşflər və Fransız inqilabından sonra sürətlə inkişaf edən Avropa qarşısında eyni sürətlə geriləyən müsəlman şərqi 20-ci əsrin əvvəllərindən etibarən özünə yavaş-yavaş "niyə geri qaldıq?" sualını verməyə başladı.

Müsəlmanlar geri qalmağın bir neçə səbəbini tapdılar. Bu səbəblərdən ən önəmlisi isə müsəlmanlar arasında vəhdətin olmaması idi. Yuxarıda da qeyd etdiyimiz kimi, müsəlmanlar irili-xırdalı dövlətlərə və bu dövlətlər daxilində məzhəb və cərəyanlara bölünmüşdü. Müsəlman mütəfəkkirlər belə qənaətə gəldilər ki, əgər müsəlmanlar arasında vəhdət təşkil olunarsa, bu cəmiyyətin hər tərəfinə təsir edəcək və islam dünyasının inkişafına stimul verəcəkdir.

Əslində, islam dünyasının vəhdətə ehtiyacı olduğu bundan əvvəl də səsləndirilmişdi. Bunun üçün ilk addım Nadir Şah zamanında 1736-cı ildə atılmışdır. Bu dövrdə sünni və şiələr arasında müəyyən dərəcədə uzlaşma təmin edilmiş və yaxınlaşma ilə əlaqədar bəzi addımlar atılmışdır. Ancaq bu uzun müddətli olmamışdır.[50]

Birinci Dünya müharibəsindən sonra islam ölkələri istilaya məruz qalıb müstəmləkə halına gəldikdə sünni və şiə alimləri çıxış yolunu yenə vəhdətdə gördülər. Bu dövrdə Seyyid Cəmaləddin Əfqaninin səylərini qeyd edə bilərik.

Müsəlmanların birləşməsinin vacib olduğunu vurğulayan Cəmaləddin Əfqani yazırdı: "Ey əcəm əhli! Elm qəhrəmanlarınızı yada salın, islami əsərlərinizə diqqət yetirin. İslami vəhdətin bünöv-

---

[50] Bu haqda bax. Yılmaz Karadeniz. "İran Ve Osmanlı Devleti Arasında Mezhebi İhtilafların Azaltılması Ve İslâm Birliği Teşebbüsleri (1555-1746)", AMS, Cilt: 4, Sayı: 8, Temmuz 2016, s. 72-75.

rəsi olun, necə ki, əvvəldə onu qorudunuz. İslam vəhdətini irəli çəkməklə başqa müsəlman millətləri qabaqlayın".

Cəmaləddin Əfqani istədiyinə nail ola bilmədi və müsəlmanlar arasında vəhdət yaratma fikri başqa bir vaxta qaldı.

İkinci Dünya müharibəsi bəşər tarixinin şahid olduğu ən dəhşətli müharibələrdəndir. Bu müharibədə milyonlarla insan həlak olmuş, uşaqlar yetim, qadınlar dul qalmışdır. Şəhərlər xarabalığa çevrilmiş, aclıq və səfalət hər tərəfi bürümüşdür. Bu müharibədən zərər çəkənlər arasında, şübhəsiz, islam dünyası da vardı.

### 5.1. Dar ət-təqrib beynə məzahib əl-islamiyyə (islam məzhəblərini yaxınlaşdırma evi)

Qan və göz yaşında boğulmuş dünyanın bir parçası olan müsəlmanların bu fəlakətdən qurtulmaları üçün yeni bir addım lazım idi. Bir qrup şiə və sünni alim tərəfindən yaradılan "Dar ət-təqrib beynə məzahib əl-islamiyyə" (İslam məzhəblərini yaxınlaşdıma evi) təşkilatı məhz bu dövrdə fəaliyyətə başladı.

1947-ci ildə Qahirədə qurulan bu təşkilat şiə alimlərindən Məhəmməd Hüseyn Al-i Kaşifülgita, Hibətuddin əş-Şəhristani, Əbdülhüseyn Şərəfüddin, Məhəmməd Salih əl-Mazəndarani, Məhəmməd Cavad Müğniyyə, Əbdülhüseyn Rəşti, Ayətullah Sədrəddin əs-Sədr, Ayətullah Məhəmməd Təqi Xonsari, Ayətullah Burucərdi, sünni alimlərindən Əzhər şeyxlərindən Əbdülməcid Səlim, Şeyx Mahmud Şəltut, Məhəmməd Əbu Zəhra, Məhəmməd Məhəmməd əl-Mədəni, Əbduləziz İsa və Məhəmməd Əli Ulubə tərəfindən dəstəklənmişdir.

"Dar ət-təqrib" 1949-cu ildən etibarən "Risaləyi-İslam" adında bir jurnal da nəşr etməyə başlamışdır. Bu təşkilatın yaradılmasında 3 əsas məqsəd vardı:

1. İnanılması zəruri olan əqaid mövzularının xaricində qalan anlayışların, bir-birindən uzaqlaşmasına səbəb olduğu islam məzhəblərinə mənsub müsəlmanları islami qruplar adı ilə bir araya gətirmək;

2. İslamın əsaslarını müxtəlif dillərdə nəşr edib, cəmiyyətlərin bunlara olan ehtiyacını qarşılamaq;

3. Müsəlmanlar arasındakı fikir müxtəlifliyinə səbəb olan məsələlərə obyektiv münasibət bəsləmək, ortaq məxrəcə gələ bilmək imkanlarını araşdırmaq, fikir müxtəlifliyini təbii qəbul etmək və qarşı tərəfin fikrinə hörmətlə yanaşmaq.

"Dar ət-təqrib"in qurucuları israrla vurğulayırdılar ki, bizim məqsədimiz sünnini şiə, şiəni də sünni etmək deyildir. Əslində ortaq nöqtələrdə vəhdəti möhkəmləndirmək, imanın əsaslarına yeni bir əlavə, ya da bunlardan birini çıxartmaq kimi bir düşüncə olmadıqca aradakı ixtilaflara əhəmiyyət verməməkdir.[51]

İslam alimlərinin bu addımı olduqca əhəmiyyətli idi. Çünki bir-birini yaxşı tanımayanların ortaq məxrəcə gələ bilmələri mümkün deyildi.

"Dar ət-təqrib" zaman keçdikcə müxtəlif səbəblərdən öz köhnə gücünü itirmiş və 1972-ci ildə dağılmışdır.

"Dar ət-təqrib" bəzi nailiyyətlər əldə etmişdir. Bu nailiyyətlərin ilki və ən önəmli olanı, şübhəsiz ki, ilk dəfə olaraq sünni dünyada cəfəri məzhəbinin də digər 4 məzhəb kimi haqq məzhəb olduğunu qəbul edən bir fitvanın verilməsi idi. Əzhər Universitetinin keçmiş rektoru Mahmud Şəltut tərəfindən verilən bu fitva tarixi əhəmiyyət kəsb edir.

---

[51]Məhəmməd Əmin Rəhim. İslamda məzhəblərarası yaxınlaşma konsepsiyaları, "İdrak" İctimai Birliyi, Bakı, 2012, s. 125.

İkinci ən önəmli nailiyyət isə imamətin usuli-məzhəbdən olduğu və bunu qəbul etməyənlərin ümumilikdə müsəlman olduğuna dair düşüncənin ortaya atılmasıdır.

Qurumun faəliyyətləri sayəsində uzun illərdir mövcud olan bir yanlışlıq ortadan qaldırıldı. Sünni dünyada "şiələrin Quranı fərqlidir" şəklində var olan yanlış təsəvvür alimlərin qarşılıqlı səyi nəticəsində düzəldildi. Bu durum müsəlmanların vəhdəti üçün olduqca əhəmiyyətli idi.

"Dar ət-təqrib beynə məzahib əl-islamiyyə" təşkilatının əldə etdiyi bu nailiyyətlər dialoq sayəsində baş vermişdi.

Müsəlmanların vəhdəti istiqamətində bir addım da İran İslam İnqilabından sonra atıldı. 1979-cu ildə baş verən İran İslam İnqilabı rəhbərləri də müsəlmanlar arasındakı vəhdətin zərurətindən danışdılar və "Dar ət-təqrib"in çalışmalarını dəstəklədiklərini bildirdilər. Bu gün həmin qurum fəaliyyətlərini İranda davam etdirir.

## 5.2. İslam Konfransı Təşkilatı

XX əsrdə islam həmrəyliyinə doğru atılan bir başqa addım isə İslam Konfransı Təşkilatıdır (yeni adı ilə İslam Əməkdaşlıq Təşkilatı). 21 avqust 1969-cu ildə İsrailin işğalı altında olan Qüdsdəki Əl-Əqsa məscidinin Avstraliyalı bir yəhudi Mixail Denis Rohen tərəfindən yandırılma cəhdi üzərinə 25 avqust 1969-cu ildə Qahirədə toplanan 14 ərəb ölkəsinin xarici işlər nazirləri üç günlük iclasın nəticəsində Afrika və Asiyadakı müsəlman ölkə liderlərinin iştirak edəcəyi İslam Zirvə Konfransının təşkil edilməsinə qərar verdilər. Beləcə, 22 sentyabr 1969-cu il tarixində 26 müsəlman ölkəsindən 24-nün kral, ya da dövlət başçıları Mərakeşin paytaxtı Rabatda toplandı. İclasın gündəliyi Məscidi-Əqsa və Qüds problemi idi. Üç gün davam edən iclasın sonunda qətnamə qəbul edildi. Həmin

qətnamədə Əl-Əqsa məscidinin yandırılmasından ötrü narahatlıq dilə gətirildi və Qüdsün müqəddəs yerlərinin İsrail tərəfindən işğal edildiyi qeyd olundu. Sadəcə islam dünyasının xaricdən qaynaqlanan problemlərinin deyil, eyni zamanda baş verən anlaşmazlıqların da bu təşkilatın qurulmasında təsiri vardır. [52]

### 6. Günümüzdə islam həmrəyliyi

XX əsrin sonlarına doğru dəyişən dünya sistemində islam dini və müsəlmanlar yenidən gündəmə gəldilər. İki qütblü dünyadan tək qütblü dünyaya keçid prosesində Qərb yeni düşmənini təyin etdi. Bu da İslam idi.

XXI əsrə gəldiyimizdə Qərbin islam və müsəlmanlara qarşı yürütdüyü siyasət özünü açıq bir şəkildə göstərdi. Müxtəlif bəhanələrlə müsəlman ölkələrinin torpaqları işğal edildi, ölkələrdə vətəndaş müharibəsi başladıldı. Bu problemlərə islam ölkələrinin fərqli cəhətdən yanaşması müsəlmanlar arasındakı ixtilafın daha da dərinləşməsinə səbəb oldu.

İslam həmrəyliyi adına 1990-cı ildə İranda "İslam Məzhəblərinin Yaxınlaşdırılması Ümumdünya Assambleyası" quruldu. Dar ət-təqribin davamı şəklində olan bu qurum müsəlmanlar arasında vəhdətin təmininə çalışır.

İslam həmrəyliyi uğrunda başqa bir addım isə 2004-cü ildə atıldı. Londonda qurulan Ümumdünya "İslam Alimləri Birliyi" özündə sünni və şiə alimlərini cəm edərək islam dünyasında baş

---

[52] Muhittin Ataman ve Ayşe Nur Gökşen. "Sembolizm ve Aktivizm Arasında İslam İşbirliği Teşkilatı", SETA Analiz, Sayı: 76, (Ocak 2014); Abdulhamit Sinanoğlu. "Globalleşen Dünyada Müslümanların Problemleri", Dinbilimleri Akademik Araştırma Dergisi III (2003), Sayı: 1 s. 95.

verənlərə birgə münasibət bildirir və məzhəblər arasında yaxınlaşma və qardaşlığın zəruriliyinə çağırışlar edir.

2010-cu ildə başlayan Ərəb baharının Suriya torpaqlarına keçməsi bu hadisələrin fərqli istiqamətə çəkilməsinə, məzhəblərarası gərginliyə səbəb oldu. Suriya rejimini dəstəkləyən şiə İrana qarşı müxalifləri dəstəkləyən sünni ölkələr arasındakı mübarizə müsəlmanlar arasında 1979-cu ildə baş verən İran İslam İnqilabından sonra yaranan vəhdət mühitinə ciddi zərbə vurdu.

Amerika prezidenti Donald Trampın Qüdsün İsrailin paytaxtı olması ilə əlaqədar səsləndirdiyi milli və dini zəmində qarşıdurmaya xidmət edən fikirlər müsəlman dünyasında ciddi narazılığa səbəb olmuş, 13 dekabr 2017-ci il tarixində İslam Əməkdaşlığı Təşkilatının İstanbulda çağırdığı fövqəladə iclasda 54 müsəlman ölkəsinin vahid bəyannamə ilə çıxış etməsini beynəlxalq müstəvidə İslam həmrəyliyinin təzahürü hesab etmək mümkündür.

## 7. Nəticə

Məhəmməd peyğəmbərin vəfatından sonra baş verən imamət/xilafət mübahisəsi müsəlmanlar arasında ilk ixtilaf idi və fikir ayrılıqlarına səbəb oldu. Çox keçmədən müsəlmanlar daha da parçalandılar. Zaman keçdikcə müxtəlif səbəblərdən çoxlu sayda məzhəb və təriqət ortaya çıxdı.

İslam məzhəblərinə mənsub müsəlmanlar arasında vəziyyət həmişə yaxşı olmamışdır. Aralarında mübahisələr olmuş, toqquşmalar baş vermiş və hətta qan tökülmüşdür. Görülən tədbirlər nəticəsində məsələyə vaxtında müdaxilə edilmişdir.

Bununla yanaşı müsəlman məzhəbləri islam dinindən irəli gələn vəhdət və həmrəylikdən uzaq olmamışdır. İslam və müsəlmanlar üçün təhlükə kəsb edən düşmənə qarşı birlikdə hərəkət

etməyi də bacarmışlar. Ortaq düşmənə qarşı birləşməyin zərurətinin fərqində olan müsəlmanlar aralarındaki ixtilafı bir tərəfə qoyub həmrəylik nümayiş etdirmişlər.

Erkən islam dövründə yaşadıqları təcrübəni Məhəmməd peyğəmbərin vəfatından sonra da davam etdirmiş, yalançı peyğəmbər və dindən dönənlərə qarşı birgə mübarizə aparmış və bu işdə uğur qazanmışlar.

İslam dünyasına qarşı hücuma keçən və hər tərəfini ələ keçirməyi nəzərdə tutan səlibçilər qarşısında da eyni həmrəyliyə şahid oluruq.

Ancaq, təəssüflər olsun ki, monqollara qarşı eyni həmrəyliyi görə bilmirik. Həmin dövrdə müsəlmanlar həm siyasi, həm də dini olaraq parçalanmış, bir-biri ilə apardıqları mübarizə nəticəsində olduqca zəif hala gəlmişdilər.

İslam dünyasının nümayiş etdirdiyi ən böyük həmrəyliyə Anadolu türklərinin azadlıq mübarizəsində şahid olunur. Sünni-şiə fərqi qoymadan dünyanın müxtəlif yerlərindən müsəlman türk qardaşlara hər cür yardım edilmiş, onların qalibiyyəti üçün dualar edilmiş, türk xalqı ilə həmrəylik nümayiş etdirilmişdir.

Həmin dövrdə Osmanlı Türkiyəsinin Azərbaycan və Dağıstan xalqlarına yardımı, onların qırğınlardan xilas olmasında oynadığı rol da İslam həmrəyliyinin parlaq nümunəsidir.

XX əsr islam dünyası üçün qan və göz yaşı ilə səciyyəvi olmuşdur. Sürətlə inkişaf edən Avropa qarşısında hər sahədə geri qalmış, birlik və bərabərlik ruhu tamamilə ortadan qalxmışdır. Geri qalmağın əsas səbəbinin parçalanmaq olduğunu düşünən bəzi müsəlman mütəfəkkir və alimlər, bu problemi aradan qaldırmağın yollarını axtarmışlar. Müsəlmanlar arasında formalaşdırılacaq bir vəhdətin islam dünyasının inkişafına təkan verəcəyini düşünərək bu istiqamətdə çalışmalar başladıldı. Əsrin əvvəllərində Cəmaləddin

Əfqaninin səyləri, ortalarında "Dar ət-təqrib" çalışmaları müsəlmanlar arasında vəhdətin təmin edilməsi üçün son mühüm addımlar idi. Bu istiqamətdə bəzi uğurlar da əldə edildi.

İslam Konfransı Təşkilatının qurulması (yeni adı ilə İslam Əməkdaşlıq Təşkilatı) müsəlmanlara qarşı yaranmış və öz aralarındakı problemlərin dövlətlər səviyyəsində həlli üçün atılan bir addım idi. İslam dünyasının həmrəyliyi uğrunda önəmli bir təşəbbüs olan bu təşkilatın fəaliyyəti istənilən səviyyədə olmasa da, ən azından ortaya çıxan problemlərə qarşı reaksiya göstərmək naminə müsbət bir haldır.

Böyük ümidlərlə daxil olduğumuz XXI əsr də müsəlmanlar üçün mənfiliklərlə başladı. Qərbdə başlayan islamofobiya müsəlmanlara münasibətə ciddi təsir etdi. Ərəb baharı hadisələrinin ardı olan Suriya hadisələri müsəlmanlar arasındakı ixtilafı daha da dərinləşdirdi. Son günlər bu istiqamətdə müsbətə doğru düzəlmə müşahidə olunur.

Son hadisələr bir daha göstərdi ki, müsəlmanlar tarixdən nəticə çıxarmalı, aralarındakı ixtilafları bir tərəfə qoyub, problemlərin həlli istiqamətində birgə səy göstərməlidirlər. Onlar başa düşməlidirlər ki, xilas olmağın yolu islam həmrəyliyindən keçir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


**1.** Abdulhamit Sinanoğlu. “Globalleşen Dünyada Müslümanların Problemleri”, Dinbilimleri Akademik Araştırma Dergisi III (2003).

**2.** Adıgüzel, H. Atatürk, Nerimanov ve Kurtuluş Savaşımız, İstanbul, İleri Yayınları, 2004.

**3.** Aslan, B. Türkiye Azerbaycan İlişkileri ve İbrahim Ebilov (1920-1923), İstanbul, Kaynak Yayınları, 2004.

**4.** Aslan, Mahir. Atatürk ve Azerbaycan Politikası, Yüksek Lisans Tezi, Trakya Üniversiteti Sosyal Bilimler Enstitüsü, Edirne, 2008.

**5.** Ataman, Muhittin. Ayşe Nur Gökşen, Sembolizm ve Aktivizm Arasında İslam İşbirliği Teşkilatı // SETA Analiz, Sayı: 76, (Ocak 2014).

**6.** Ayşe D. Erdem Kuşçu. İlhanlı Devleti’nin Kuruluşu ve Memlüklerle İlk Teması // Türkler, VIII.

**7.** Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, c. 2, Bakı, 2005.

**8.** Bertold Spuler. İran Moğolları: Siyaset İdare ve Kültür İlhanlılar Devri 1220- 1350, (Tərc. Cemal Köprülü), TTK, Ankara, 1987.

**9.** Buxari, Əbu Abdullah Məhəmməd ibn İsmail., əs-Səhih, İstanbul, 1992.

**10.** Bulut, Halil İbrahim. Ümmet // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, İstanbul, 2012.

**11.** Cərrar, Hüsni Ədhəm. Allah naminə qardaşlıq və sevgi, (Tərc. Elvüsal Məmmədov),“İdrak” İctimai Birliyi, Bakı, 2010.

**12.** Çağrıcı, Mustafa. Kardeşlik // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, İstanbul, 2001.

**13.** Eymen Fuat es-Seyyid. Fatîmiler // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, İstanbul, 2000.

**14.** Əbdulbaqi, Məhəmməd Fuad. Möcəmul-müfəhrəs liəlfazil Qurani-Kərim, Çağrı Yayınları, İstanbul, 1990.

**15.** Əbu Davud Süleyman ibn Əşas. əs-Sünən, İstanbul, 1992.

**16.** Əbu Zəhrə, Məhəmməd. Xatəmun-nəbiyyin, Qahirə, Darul-fikril-ərəbi, 2012.

**17.** Əhməd ibn Hənbəl. əl-Müsnəd, Beyrut t.y.

**18.** Həbibov, Aslan. Ebu'l-Abbas Ahmet b. Ammar el-Mehdevi, Hayatı, Eserleri ve Tefsirdeki Metodu, Yüksek Lisans Tezi, Ondokuz Mayıs Üniversitesi Sosyal Bilimler Enstitüsü, Samsun, 2003.

**19.** Həsənova, Esmeralda. Azərbaycan Respublikasında İslam həmrəyliyinin ideoloji-siyasi əsasları haqqında//Azərbaycan Şərqşünaslığı, sayı 1 (15), 2017.

**20.** Həsənova Esmeralda. Sovyet Azerbaycanı M.K. Atatürkün Söylev ve Demeçlerinde (20. y.y. başlangıcında)//XI. Türk Tarih Kongresi Materialları, Türk Tarih Kurumu Basımevi, Ankara, 1914

**21.** İbn Faris, Əbul-Hüseyn. Möcəmu məqaisil-luğə, (Təhqiq Əbdüssəlam Məhəmməd Harun), Darul-cil, Beyrut, t.y.

**22.** İbn Macə Əbu Abdullah Məhəmməd ibn Yezid əl-Qəzvini. əs-Sünən, İstanbul, 1992.

**23.** İbn Mənzur, Məhəmməd ibn Mükərrəm. Lisanul-ərəb, Darus-Sədr, Beyrut, 1990.

**24.** İbnul-Əsir Məhəmməd ibn Məhəmməd ibn Əbdülkərim əş-Şeybani. əl-Kamil fit-Tarix, Misir, 1356.

**25.** Karadeniz, Yılmaz. İran Ve Osmanlı Devleti Arasında Mezhebi İhtilafların Azaltılması Ve İslâm Birliği Teşebbüsleri (1555-1746) // AMS, cilt: 4, sayı: 8, Temmuz 2016.

**26.** Karaman, Hayrettin. İslam'ın Işığında Günümüz Meseleleri, İz Yayıncılık, İstanbul, 2003.
**27.** Larşer, M. Büyük Harbde Türk Harbi, (Tərc. Mehmed Nihad), İstanbul, 1928.
**28.** Məclisi, Məhəmməd Təqi. Biharul-ənvar, Muəssəsətul-vəfa, Beyrut, 1404.
**29.** Müslim, Əbul-Hüseyn ibn Həccac ən-Nişaburi. əs-Səhih, İstanbul, 1992.
**30.** Özafşar, Mehmet Emin. Toplumsal Dayanışma ve Kardeşlik // İslâm'a Giriş: Ana Konulara Yeni Yaklaşımlar, DİB Yayınları, İstanbul, 2007.
**31.** Parlatır, İsmail. Türkçe Sözlük, Türk Dil Kurumu, Ankara, 1998.
**32.** Paşazadə Şeyxülislam Allahşükür. İslamda ümmət və şüubilik, Bakı, Bilik, 1992.
**33.** Rafik, Abdulkerim. Türkiye-Suriye İlişkileri 1918-1926// Türk Dünyası Araştırmaları Dergisi, (Tərc. Sabahattin Samur), fevral 1994, sayı 88, İstanbul.
**34.** Rağıb əl-İsfəhani. əl-Müfrədat, Beyrut, Darul-fikr, 2006.
**35.** Rəhim, Məhəmməd Əmin. İslamda məzhəblərarası yaxınlaşma konsepsiyaları, "İdrak" İctimai Birliyi, Bakı, 2012.
**36.** Sonyel, Salahi. Türk Kurtuluş Savaşı ve Dış Politika I, Ankara, 1987.
**37.** Subhani, Cəfər. Furuği-əbədiyət, (Türk dilinə tərcümə edən Seyyid Cafer Hüseyni, Kadri Çelik), Sekaleyn, İstanbul 2004
**38.** Şankıti, Muhammed b. Muhtar. Haçlı Savaşının Etkisi Altında Sünni-Şii İlişkileri, Mana Yayınları, İstanbul trs.
**39.** Şüştəri, Qazi Nurullah. Məcalisul-muminin, Tehran, 1945.
**40.** Tirmizi, Əbu İsa Məhəmməd ibn İsa. əs-Sünən, İstanbul, 1992.

**41.** Üzüm, İlyas. Mezhep // Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, İstanbul, 2004, XXIX cild.

***İnternet resursları:***

**42.** http://www.mynet.com/cevaplar/manev%C3%AE-dayanisma-manev%C3%AE-destek-nedir/6332700

**43.** http://www.atam.gov.tr/wp-content/uploads/Metin-H%C3%9CLAG%C3%9C-Milli-M%C3%BCcadele-D%C3%B6nemi-T%C3%BCrkiye-%C4%B0slam-%C3%9Clkeleri-M%C3%BCnasebetleri.pdf

**44.** https://www.tebyan.net/index.aspx?pid=63107

**45.** http://az.islam.az/article/a-100.html

**Elvüsal Məmmədov**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir*
*tarixi şöbəsinin aparıcı elmi işçisi*

# II FƏSİL
# İSLAM HƏMRƏYLİYİNİN DİNİ-İDEOLOJİ ƏSASLARI

XX əsrin 50-ci illərində dünya müstəmləkəçilik sisteminin dağılması əhalisinin böyük əksəriyyətinin müsəlman olduğu ərəb ölkələrinin müstəqillik əldə etməsini sürətləndirdi. Həm milli azadlıq hərəkatının gedişi, həm imperializm və digər xarici təzyiqə qarşı birlikdə çıxış etmək cəhdləri, həm də Fələstin problemi ərəb dünyasında birləşmə və həmrəylik zərurətini meydana çıxarmışdı. Başlanğıc mərhələdə həm sosializm, həm də millətçilik ideologiyaları bu birləşmə çağırışlarında əsas platforma rolunu oynayırdı. Məsələn, XX əsrin 40-cı illərində Suriyada Mişel Əflak (1910-1989) və Səlahəddin Bitar (1912-1980) tərəfindən qurulmuş BƏƏS partiyası (Ərəb Oyanışı Partiyası) ideologiya baxımından ərəb sosializmi ideyalarını əsas götürmüşdü. Birləşmə, azadlıq və sosializm şüarlarından çıxış edən bu partiyanın əbədi missiyası vahid ərəb millətini formalaşdırmaq idi. Bəəsçilər iddia edirdilər ki, tarixən bir olmuş ərəb milləti sonralar Osmanlı dövləti, Qərb müstəmləkəçiliyi və sionizm tərəfindən süni şəkildə ayrı-ayrı xalqlara bölünmüşdür. Bu səbəbdən partiya panərəbizm – ərəb millətçiliyi ideologiyasını mənimsəmişdi[53].

---

[53] Hilal Görgün. Sosyalizm // İslam Ansiklopedisi: 44 cilddə, XXXVII cild, İstanbul, 2009, səh. 385.

Bundan əvvəl isə panərəbizm ideyalarının təsiri ilə İraq kralı I Feysəl (1883-1933) İraq, Suriya, Fələstin, İordaniya və Hicazı birləşdirən konfederasiyanın yaradılması fikrini müdafiə edirdi. Sonralar İordaniya kralı I Abdullah da (1882-1951) Suriya, İordaniya, İraq və Fələstin torpaqlarını vahid ittifaqda cəmləmək fikrinə düşmüşdü[54]. Bununla yanaşı, həmin dövrdə (XX əsrin 60-70-ci illəri) ərəb millətçiliyi ideoloqları iddia edirdilər ki, əsl müstəqillik üçün ərəb ölkələri bu və ya digər formada birləşməlidir. İngiltərənin 1933-cü ildən sonra yəhudiləri Fələstinə köçə təşviq etməsindən sonra Səudiyyə Ərəbistanı Krallığının bu vaxta qədər qarşı çıxdığı ərəb birliyi ideyasına müsbət yanaşması ilə panərəbizm yenidən gündəmə gəlmişdi. İkinci Dünya müharibəsinin gedişi ərzində, hər şeydən əvvəl Fələstin probleminin həll edilməsi fikrini müdafiə edən Səudiyyə Ərəbistanı Krallığının iştirak etdiyi hazırlıq iclaslarından sonra Misir, Səudiyyə Ərəbistanı, İraq, Suriya, Livan, İordaniya, Yəmən və Fələstin təmsilçisindən ibarət tərəflər 1945-ci ildə Ərəb Ölkələri Liqasını yaratdılar. Bu, panərəbizm ideologiyasını həyata keçirmək baxımından irəliyə atılan əhəmiyyətli addım idi. Sonrakı illərdə Misir və Suriya (1958-1961), Misir, Suriya və Liviya (1973), Liviya və Tunis (1974), Liviya Mərakeş (1969), Liviya, Misir və Sudan (1970), Liviya və Suriya (1971), Liviya və Misir arasında (1973) birləşmə cəhdləri olmuşdu. Lakin bu ölkələrin sosial-siyasi, iqtisadi-mədəni həyatındakı inkişaf fərqləri, bu və ya digər ərəb ölkəsinin yeni yaradılacaq birlikdə dominantlıq mövqeyindən çıxış etməyə can atması, mühafizəkar sağlarla inqilabçı solçular arasındakı anlaşılmazlıq, hətta Suriya və Misirdə inqilabçı solun iqtidarı ələ keçirməsindən sonra öz arala-

[54] Zekeriyya Kurşun. Panarabizm // İslam Ansiklopedisi: 44 cilddə, XXXIV cild, İstanbul, 2007, səh. 157.

rında ortaq məxrəcə gələ bilməməkləri ərəb birliyinə olan inamı zəiflətmişdi. Bərabərlik ifadə edən şüarların səsləndirilməsinə baxmayaraq, bu tərəflərin münasibətlərində ciddi uyğunsuzluq, maraq rəqabəti özünü göstərirdi. Məsələn, İraq Kralı I Feysəlin (1883-1933) İraq, Suriya, Fələstin, İordaniya və Hicazı vahid dövlətdə birləşdirəcək Haşimi planına Səudiyyə Ərəbistanı, Misir və Livan hökumətləri qarşı çıxmış, İraq baş naziri Nuri Səid Paşa (1888-1958) ilə İordaniya kralı I Abdullah (1882-1951) arasında olan fikir ayrılığı İraq mərkəzli konfederasiya ideyasını kağız üzərində saxlamışdı. Ümumiyyətlə, Səudiyyə Ərəbistanı və Misir "münbit aypara" (***əl-hilal əl-xəsib***) çərçivəsində İraq, Suriya və Livanın birləşdirilməsi cəhdlərinə qarşı çıxmışdı.

Panərəbizm ideyaları 50-60-cı illərdə ərəb dünyasında geniş yayılmağına baxmayaraq, xüsusən 1967-ci il İyun məğlubiyyətindən sonra mövqeyini itirməyə başlamışdı. Hətta bu məğlubiyyətdən sonra bir çox məşhur mütəfəkkir və ədib ərəb rejimləri və liderlərinə olan ənənəvi xoş münasibətdən vaz keçmişdi. Həmin illərin ümumi mənzərəsi bu idi ki, ərəb ölkələrində siyasi rəhbərlik və mədəni-ideoloji elita arasında uçurum yaranmışdı. Bir sıra ziyalılar "şüur"a qayıtmağın vacibliyini qeyd edirdilər. Məsələn, misirli yazıçı Tofiq əl-Həkim (1898-1987) "Şüura qayıdış" adlı kitabını bu məqsədlə qələmə almış, suriyalı yazıçı Nizar Qəbbani (1923-1998) sevgi və aşiq şairi olmaqdan uzaqlaşıb, siyasi məzmunlu poemalar yazmışdı. Sonuncunun "Fəlakət dəftərində qeydlər" poeması ərəb dünyasında ciddi mübahisələrə səbəb olmuş, əsərlərinin mətbuatda nəşrinə qadağa qoyulmuşdu[55]. Həmçinin Misir inqilabının qızğın tərəfdarı, Misir prezidenti Camal Əbdünnasirə (1918-1970)

[55] بيار أبي صعب. نزار قبّاني : شاعر الغواية واللهو والغضب السياسي. "الأخبار"، 29 أبريل، 2008، العدد 512. http://www.al-akhbar.com/node/121161

yaxınlığı ilə tanınan, hakim Ərəb Sosialist Birliyi Partiyasının Mərkəzi Komitəsinin üzvü Məhəmməd Heykəl (1923-2016), Livan Mütərəqqi Sosialist Partiyasının sədri Kamal Canpolad (1917-1977), Suriya Ərəb Sosialist Dirçəliş Partiyasının banilərindən Salah Bitar (1912-1980) və digərləri Altıgünlük müharibədə ərəb inqilabçı sosializminin çatışmazlıqlarını öz yazılarında etiraf və tənqid etmişdilər[56].

Əgər 1948-ci ildə İsraillə müharibədə Misir, Suriya, İraq və İordaniya ordularının məğlubiyyəti sağ təmayüllü ərəb liberalizminin tənəzzülü ilə nəticələnmişdisə, 1967-ci il 5-10 iyun tarixlərində İsrail və qonşu ərəb dövlətləri Misir, Suriya və İordaniya arasında baş vermiş altı günlük müharibədə sonuncuların ağır məğlubiyyətə uğraması ilə həm solçu ərəb inqilabçı sosializm ideologiyası, həm də ərəb millətçiliyi bu ölkələrin sosial-siyasi və mədəni mənzərəsində öz mövqeyini itirməyə başlamışdı. Ərəb sosializmi ideyaları həm də ona görə uğursuz olmuşdu ki, o, bu ölkələrdə ilk baxışdan Qərb əleyhinə ideologiya kimi görünsə də, müsəlman ziyalı və kütlələrin nəzərində islam mədəniyyətini sərf-nəzər edən, onu sosial-siyasi və mədəni həyatdan uzaqlaşdıran müasirləşmə istiqaməti hesab olunurdu. 1967-ci il müharibəsi ərəb ölkələrinin xarici siyasət kursunda ciddi dəyişikliyinə səbəb oldu. İsraillə hərbi münaqişələrdə qalib gələ bilməyəcəyini dərk edən ərəb liderləri "ərəbçilik" (***urubə***) mərkəzli millətçilikdən – panərəbizmdən tədricən imtina edərək sonuncu müharibədə itirdikləri əraziləri ayrı-ayrılıqda geri qaytarmaq üçün bəzən müharibə yoluna əl atmağa, bəzən də İsraillə kompromisə getməyə məcbur oldular.

---

[56] يوسف القرضاوي. الحلول المستوردة: وكيف جنت أمتنا؟ بيروت: مؤسسة الرسالة، 1989، ص 307-312.

Beləliklə, 1948, 1967, 1974-cü illərdə ərəb dövlətlərinin İsraillə aparılan müharibələrdə məğlub olması, Misir, Suriya, Liviya və Tunis arasında müxtəlif illərdə birləşmə cəhdlərinin müvəffəqiyyətsizliyə uğraması və bu siyasi hadisələrin fonunda liberalizm, millətçilik və inqilabçı-sosializm ideyalarının zəifləməsi birgə mübarizə və həmrəylik məsələlərində diqqəti yenidən islam amilinə yönəltdi. Ərəb dünyasında aparıcı rol oynayan qüvvələrin dəyişməsi prosesi 1970-ci ildə Misir prezidenti Camal Əbdünnasirin vəfatı ilə nasirçilik, 1978-ci ildə Misirin İsraillə Kemp-Devid sülh müqaviləsini imzalayıb ərəb blokundan çıxmaqla ərəb millətçiliyi ideyalarının aktuallığını itirməsi nəticəsində daha da sürətləndi. Həm bu hadisələr, həm də Liviya ilə Misir, Sudan, Tunis və Mərakeş, Əlcəzairlə Mərakeş, Suriya ilə İraq arasında gərgin münasibətlərin olmağı ərəb birliyinə olan ümidləri puç etdi. Qeyri-dini ideologiyaların özünü doğrultmamağı, 70-80-ci illərdə Ərəb ölkələrinin Qərbin artan təsirinə qarşı mübarizə aparmaq cəhdlərində yeni ideoloji istinad nöqtəsinin müəyyən edilməsinə olan ehtiyac və İsrail-ərəb münaqişəsi onunla nəticələndi ki, islam amilinə müraciət etmək meyli gücləndi. Məsələn, misirli mütəfəkkir Əhməd Kamal Əbülməcd (anadan olub – 1930) həmin illərdə yazırdı: "Əsrimizin 50-60-cı illərində ortaya atılmış ərəb birliyi fikri ... hələlik ciddi çıxış yolu tapmayıb. Ərəblərin və digər müsəlmanların gerçəkliyi isə zorakılıq, daxili çəkişmələr, parçalanma və fikir fərqlərindən, fəal mövqeyin olmamağından şikayətlənir"[57]. Həmin dövrdə ərəb dövlət rəhbərlərini, siyasi xadimləri əsassız, düşünülməmiş birlik formalarından uzaqlaşmağa, ayrı-ayrı ərəb ölkələrinin ortaq maraqlarına uyğun gələn formalar axtarmağa çağıran Əbülməcd yaranmış

---

[57] أحمد كمال أبو المجد. الاسلام و العروبة معا // مجلة العربي، العدد رقم 263، ص 11.

ideoloji-siyasi boşluğu dinin köməyi ilə doldurmağa cəhd göstərir, islamı birlik və həmrəyliyin ideya əsası kimi təqdim edirdi. O göstərirdi ki, bu istiqamətdə atılacaq ilk addım islama çağırış olmalıdır[58]. Əbülməcd həmin illərdə millətçilik və islam fəallığı arasındakı ziddiyyətləri aradan qaldırmağa, onları vahid məqsədə doğru yönəltməyə çalışırdı. O bildirirdi ki, ərəbləri acizlik və mədəni gerilikdə ittiham etmək cəhdləri ərəb millətçiliyinə rəvac vermişdir. Çünki ittiham edilən ərəb kimliyi hər şeydən əvvəl islamla əlaqəlidir, deməli, məlum ittihamlar həm də islama yönəlib. Odur ki, bu ittihamlara cavab vermək istəyən hər bir ərəb həm ərəbçilik, həm də islam həmrəyliyi mövqeyindən çıxış etməlidir[59]. İslam və ərəbçiliyi vəhdətdə götürən nöqteyi-nəzərin ümumi məzmunu bu idi ki, hər iki anlayış bir-biri ilə sıx əlaqəlidir. Ərəb dili Quran və Sünnənin, islam ibadəti və mədəniyyətinin dilidir, ərəbçilik islamın qabığıdır, ərəblərin torpaqları dinin qalasıdır, müqəddəs məkanlar orada yerləşir, ərəblər islamı dünyaya çatdıran ilk insanlardır. Deməli, ərəbçilik və islam bir-birinə üzvi surətdə bağlıdır, aralarında ziddiyyət yoxdur[60]. İslam dirçəlişini müdafiə edən müsəlman mütəfəkkirləri dirçəliş prosesinin inkişaf edən xətlə getməsi üçün ərəbçilik ideologiyasının süni şəkildə islama qarşı qoyulmasının yolverilməzliyini qeyd edirdilər: "Ərəbçilik islamın mövqeyini qəbul etməyən dünyəviliklə xarakterizə edilməməlidir. İslam da "şüubi" xarakter daşımamalı, ərəblərə düşmən kəsilməməlidir"[61].

Digər müəllif, misirli islam maarifçisi Yusif əl-Qərdavinin (anadan olub – 1926) həmin dövrdə qələmə aldığı əsərlərində

---

[58] Yenə orada.
[59] Yenə orada
[60] يوسف القرضاوي. مستقبل الاصولية الاسلامية، بيروت: مؤسسة الرسالة، 2000، ص 76.
[61] Yenə orada, səh. 76-77.

problemlərin həllində islamın rolu və həmrəylik haqqında dediyi fikirlər maraq doğurur. O qeyd edir ki, islamın həmrəylikdə əsas götürülməsini milli və dini mənsubiyyət, ağıl və demokratiya amilləri zəruri edir:

"Bütün bu mənfi hallar və müvəffəqiyyətsiz cəhdlər islama üz tutmağımızı zəruri etmişdir. Onunla ...problemlərimizi həll edə, ali məqsədlərimizə çata bilərik...

Əgər ərəbiksə, milli heysiyyətimizə layiq həll yolu budur. Çünki bu həll yolu öz başlanğıcını etiqadımızdan, ənənə və torpağımızdan götürən həll yoludur.

Əgər müsəlmanıqsa, bu həll yolunu dinimiz islam və imanımız zəruri etmişdir. Bu həll yoluna üz tutmasaq, üzərində inad göstərməsək, müsəlman və mömin olmağımız öz təsdiqini tapmayacaqdır...

Əgər ağıllı insanlarıqsa, düşüncəmizə uyğun gələni mənimsəyər, gəlməyəni də bir kənara atarıq, mənafeyimizlə üst-üstə düşən istiqaməti seçərik. Sərbəst düşüncə və bitkin təfəkkürün zəruri etdiyi də budur. Sırf məntiq baxımından, bu həll yolu yaşadığımız yüzillikdə ölkələrimizdə təcrübədən keçirilməyən həll yoludur. Başqa həll yollarına imkan tanındığı kimi, ona da fürsət verilməlidir. Nəzərə alaq ki, ümmətimiz vaxtı ilə bu həll yolunu sınaqdan keçirmiş, üstün nəticələr əldə etmişdir.

Yox, əgər demokratiyaya inanıb çoxluğun dediyini qəbul ediriksə, bilməliyik ki, xalq kütlələrimiz rəblərinin hökmlərindəki ədaləti bir gün də olsun inkar etməmiş, Quran və Peyğəmbərdən əl çəkməmiş, islamın qüdrətinə şübhə etməmişdir. Hər keçən gün ümmətin bu ilahi və ədalətli sistemin əbədiliyinə, ona qayıtmağın vacibliyinə olan inamını artırır"[62].

---

[62] يوسف القرضاوي. الحلول المستوردة: وكيف جنت أمتنا؟ بيروت: مؤسسة الرسالة، 1989، ص 7-9.

70-ci illərdə həll yolu olaraq islama müraciətin vüsət kəsb etdiyi bir vaxtda müsəlman mütəfəkkir və yazıçılar ifrat millətçiliyi hədəf alanlar haqqında istehza ilə qeyd edirdilər ki, müsəlmanlar İmrulqeysin müəlləqəsini oxumaqla hərəkətə keçib möcüzələr yarada bilməzlər. Həmçinin kənardan idxal edilmiş ideologiyalar hərbi, siyasi, sosial, iqtisadi, mədəni və əxlaqi sahələrdə tənəzzül, müvəffəqiyyətsizlik doğurmuşdur, çünki müsəlman dünyasının ruhu ilə səsləşmir, onun dünyagörüşünə yaddır: "J.J. Russonun, K. Marksın, J.P. Sartrın əsərlərini müsəlmanlara oxutmaqla onları hərəkətə gətirmək, uğurlara imza atmaq mümkün deyildir"[63].

Birləşmə ideyasının həyata keçirilməsi cəhdləri ərəb dövlətləri arasında fikir ayrılıqları ilə müşayiət olunduğundan, xüsusən də Ərəb-İsrail müharibələrində ərəblərin qələbə qazana bilməmələri digər birləşmə formalarını gündəmə gətirmişdi. 1967-ci ildə Qüds şəhərinin şərq hissəsinin İsrail tərəfindən tutulması, müsəlmanların müqəddəs yerlərindən sayılan Əl-Əqsa məscidinin yerləşdiyi bu şəhərin tamamilə İsrail dövlətinə aid edilməsi, ərəb torpaqlarının işğal olunması, Fələstin xalqının hüquqlarının tapdalanması, öz vətənlərindən didərgin salınması islam əsasında birlik və həmrəylik axtarışlarını tezləşdirdi, beynəlxalq islam hərəkatlarının yaranması prosesini sürətləndirdi[64]. Bu dövrdə ərəb birliyindən daha çox müsəlman ölkələrinin birliyi məsələsi müzakirə obyektinə çevrilmiş, "islam həmrəyliyi" məfhumu və hərəkatı meydana çıxmışdı. İsraillə aparılan müharibələrdə ərəb ölkələrinin düçar olduğu məğlubiyyətin fonunda millətçilik və sosializm ideologiyaları müvəffəqiyyətsizliyə uğradığı üçün islam həmrəyliyi çərçivəsində əməkdaşlıq ideyasına inanan

---

[63] يوسف القرضاوي. مستقبل الاصولية الاسلامية، بيروت: مؤسسة الرسالة، 2000، ص 67.

[64] R. Əliyev, A. Məmmədov. İslam və ərəb ölkələrində milli-azadlıq hərəkatı. Bakı, 1986, səh. 65.

Mərakeş, İordaniya və Səudiyyə Ərəbistanının təşəbbüsü ilə 1969-cu il sentyabr ayının 25-də Mərakeşin paytaxtı Rabat şəhərində 26 müsəlman ölkəsinin dövlət və hökumət başçılarının iştirak etdiyi görüşdə İslam Konfransı Təşkilatı (indiki İslam Əməkdaşlıq Təşkilatı) yaradıldı. Təşkilatın yaradılmasına Qüds şəhərində yerləşən, müsəlmanların üçüncü müqəddəs məscidi sayılan əl-Əqsa məscidinin yandırılması səbəb olmuşdu[65]. İslam Konfransı Təşkilatı müsəlman ölkələri arasında təşkilatlanma və şərikli fəaliyyətə əsaslanan əməkdaşlığı reallaşdırma mexanizminin ilk təcrübəsi idi. 1970-ci ilin mart ayında Ciddə, həmin ilin dekabr ayında isə Kəraçidə müsəlman ölkələri xarici işlər nazirlərinin keçirilmiş görüşlərində İslam Konfransı Təşkilatının tam formalaşması başa çatdı. Bununla da, XX əsrin 30-40-cı illərindən başlayaraq ərəb-müsəlman ölkələrinin müvəffəqiyyətsizliyə uğramış birləşmə cəhdlərindən sonra bu dövlətlərin ilk beynəlxalq təşkilatı yaranmış oldu.

Təşkilatın adı 2011-ci ildə İslam Əməkdaşlığı Təşkilatı olaraq dəyişdirilmişdir. Əhalisinin əksəriyyəti müsəlman olan ölkələrin formalaşdırdığı İslam Əməkdaşlığı Təşkilatının qarşısına qoyduğu əsas vəzifə üzv ölkələr arasında siyasi, iqtisadi, mədəni, elmi və sosial əməkdaşlıq və həmrəyliyi inkişaf etdirməkdir. Təşkilatın yaradılmasında əsas məqsəd hər nə qədər siyasi səbəblərə görə olsa da, çox keçmədən iqtisadi sahədə ortaqlıq və əməkdaşlıq prioritet halına gəlmiş və üzv ölkələr arasında bu istiqamətdə iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün mühüm addımlar atılmışdır[66]. Məsələn, 1970-ci ildə Pakistanın Karaçi şəhərində müsəlman

---

[65] Bax: İslam Əməkdaşlığı Təşkilatının rəsmi internet səhifəsi, "Təşkilat haqqında": https://www.oic-oci.org/page/?p_id=56&p_ref=26&lan=ar

[66] Kahraman Arslan. İslam ülkeleri arasında işbirliğine giden yolda yeni arayışlar // Uluslararası Yönetim İktisat ve İşletme dergisi, X cild, № 21, 2014, səh. 180.

ölkələri xarici işlər nazirlərinin II konfransında İslam İnkişafı Bankının yaradılması qərara alınmışdır. 1978-ci ildə isə İslam Ticarət-Sənaye Palatası yaradılmışdı. Qeyd edilməlidir ki, İslam İnkişaf Bankı İslam Əməkdaşlığı Təşkilatının fəaliyyətində mühüm rol oynayır. Bankın yaradılması haqqında sazişin mətnində deyilirdi: “Bu müqaviləni imzalayan hökumətlər müsəlman ölkələri xalqlarının məişət səviyyəsinin yaxşılaşdırılmasını, islam dövlətlərinin balalanslaşdırılmış iqtisadi inkişafının islam dəyərləri və prinsipləri əsasında həyata keçirilməsinin vacibliyini, İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında iqtisadi və maliyyə əməkdaşlığının bu inkişafı həyata keçirmədə ən yaxşı vasitə olduğunu başa düşərək, İslam Konfransı Təşkilatının məqsədlərindən birinin sosial-iqtisadi sahələrdə üzv dövlətlərinin əməkdaşlığına dəstək vermək və bu əməkdaşlığı inkişaf etdirmək olduğunu, ... islam prinsipləri və ideallarını əsas götürən beynəlxalq maliyyə qurumunun yaradılmasının islam ümmətinin birliyi və həmrəyliyinin əməli ifadəsi olacağını nəzərə alaraq, bu qərara gəlirlər ki, ... Beynəlxalq İslam Bankı təsis edilsin”[67]. 2010-cu ildə bankın 9 milyard 910 milyon dollar məbləğində kapitalı var idi[68]. 57 ölkənin üzv olduğu İslam İnkişaf Bankı BMT-nin Baş Assambleyasında müşahidəçi statusa sahibdir.

Hal-hazırda İslam Əməkdaşlığı Təşkilatının baş katibi Səudiyyə Ərəbistanı Krallığının vətəndaşı Yusif ibn Əhməd əl-Üseymindir. 1972-ci ildə üzv dövlətlərin xarici işlər nazirlərinin görüşündə

---

[67] Bax: İslam İnkişaf Bankının Nizamnaməsi, səh. 5: http://www.isdb.org/irj/go/km/docs/documents/IDBDevelopments/Internet/Arabic/IDB/CM/About_IDB/Articles_of_Agreement/Articles_of_Agreement.pdf

[68] Bax: İslam İnkişaf Bankının resursların səfərbər edilməsi strategiyası: http://www.isdb.org/irj/portal/anonymous?NavigationTarget=navurl://1c4500b822129ccaafbe83495340f60f&LightDTNKnobID=-794569431

İslam Əməkdaşlığı Təşkilatının nizamnaməsi qəbul olunmuş, təşkilatın əsas məqsədləri və qarşısında duran başlıca vəzifələr göstərilmişdi. Nizamnaməyə sonrakı illərdə əlavələr edilmişdir. Sonuncu mətn 2008-ci ildə Seneqalın paytaxtı Dakar şəhərində XI İslam Sammitində təsdiqlənərək qəbul edilmişdir. Təsis edildikdən sonrakı dörd onillik ərzində təşkilata üzv dövlətlərin sayı 30-dan 57-ə yüksəlmişdir.

İslam Əməkdaşlığı Təşkilatı müsəlmanların maraqlarını qorumaq, üzv dövlətlərin tərəf müqabili olduğu konflikt və münaqişələrin sülh yolu ilə nizamlanmasına kömək etmək üçün beynəlxalq qurumlarla, o cümlədən BMT ilə əməkdaşlıq edir. İƏT islam dəyərlərini müdafiə etmək, islam haqqında saxta təsəvvürləri təshih etmək, müsəlmanlara qarşı yolverilən ayrı-seçkiliyin bütün formaları ilə mübarizə aparmaq istiqamətində müəyyən addımlar atmışdır. Yeni əsrin ilk illərində təşkilata üzv dövlətlərin problemlərini həll etmək məqsədilə 2005-ci ildə Məkkə şəhərində keçirilmiş İƏT-in III Sammitində onillik fəaliyyət planı işlənib hazırlanmış və təsdiq edilmişdir.

İƏT-in yeni nizamnaməsində əməkdaşlığın 18 prioritet sahəsindən söz açılır və qarşıya 107 məqsəd qoyulur. Həmin sahələrə aşağıdakılar daxildir:

Sülh və təhlükəsizlik; Fələstin və Qüds; yoxsulluq səviyyəsinin azaldılması; terrorla mübarizə; sərmayə qoyuluşu və layihələrin maliyyələşdirilməsi; qida təhlükəsizliyi; elm və texnologiya; iqlim dəyişikliyi problemləri; davamlı inkişaf; mötədillik; mədəniyyət və dinlərarası harmoniya; qadın iştirakçılığı; humanitar sahədə ortaq islam fəaliyyəti; insan haqları və s[69].

---

[69] Bax: İslam Əməkdaşlığı Təşkilatının rəsmi internet səhifəsi, "Təşkilat haqqında": https://www.oic-oci.org/page/?p_id=56&p_ref=26&lan=ar

Təşkilatın mühüm qurumlarına İslam Sammiti, Xarici İşlər Nazirləri Şurası, Baş Katiblik, İslam İnkişaf Bankı, İslam Xəbər Agentliyi, Qüds Komitəsi, Qüds Fondu, Elm və Texnologiya Daimi Komitəsi, İqtisadiyyat və Ticarət Daimi Komitəsi, İnformasiya və Mədəniyyət Daimi Komitəsi, İslam Ticarət və Sənaye Palatası, Elmi-Texniki İnkişaf İslam Fondu, İslam Ölkələri Paytaxtları Təşkilatı və s. daxildir. Baş Katibliyin qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir.

Ümumiyyətlə, keçən əsrin 60-80-ci illəri üçün səciyyəvi olan şey islam ölkələrinin həmrəyliyi istiqamətində addımların atılmağından, cəhd və təşəbbüslərin göstərilməsindən ibarətdir. Məsələn, 1962-ci ildə Səudiyyə Ərəbistanının təşəbbüsü isə İslam Dünyası Cəmiyyəti yaradılmışdı. Təşkilatın məqsədi islam həmrəyliyi və Səudiyyə Ərəbistanının müsəlman ölkələri arasında yerini möhkəmlətmək idi. 1974-cü ildə İslam Həmrəyliyi Fondu, 1979-cu ildə isə Müsəlman Hüquqşünaslarının Ümumdünya Cəmiyyəti təsis edilmişdi. İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İSESKO-nun yaradılması ideyası da müsəlman dünyasında dirçəliş cəhdlərinin baş verdiyi dövrdə meydana çıxmışdı. 1979-cu ildə yaradılmış təşkilatın məqsədi islam həmrəyliyini müasir və aktual formada həyata keçirmək idi. İƏT-ə daxil olan 57 ölkənin əllisi İSESKO-nun üzvüdür. Təşkilatın qərargahı Rabat şəhərində yerləşir. 1983-cü ildə İndoneziyada müsəlman alimlərinin elmi sessiyasında İndoneziya prezidenti Məhəmməd Suxarto (1921-2008) və Səudiyyə Ərəbistanı Krallığı Nazirlər Şurasının rəhbəri Fəhd ibn Əbdüləziz (1922-2005) müsəlman alimlərini islam ölkələri üçün universal inkişaf yolu tapmağa çağırmışdı.

1990-cı ildə İranda İslam Məzhəblərinin Yaxınlaşdırılması Ümumdünya Assambleyası, 2004-cü ildə Londonda Ümumdünya İslam Alimləri Birliyi təsis edilmişdi.

Göründüyü kimi, təxminən bir əsrdir ki, müsəlman dünyasında həmrəylik və birləşmə çağırışları edilir, əlaqədar addımlar atılmaqla mövcud imkan və potensialın qiymətləndirilməsinə cəhd göstərilir. Müsəlman dünyasında yaxşı başa düşürlər ki, bu və ya digər müsəlman ölkəsinin daxildə və xaricdə üz-üzə qaldığı müəyyən problemlərin həlli üçün başqa ölkələrin, xüsusən də tarixən milli və ya dini tellərlə bağlı olduğu ölkələrin köməyinə ehtiyac vardır. Bu da öz növbəsində müxtəlif sahələrdə həmrəyliyi zəruri edir.

Siyasi-iqtisadi maraqlar uğrunda rəqabətin gücləndiyi, beynəlxalq və regional blokların (siyasi, iqtisadi...), güc mərkəzlərinin mövcud olduğu, İsraillə müharibələrin aparıldığı, tarixi torpaqların itirildiyi 40-80-ci illərdə, müsəlman dünyası dövlətlərinin qarşısında fəal və səmərəli xarici siyasət kursu yürütmək vəzifəsi dayanmışdı, indiki dövrdə də dayanır. Söhbət birliyi təmin edəcək, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın münasib tərəflərini müəyyənləşdirəcək siyasi kursdan gedir. Bununla da, Müsəlman dövlətlərinin maraqları qorunacaq, bu və ya digər dövlətin qlobal güclərin region ölkələrinin əleyhinə olan gizli və ya aşkar planlarının qarşısı alınacaqdır.

Dünyanın yeni mənzərəsi sosial-iqtisadi problemlərdən əziyyət çəkən, milli və dini maraqlar müstəvisində çəkişmələrə atılan dövlətlərin əli ilə formalaşdırılır. Həm bu vəziyyət, həm də belə vəziyyətin yaranmağında maraqlı olan qlobal güclər zəif ölkələr, o cümlədən müsəlman dünyası üçün daimi təhlükə mənbəyidir. Odur ki, müsəlman dünyası mübarizə və rəqabət poliqonuna çevrilir, birbaşa və mədəni-ideoloji müstəmləkəçiliyin obyekti rolunu oynayır. Baş verən qlobal hadisələrin fonunda müsəlman ümmətini əmələ gətirən xalqlar və dövlətlər, hər şeydən əvvəl, sağlam əqidəvi (həm də ideoloji), fikri və mənəvi dünyagörüşünə sahib olmalıdır. Bu baş verərsə, ümmətin siyasi, iqtisadi və mədəni gücü özünə qayıdacaq,

müsəlmanlar "camaat"[70], ümmət, mədəni, siyasi, iqtisadi birlik və həmrəylik anlayışlarını düzgün başa düşüb həyata keçirəcəklər.

Müsəlman dünyasının ideoloqları göstərir ki, Qərbin xarici siyasət kursunu əmələ gətirən hərbi kampaniyalara, mədəni-ideoloji qəsbkarlığa qarşı mübarizə aparmaq üçün müsəlmanlar öz aralarında birlik və həmrəylik şüurunu gücləndirməlidirlər. Ümummüsəlman həmrəyliyinin təmin edilməsində liberal demokratiya və ya millətçilik ideyaları təşviqedici mexanizm əmələ gətirməyə qadir deyildir, Ərəb ölkələrinin yaxın 70 illik tarixi də bunu təsdiqləyir. Bəzi faktlar çıxılmaqla istər liberalizm, istərsə də millətçilik hökumətlər vasitəsilə yuxarıdan aşağıya qəbul etdirilmiş, odur ki, xəlqilik kəsb etməmişdir. Birlik təşəbbüslərinə ərəb-müsəlman hökumətlərinin "töhfə"si məcburi qəbuletdirmə siyasətindən ibarət olmuşdur.

Bəzi müəlliflər islam həmrəyliyi ideyasını ümumdünya islam sistemi yaradacaq baza hesab edirlər. Qeyd olunur ki, dövlətlərarası münasibətlərdə beynəlxalq əxlaq normaları əsas götürülməlidir. Dünya isə bu normalar və hüquq sahəsində islam mədəni irsinin rolunu etiraf edir[71]. Çoxəsrlik islam tarixi göstərmişdir ki, müxtəlif din və mədəniyyətlərin nümayəndələri vahid dövlətin tərkibində azad şəkildə yaşamış, öz dini və milli kimliklərini qoruyub saxlamışdılar. Belə müəlliflərdən biri də əslən fələstinli olan Amerika filosofu İsmayıl Raci Faruqidir (1921-1986). İslam həmrəyliyi ideyasını ümumdünya islam sisteminin baza elementlərindən biri hesab edən Faruqi göstərir ki, müsəlmanlar bu məqsədi həyata

---

[70] Camaat: (ərəb. "topluluq"). Müsəlmanların din qardaşlığı prinsipinə əsasən təsis etdikləri və üzv olduqları sosial-dini və siyasi birlik, toplum.
[71] Bax: Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014,səh. 38.

keçirmək üçün islam iltizamı prinsipinə əməl etməli, yəni dünyagörüşünü islam əsasında formalaşdırmalıdırlar. Çünki mövcud siyasi-ideoloji böhrandan xilas olmağın yeganə və optimal yolu Qərbin təqdim və tətbiq etdiyi ideoloji-fəlsəfi nöqteyi-nəzərlərin özünü doğrultmamasından sonra islamdan keçir[72]. Faruqi iddia edirdi ki, sülhün hökm sürdüyü, problemlərin ədalət və qardaşlıq kontekstində tənzimləndiyi ümumdünya sistemini qurmağı məhz Allah əmr edir. İnsanlar bu sistem sayəsində davamlı rəqabətdən, mənasız həyəcandan, ağrı-acıdan, baş verə biləcək yoxolmadan xilas ola bilərlər. Deməli, müsəlmanların sülhün, ədalət və qardaşlığın hökm sürdüyü ümumdünya sisteminə tərəfdar çıxmaları həm dini borcdur, həm də faydalıdır[73]. İslam dəyərləri ilə tənzimlənən sülh, ədalət, azadlıq, sərbəstlik, bərabərlik, beynəlmiləlçilik prinsipləri bu birliyin hüquqi-ideoloji bazasını təşkil edir[74].

Müsəlman həmrəyliyinin hüquqi-ideoloji əsaslarına gəlincə, islam nöqteyi-nəzəri, ümmətin birliyi, din qardaşlığı konsepsiyaları bu həmrəyliyin ideya bazasını əmələ gətirir. Məsələn, 2014-cü ildə Məkkədə Ümumdünya İslam Liqasının təşkil etdiyi II "İslam Dünyası: Problemlər və Həll Yolları, İslam Həmrəyliyi" Beynəlxalq Konfransında qəbul edilmiş "İslam Həmrəyliyi Xartiyası"nın mətnində göstərilirdi ki, fərdlər, cəmiyyətlər və dövlətlər səviyyəsində müsəlmanların həmrəyliyi dinin tələblərindəndir. Ümmət xeyri cəlb, zərəri dəf edən məsələlərdə orqanları "əməkdaşlıq" edən bədəni xatırladır. Quranda deyilir: "Yaxşılıq etməkdə və pis

---

[72] Bax: Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 38-39.
[73] Yenə orada, səh. 39.
[74] Yenə orada, səh. 40-47.

əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin"[75]; "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz"[76],[77]. Sənədin mətnində həmrəylik və birlik ideyası həm də Məhəmməd peyğəmbərin hədisləri ilə əsaslandırılırdı. İqtibas gətirilmiş hədislərin ümumi məzmunu budur ki, müsəlmanlar qarşılıqlı sevgi, istək və rəhmdillikdə bir bədən kimidirlər. Bu bədənin bir əzası xəstələnərsə, ağrı-acıdan şikayət edərsə, digər əzalar da qızdırma və yuxusuzluğa düçar olar; iki mömin kərpicləri bir-birini bərkidən binaya oxşayır və s[78].

**İslam nöqteyi-nəzəri**. Müsəlman ölkələri arasında birlik və həmrəyliyin əsasını, hər şeydən əvvəl, islam nöqteyi-nəzəri əmələ gətirir. Çünki islam bu ölkələrin ortaq dəyəridir, istər keçmişdə, istərsə də indiki dövrdə onları birləşdirən ümummüsəlman tarixi və mədəniyyətinin baza elementidir. Ərəb-müsəlman xalqların mayası islamla yoğurulmuşdur və islam bu xalqların ontoloji və qneseoloji mövcudluğunun başlıca ünsürüdür. Bu səbəbdən bır sıra müəlliflər qeyd edirlər ki, ərəb-müsəlman dünyasında keçən əsrin otuzuncu illərindən etibarən siyasi-ideoloji problemlərin həlli məqsədilə hökumətlər müstəvisində müraciət edilən liberal və sosialist ideologiyalar süni olub səmərə verməmişdir. Həm bu səmərəsizlik,

---

75 Quran: V, 2.
76 Quran: III, 103.
77 Bax: Ümumdünya İslam Liqasının rəsmi internet səhifəsi http://www.themwl.org/solidarity/node/50
78 Yenə orada.

həm də islamın bu coğrafiyanın identikliyinin formalaşmasında başlıca element rolunu oynamağı islam nöqteyi-nəzərini zəruri etmişdir[79].

Misirli mütəfəkkir Fəhmi Hüveydinin (anadan olub – 1937) islam nöqteyi-nəzəri haqqında dedikləri maraq doğurur. O göstərir ki, islam nöqteyi-nəzəri ancaq bir, yaxud keçmişdə tətbiq edilən, tarixin müəyyən mərhələsində özünü doğruldan həll yolunu əsas götürmür. İslamın həyata və kainata baxışı ilə səsləşən fərqli-fərqli həll yolları məqbul hesab edilməlidir[80]. Təqdim edilən həll yolunun dini mətnlərdə birbaşa öz əksini tapması şərt deyildir. Bir həll yolu islamın fəlsəfəsi ilə ziddiyyət əmələ gətirmədikcə, müsəlman cəmiyyətinin maraqlarını təmin etdikcə ona uyğundur. İslam nöqteyi-nəzəri həll yollarının donuqluğuna qarşı olub, real vəziyyətin dəyişilməsi ilə vasitələrin dəyişdirilməsinə çağırır[81]. Həmçinin islam dəyərlərinə əks olmayan bəşəri dəyərlərin təqdim etdiyi həll yollarına müraciət istisna edilmir. Ortaq maraqları təmin edən qeyri-dini həll variantlarının tətbiqi mümkündür və müsəlmanlar buna etiraz etməməlidirlər[82].

İslam nöqteyi-nəzəri təkcə həmrəyliyi təmin etmək, mövcud problemlərin həlli yollarını göstərmək üçün deyil, həm də prioritetlərin müəyyənləşdirilməsində zəruridir. İslam nöqteyi-nəzərinin tarixi təcrübədə əksini tapan, birlik və həmrəylikdə həm baza, həm də təşviqedici mexanizm rolunu oynayan prinsip və dəyərləri vardır. İndiki dövrdə bu prinsip və dəyərlər əsas götürüldüyü təqdirdə islam həmrəyliyi öz səmərəsini verəcəkdir. Peyğəmbərin yaşadığı

---

[79] يوسف القرضاوي. الحل الإسلامي فريضة و ضرورة. بيروت: "مؤسسة الرسالة، 1974، ص 17.

[80] فهمي هويدي. حتى لا تكون فتنة. القاهرة: "دار الشروق"، 1989، ص 40.

[81] فهمي هويدي. حتى لا تكون فتنة. القاهرة: "دار الشروق"، 1989، ص 40-41.

[82] Yenə orada, səh. 41.

dövrün sosial-siyasi, hətta iqtisadi mənzərəsi öyrənildikdə məlum olur ki, islam nöqteyi-nəzəri və dünyagörüşü ilk müsəlman icması və cəmiyyətinin əsas ideoloji bazasını təşkil etmişdir. Yaşadığımız dövrdə islam nöqteyi-nəzəri və islamdakı məqsədlər doğru şəkildə öyrənilməzsə, islam həmrəyliyinin həyata keçirilməsi istiqamətində görülən işlərdə nəzərə alınmazsa, bu həmrəylik kağız üzərində qalıb aidiyyəti ölkə və xalqlara heç bir fayda gətirməyəcəkdir.

Həm islam nöqteyi-nəzərini, həm də dinin məqsədlərini obyektiv tədqiqatların obyekti seçmədən erkən islam dövründə Peyğəmbərin təsis etdiyi sosial-siyasi birlik modelindən fərqli modellərin tətbiq olunduğu müasir cəmiyyətlərdə bu nöqteyi-nəzərə məna qazandırmaq çox çətindir. XX əsrdən başlayaraq bir çox müsəlman tədqiqatçısı yaşadığı dövrdə Peyğəmbərin təsis etdiyi siyasi-ictimai birlik modelinin mahiyyətini öyrənməyi qarşısına məqsəd qoymayan hərfi metoddan istifadə edirlər. Hərfi və ya formal yanaşma üsulunun uğur qazanması mümkün deyildir, odur ki, islam nöqteyi-nəzəri dövrün tələbləri və mövcud dəyişikliklərə uyğun şəkildə izah edilməlidir.

İslama dair bir sıra müasir tədqiqatlarda analitik-sistematik və komparativ metod ciddi şəkildə tətbiq edilmədiyi, problemə kompleks münasibət bildirilmədiyi üçün əksər hallarda islam nöqteyi-nəzəri ya məqbul çıxış yolu təsəvvürü bağışlamır, ya da tətbiq edildiyi nadir təcrübə cəhdlərində özünü doğrultmur. Bu və digər amillər səbəbi ilə müasir dövrdə müsəlman ölkələri arasındakı münasibətlərə ciddi və intensiv şəkildə "islam" səciyyəviliyi kəsb etdirmək mümkün olmayıb. Bəzi müəlliflər buna misal olaraq İslam Əməkdaşlığı Təşkilatının həm müsəlman ölkələrinin münasibətlərini tənzimləmək, həm də ümumdünya müstəvisində fəal aktyora çevrilmək baxımından uğradığı müvəffəqiyyətsizliyi göstərirlər. Düzdür, 57 müsəlman ölkəsini təmsil edən və qeyri-müsəlman ölkələrdə yaşayan müsəlman azlıqların problemləri ilə maraqlanan İslam Əməkdaşlığı Təşkilatı XX

əsrdə Müsəlman ümmətini ən çox məşğul edən, həm də bir yerə toplayan İsrail məsələsinin meydana çıxardığı qurum[83] olsa da, nə İraq-İran müharibəsi, nə İraq-Küveyt böhranı, nə Somali və Əfqanıstanda dini qruplar arasındakı toqquşmalar zamanı, nə hərbi çevrilişlə nəticələn Misir "Ərəb baharı" hadisələrində, nə də Suriyada hələ də davam edən hərbi münaqişədə problemi həll edəcək tərəf rolunu oynaya bilmişdir. Bəzi ədəbiyyatlarda buna səbəb olaraq İslam Əməkdaşlığı Təşkilatının islam nöqteyi-nəzərini əsas götürməyən, dünyəvilik ideologiyasını mənimsəmiş qurum olmağı göstərilir[84]. Fikrimizcə, dünyanın siyasi-iqtisadi mənzərəsinin müsəlman ölkələrindən daha güclü qütblər (ABŞ, Avropa, Rusiya, Çin və s.) tərəfindən formalaşdırılması, hətta bir çox ərəb və müsəlman ölkələrin bu qütblərdən bu və ya digərinin inhisarında olmağı, ərəb-müsəlman ölkələrində demokratik quruluşların tam bərqərar olmamağı, təşkilata üzv bəzi ölkələrin münasibətlərində gizli, bəzən də aşkar gərginliyin özünü göstərməsi, dövlət quruluşu, daxili və xarici siyasət kursunda əsas götürüləcək vahid ideologiyanın olmamağı və sair amillər İslam Əməkdaşlığı Təşkilatının beynəlxalq arenada fəal siyasi aktyora çevrilməsinə əngəl yaratmışdır. 2011-ci ildə İslam Əməkdaşlığı Təşkilatı daxilində bəzi islahatlar aparılsa da, bu dəyişikliklər istənilən nəticəni verməyib. Müsəlman dünyasının problemlərinə etinasız yanaşan, ya da lazımi reaksiyanı verməyən[85] bu qurumun gələcəkdə qlobal təsirə malik siyasi tərəfdaşa çevrilə bilməsi uzaq ehtimal hesab edilir.

---

[83] Muhittin Ataman, Ayşe Nur Gökçen. Sembolizm və Aktivizm arasında İslam İşbirliği Teşkilatı // SETA Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, № 76, 2014, səh. 7.

[84] Yusuf el-Karadavi. İslam ümmeti hayalmı, gerçekmi? İstanbul, 2008, səh. 68.

[85] Myanmada müsəlmanların radikal-fanatik buddistlər tərəfindən qətliama məruz qaldığı bir vaxtda İƏT-in passiv mövqeyi təəccüb doğurur.

İslam həmrəyliyində eyniadlı nöqteyi-nəzərin rolu məsələsinin araşdırıldığı tədqiqatlarda həmin nöqteyi-nəzər onunla əsaslandırılır ki, fərd və cəmiyyət müstəvisində mənəvi-əxlaqi dəyərlərə ehtiyac vardır; maddi və mənəvi həyatın uğurlu harmoniyasına əsaslanan mədəni-sosial sistemin yaradılması günün tələbidir; fərdiyyətçiliyə əsaslanan kapitalizm, kollektivçilikdən çıxış edən sosializm fərd və cəmiyyət məsələlərinə münasibətdə balanslaşdırılmış mövqe nümayiş etdirmir; yad – "idxal" edilmiş həll yolları daxili siyasi problemləri tənzimləməkdə müvəffəqiyyətsizliyə uğramışdır; elə ortaq dəyər və ideologiya sistemi tapılmalıdır ki, dünyanın müxtəlif yerlərində yaşayan müsəlmanların arasında birlik və həmrəyliyi təmin etsin və s[86].

Yuxarıda qeyd etmişdik ki, islam nöqteyi-nəzərinin özünəməxsus prinsip və dəyərləri vardır. Bu prinsip və dəyərlər həm tarixi təcrübədə əksini tapmışdır, həm də birlik və həmrəylikdə baza, təşviqedici mexanizm rolunu oynaya bilər. Onlardan bəzilərinə toxunaq.

**Tövhid.** İslam nöqteyi-nəzərinin ən başlıca prinsipi kimi tövhid göstərilir[87]. Müsəlman müəlliflərə görə, tövhid islam nöqteyi-nəzərinə məzmun və məqsədyönlülük qazandırır[88]. “Tövhid elə prinsipdir ki, islam mədəniyyətinə kimlik bəxş edir, onun bütün

---

[86] يوسف القرضاوي. الحل الإسلامي فريضة و ضرورة. بيروت: "مؤسسة الرسالة، 1974، ص 39-80.

[87] Aşağıdakı mənbələrə müraciət etmək oxucuda tövhid mövzusu haqqında hərtərəfli təsəvvür yarada bilər: Şeyx Məhəmməd ibn Saleh əl-Üseymin. əl-Qövl əl-müfid əla kitab ət-tövhid. Beyrut: “Müəssisə ər-Risalə”, 2005; Ismail Raji al Faruqi. Al Tawhid: Its Implications for Thought and Life. Virginia, 2000. Mürtəza Mütəhərri. əl-Məfhum ət-tövhidi lil-aləm. Dar ət-təyyar əl-cədid, 2008; Məhəmməd Bağır əs-Sədr. Fəlsəfətuna. Beyrut, 2009; Məhəmməd Əbduh. Risalə ət-tövhid. əl-Qahirə, 2009.

[88] Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 248.

elementlərini vahid üzvi sistemdə birləşdirir və biz bu sistemi mədəniyyət adlandırırıq. Ayrı-ayrı elementlərin bir yerə cəm edilməsində rol oynayan mədəni əsas – bu məqamda söhbət tövhiddən gedir – həmin elementlərə özünəməxsusluq qazandırır, daha sonra onları digər elementlərlə həmahəng vəziyyətə gətirir. Bu əsas həmin elementləri mütləq şəkildə dəyişmir, əksinə, mədəniyyət yaratmaq üçün onlara forma verir və bu mədəniyyəti təşkil edən yeni xassələr qazandırır. Əsasın müxtəlif elementlər və funksiyaları ilə əlaqəsinin dərəcəsinə uyğun olaraq köklü və cüzi dəyişikliklər baş verir. ...Müsəlmanlar tövhidi digər prinsipləri özündə birləşdirən, yaxud tənzimləyən başlıca prinsip hesab etmişlər. Onların nəzərində tövhid islam mədəniyyətindəki bütün təzahürləri tənzimləyən əsas və ilk mənbə idi”[89].

Tövhid ərəb dilindəki “vəhhədə” felindən düzəlmiş isimdir. Bu fel “sayıla bilən yaxud bilinməyən hər hansı bir şeyi tək bilmək, yeganə hesab etmək” mənasında işlədilir[90].

Terminoloji mənada tövhid mahiyyəti, atributları, fəaliyyəti, ilah və rəbb olmağı baxımından Allahı tək, yeganə hesab etməkdir.

Klassik tərifə görə, tövhid Allahdan başqa ilahın olmadığına etiqad bəsləmək və bunu təsdiqləməkdir. Yəni tövhid – Allahın mövcudluğu və təkliyini, yaratma və idarəetmədə misilsizliyini ifadə edir[91].

Qurani-Kərimin kompleks təhlili göstərir ki, tövhid geniş anlayış olub, özündə iki məsələni ehtiva edir: birinci məsələ insan-insan, ikinci məsələ isə Allah-insan münasibətləri ilə əlaqədardır.

---

[89] إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015، ص 9-10.

[90] Bax: الراغب الاسفهاني. معجم مفردات ألفاظ القرآن. بيروت: دار الفكر، 2006، ص 399-400.

[91] Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 248; إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015، ص 10

Bu iddianın məzmunu ondan ibarətdir ki, insan-Allah münasibətləri tövhidin ancaq bir tərəfini əmələ gətirir. Allahla insan arasındakı münasibətlərin obyektivliyi və ya düzgünlüyünü təmin etmək üçün insanların öz aralarında dürüstlük, ədalət, bərabərlik və sairə əsaslanan əlaqə formatını seçmələri şərtdir.

"Məhz tövhidə əsasən insan başqaları ilə münasibət qurmağı öyrənir, Allahla əlaqənin fonunda onlarla münasibət yaradır. Tövhidi tərəziyə oxşatmaq mümkündür: bir gözü dəyişmədikcə digər gözü də dəyişmir. Tövhid varsa, insan oğlu həm Allah, həm də insanlar qarşısında şüurlu və məsuliyyətli olacaqdır. Həqiqi müsəlman Allah yox imiş kimi hərəkət edə, insanları aldatdığı kimi rəbbini də aldadıb məsuliyyətdən qaça bilməz"[92].

İslam nöqteyi-nəzərində tövhid həm də ona görə mühümdür ki, insanlar arasında bərabərlik və qohumluq birliyini[93] ifadə edir.

İslam nöqteyi-nəzərində ideya və ideoloji baza olaraq tövhid prinsipi seçildiyi üçün müsəlman müəlliflər həyatın məğzini onunla izah edib bildirirlər ki, insan həyatı Allaha bağlı olmalıdır; həyat bir imtahandır və insan oğlu bu imtahan zamanı yaxşı əməllər işləməli, xeyirxahlıq etməlidir. Bu səbəbdən cəmiyyətdə fərdin boynuna məsuliyyət düşür və o, təşəbbüskar tərəfə çevrilir; sosial münasibətləri müəyyənləşdirmədə süni bölünmələrə, irq, rəng, dil, var-dövlət ayrı-seçkiliyinə yer qalmır[94]. Bu müəlliflərin əsərlərində qeyd olunur ki, tövhid prinsipi insana məsuliyyət yükləməklə

---

92 Əbdülhəmid əbu Süleyman. İslam iqtisadiyyatı nəzəriyyəsi (tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2017, səh. 21.

93 Bax: Quran, IV, 1.

94 Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 248.

ümumbəşəri cəmiyyətin, mədəniyyətin özüllərini atır. Yəni insanlar və cəmiyyətlərin fərqi vəzifəyə görə deyil, konkret işə, əməli nailiyyətlərə uyğun olaraq müəyyən edilir.

İslam həmrəyliyində tövhid prinsipi həm də ona görə səmərəli hesab edilir ki, onun əsasında hərəkətləri və müqəddəratını müəyyən etmədə insana azadlıq verilmişdir. Bu da öz növbəsində dini tolerantlığı təmin etmiş, müsbət tarixi təcrübə halına gətirmişdir[95].

Tövhid həm də islam həmrəyliyində ortaq platforma hesab edilən mədəniyyətin əsası olaraq qəbul edilir. Bu baxımdan tövhidin metod və məzmun tərəfləri haqqında danışılır və göstərilir ki, metod mədəniyyətin ilk prinsiplərinin tətbiqi və funksionallığı formalarını, məzmun isə həmin prinsipləri müəyyənləşdirir[96]. Bu baxımdan metodla əlaqəli üç əsasa: birlik, rasionallıq və tolerantlıq əsaslarına müraciət edilir. Bu əsaslar islam mədəniyyəti formasının konturlarını çəkmək baxımından olduqca zəruridir[97]. Tövhid birliyi təmin edən başlıca element kimi çıxış edir, vahid struktur, yaxud birlik olmadan mədəniyyətin təsis edilməsinin qeyri-mümkün olduğunu diqqətə çatdırır: "Hər hansı mədəniyyəti təşkil edən elementlər həmahəng, koordinasiyalı deyilsə, vəhdət yaratmırsa, mədəniyyət deyilən şey meydana gələ bilməz. Nəticədə belə elementlərin yaratdığı şey qarmaqarışıq kütlədən ibarət olacaqdır. Müxtəlif elementləri birləşdirəcək prinsipin tapılması olduqca zəruridir. Bu prinsip elementlərin qarmaqarışıq münasibətlərini üstünlük və ya əhəmiyyət dərəcələri ilə seçilən sistematik (mütəşəkkil) struktura çevirir... İslam mədəniyyətində bu ali prinsip tövhiddir"[98].

---

[95] Ətraflı məlumat üçün bax: محمد أبو زهرة. العلاقات الدولية في الاسلام. القاهرة: دار الفكر العربي، 1995، ص 20-37؛ سيد قطب. السلام العالمي و الاسلام. القاهرة، 2006، ص 129-149.

[96] إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015، ص 19.

[97] Yenə orada.

[98] Yenə orada, səh. 19-20.

Tövhidi islam mədəniyyətinin ali prinsipi hesab edən nöqteyi-nəzərə görə, yerli, yaxud yad mühitdə meydana çıxan elementlərin vahid sistem daxilində tənzimlənməsi, onlara özünəməxsus forma və əlaqələr kəsb etdirilməsi, yeni ümumi mədəniyyətin yaranmasında zəruri şərtdir: "Fakt budur ki, özünə yad elementlər cəlb etməyən mədəniyyət yoxdur. Amma bu mədəniyyətin həmin elementləri "həzm" edib özünə uyğunlaşdırması çox mühümdür... Bununla da, onlar əvvəlki formalarını itirir, yeni mədəniyyətin tərkib hissələrini əmələ gətirirlər... Mədəniyyət bu cür elementləri öz strukturuna uyğunlaşdırıb yenidən redaktə edərsə, bu onun canlılığına, dinamikliyi və yaradıcı təbiətinə dəlalət edəcəkdir. Bitkin mədəniyyətlərdə, xüsusən islamda bütün tərkib elementləri – fiziki, struktur və tabe elementlər olsun, fərqi yoxdur – bir ali prinsiplə tənzimlənir, ki, ...bu ali prinsip də tövhiddir. O, müsəlmanın əsas meyarı, digər din və mədəniyyətlərlə üz-üzə gəldikdə, yeni vəziyyət və həqiqətlərə münasibət bildirərkən istinad etdiyi ölçüdür"[99].

Müsəlman həmrəyliyinə çağırış edən müəlliflərin əsərlərində tövhid həm də ümmətin birliyinin ilk prinsipi olaraq nəzərdən keçirilir. Bu mənada tövhid Quranın "Ənbiya" surəsinin 92-ci ayəsi kontekstində tək Allaha ibadətin fonunda ümmətin birliyini təmin edəcək prinsip kimi təqdim edilir: "Tövhidə görə, inananlar qardaşlıq kollektivini əmələ gətirir, bir-birlərini Allah üçün sevir, bir-birinə haqqı və səbri tövsiyə edir[100], hamılıqla Allahın ipindən yapışıb parçalanmır[101], bir-birinə güvənir, yaxşılığı əmr edib, pislikdən çəkindirirlər[102]"[103].

---

[99] Yenə orada.
[100] Quran: CIII, 3; XLIX, 10.
[101] Quran: III, 103.
[102] Quran: III, 110; V, 82; IX, 113; XX, 54 və 128.

**Ədalət**. Ədalət həm ayrı-ayrı fərdlərin, həm də cəmiyyətin mənafeyini qorumaq üçün lazımdır. Əgər qardaşlıq, bərabərlik və həmrəylik dəyərləri siyasi-ictimai, mədəni-iqtisadi ədalət prinsipinə əsaslanmazsa, heç bir məzmun ifadə etməyəcəkdir. İslam nöqteyi-nəzərində ədalət və təqva vəhdətdə götürülür, ilahi sevgi və itaətdə zəruri şərt olaraq göstərilir. Məsələn, Quran insanları ədalətli olmağa, hər hansı şəxslə olan ədavət ucbatından ədalətsiz davranmamağa çağırır[104].

Ədalət islam dünyagörüşündə əhəmiyyətli yerə sahibdir. Düzdür, müsəlman ilahiyyatında təqva bütün xeyirxah əməllərə, o cümlədən ədalətə stimul verən anlayış olaraq qəbul edilib. Bununla yanaşı, yer üzündə ədaləti bərqərar etmək Quranda peyğəmbərlik institutu ilə əlaqəli zəruri vəzifə hesab edilir:

"And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlara birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər..."[105].

Quranda o da deyilir ki, ədalət olmazsa, yer üzündə əmin-amanlıq hökm sürməz[106]; ədalətsizliyin nəticəsi bədbəxtlikdir, müsibət və ziyandır[107]. Peyğəmbər zülmü açıq şəkildə pisləmiş, "Qiyamət günü sahibinin qarşısına çıxacaq qaranlıqlar" kimi təsvir etmişdi. "İslama görə, zülm bərabərsizliyin, saxtakarlığın, istismarın bütün formalarını özündə ehtiva edən geniş mənalı anlayışdır. Bunlardan istifadə edən insan başqalarına ya zərər toxundurur, ya onları hüquqlarından məhrum edir, ya da hüquqlarını nəzərə almır"[108].

---

[103] إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015، ص 41.
[104] Quran: V, 8.
[105] Quran: LVII, 25.
[106] Quran: VI, 82.
[107] Quran: XX, 111.
[108] Chapra M. Umar. Muslim Civilization: The Causes of Decline and Need for Reform. Leicester, UK: The Islamic Foundation, 2008, səh. 27-28.

Klassik dövr müsəlman müəlliflərinin ədalət prinsipi haqqında görüşləri maraq doğurur. Məsələn, Mavərdi (972-1058) hesab edirdi ki, ədalət "ülfətə (həmrəyliyə, dostluğa) çağırır, itaətə sövq edir; ölkə onunla abadlaşır, var-dövlət artır, nəsil böyüyür, hökmdarlar əmin-amanlıqda olur... Zülmə gəlincə, tez bir zamanda onun qədər yer üzünü xarabaya çevirən, vicdanları korlayan ikinci bir şey yoxdur"[109]. İbn Teymiyyə (1263-1328) deyirdi: "Ədalətli olmaq hər kəsə hər bir şeydə vacibdir. Zülm etmək isə hər kəsə hər bir şeydə haramdır. Fərqi yoxdur müsəlmandır, kafirdir və ya zalımdır – heç kəsə zülm etmək olmaz"[110]. O belə bir prinsipdən çıxış edirdi ki, Allah küfrə əsaslanan ədalətli dövləti uzun ömürlü, zülmə yol verən islam dövlətini isə məhv edər[111]. İbn Xəlduna (1332-1406) görə, "Zülm mədəniyyəti məhv edir"[112] və s.

**Bərabərlik.** İslam nöqteyi-nəzəri müsəlmanların həmrəyliyini bərabərlik prinsipi ilə möhkəmlədir. Quranda göstərilir ki, insanların əsli eynidir, odur ki bərabərdirlər və onların arasında irq, cins və rəng ayrı-seçkiliyinə yol vermək olmaz. Peyğəmbər də bu prinsipi təsdiqləyərək bildirmişdi: "Ey insanlar! (Bilin ki), rəbbiniz birdir, atanız da eynidir. Hamınız Adəmdən törəmişsiniz, Adəm isə torpaqdan yaradılıb".

Quran mətninə nəzər saldıqda görürük ki, ayələrin çoxunda ilahi müraciət forması "ey insanlar"dır. Bundan çıxış edərək belə bir qənaətə gəlmək mümkündür ki, Quran dünyagörüşünə görə insanlar insan olmaqda bərabərdirlər. İnsan olmaqda bərabərlik öz

---

[109] أبو الحسن علي الموار دي. أدب الدنيا و الدين / التحقيق: مصطفى الصقا. القاهرة، 1955، ص 125.

[110] ابن تيمية. مجموع الفتاوى/ التحقيق: عبدالرحمان الاسيمي. الرياض، 1963، مج 7، ص 177.

[111] ابن تيمية. الحسبة/ التحقيق: عبدالعزيز رباح. دمسق، 1967، ص 7.

[112] عبد الرحمن بن خلدون. مقدمة ابن خلدون // تحقيق: حامد أحمد الطاهر. القاهرة: دار الفجر للتراث، 2004، ص 352.

növbəsində hüquq bərabərliyini zəruri edir. İnsanlar arasında bərabərlik prinsipinə əsasən ayrı-seçkiliyə yol verməmək hər kəsin rahat və dinc yaşadığı cəmiyyət formalaşdıra, cəmiyyətdə həmrəylik və birliyi təmin edə bilər. **Sülh və köməkləşmə (əməkdaşlıq).** Sülh və əməkdaşlıq islam həmrəyliyinin təminində mühüm rol oynayan prinsiplərdəndir. Bu prinsiplər islam nöqteyi-nəzərini əmələ gətirən dini mətnlərdə mövcuddur. Məsələn, dini mətnlərdə diqqətə çatdırılır ki, möminlər (dində) qardaşdırlar, odur ki, aralarında mübahisə yaranarsa, toqquşma yaxud çəkişmə baş verərsə, digər müsəlmanlar onları barışdırmalıdırlar[113]; müsəlmanlar yaxşılıq etməkdə əlbir olmalı, düşmənçilik etməkdə bir-birinə kömək göstərməməlidirlər[114]; müsəlman müsəlmanın ehtiyacını ödəməli, dərdinə dərman olmalı, çatışmazlıqlarını başqalarının yanında açıb danışmamalıdır; müsəlman o kəsdir ki, dili və əlindən başqa müsəlmanlara zərər toxunmur və s.

Yuxarıdakı dini mətnlər fərd, cəmiyyət və dövlət olaraq, müsəlmanların münasibətlərini tənzimləyən dəyər və prinsiplərin hansılar olduğunu açıb göstərir. Məlum olur ki, müsəlmanlar arasında ədalət və qardaşlığa söykənən münasibətlərin yaranmağı üçün qurucu əməkdaşlıq və köməkləşmə zəruri şərt kimi çıxış edir.

Qeyd edək ki, islamda müsəlmanlar müxtəlif müsəlman xalqlar arasında sülh və ədaləti təkcə bərqərar etməyə dəvət edilmirlər, həm də bu münasibətlərin qorunub saxlanmağı üçün bütün mümkün vasitələrdən istifadəyə təşviq olunurlar. Məsələn, Quran tələb edir ki, müsəlmanlar daxili islahatlar aparsınlar, xoşbəxt və stabil həyat üçün mümkün kollektiv təhlükəsizlik formalarından

---

[113] Quran: XLIX, 10.
[114] Quran: V, 2.

istifadə etsinlər, müsəlman icmasını parçalaya biləcək dağıdıcı ünsürlərə qarşı, yeri gələrsə, güc tətbiq etsinlər[115].

İslam həmrəyliyinin ideya bazasını həm də **ümmət konsepsiyası** təşkil edir. Qəbul edilmiş ümumi nöqteyi-nəzərə görə, ümmət cahanşümul dini, eləcə də ictimai-mədəni birlikdir[116]. Təbii ki, bu tərif öz başlanğıcını Quran və hədislərin mətnindən götürür. Məsələn, Quranda "ümmət" sözü yerindən asılı olaraq, “din”, “əməlisaleh şəxs”, “zaman”, “insanlar” və “camaat” mənasında işlədilir[117]. Təxminən 44 yerdə ümmət sözünün "insanlar", "camaat", "birlik" mənasına gəldiyinin şahidi oluruq[118]. Orta əsr müsəlman leksikoqraflarının əsərlərində ümmət dedikdə "hər hansı bir cəhətin: vahid dinin, zaman yaxud yerin birləşdirdiyi insanlar[119]; inanıb-inanmamaqlarından asılı olmayaraq peyğəmbərin göndərildiyi cəmiyyət, insanlar[120]; peyğəmbərə aid edilən, ona söykənən istənilən xalq, cəmiyyət[121] və s". başa düşülür.

Yuxarıdakı təriflərdən məlum olur ki, ümmət din elementinin formalaşdırdığı təsisatdır. Rus müəllifi P.A.Qryazneviç haqlı olaraq göstərmişdi ki, "onun (Məhəmməd peyğəmbərin – E.M.) üçün

---

115 Quran: XLIX, 9.
116 Ş.A. Paşazadə. İslamda ümmət və şüubilik. Bakı: "Bilik", 1992, səh. 48.
117 Quran: XVI, 120; XLII, 8; XLIII, 23; XIII, 45; XI, 8; VII, 159; VII, 164; XXVIII, 23; III, 104; XVI, 92; XXIII, 34; XXXV, 24; II, 134; XXIII, 52 və s.
118 Yusuf el-Karadavi. İslam ümmeti hayalmı, gerçekmi? İstanbul, 2008, səh. 14.
119 الراغب الاسفهاني. معجم مفردات ألفاظ القرآن. بيروت: دار الفكر، 2006، ص 21.
120 يعقوب الفيروز آبادي. القاموس المحيط. بيروت: دار المعرفة، 2008، ص 61.
121 Bax: İbn Mənzur. Lisan əl-ərəb //
http://library.islamweb.net/newlibrary/display_book.php?idfrom=229&idto=229&bk_no=122&ID=230

birliyin yeganə forması tezliklə bütün Ərəbistanı birləşdirmiş möminlər icması (ümmət əl-möminin) idi"[122].

İslam həmrəyliyində ümmət şüurunun əhəmiyyətli rol oynadığını yaxşı başa düşən müasir müəlliflər bu anlayışın dəqiq təsvirini verməyə cəhd göstərirlər. Onlara görə, ümmət dünyagörüşü, şüur, iradə və əməldə vahid mövqedən çıxış edən insanların ittifaqıdır: "Ümmət insanların ağıl, qəlb və bilək triosundan ibarət sistemli birləşməsidir. Düşüncələri, qərarları, mövqeləri, şəxsiyyətləri və biləkləri bir-birinə uyğundur. Ümmət rəngə və irqi kimliyə əhəmiyyət verməyən universal qardaşlıqdır. Belə bir dünyagörüşü sayəsində insanlar bərabər olub, ancaq təqva baxımından bir-birindən üstündürlər"[123].

Ümmətin təsvirində o da göstərilir ki, o hətta müsəlman olmayanları özündə birləşdirən kosmik nizamdır. İslamın sülh konsepsiyasına əsaslanan bu nizam həqiqətə inanan, ideya, əmtəə və insanların azad olduğu ümumdünya sistemi axtarışında olan bütün fərd və qrupların üzünə açıqdır. Bu mənada ümmət ictimai sistem olmaqla yanaşı, həm də ümumdünya sistemi kimi nəzərdən keçirilir[124].

Hələ Orta əsrlərdə müsəlman mütəfəkkir və filosoflar ümməti islam mədəniyyətinin əsası və zəruri şərti hesab edirdilər. Məsələn, İbn Tüfeylin "Həyy ibn Yəqzan" əsərində deyilirdi ki, Həyy ibn Yəqzan düşünməklə, ağlını işlətməklə Allahın mövcudluğu və təkliyi qənaətinə gəlibmiş. Daha sonra ümməti kəşf etməli idi.

---

[122] Грязневич П.А. Развитие исторического сознания арабов (VI-VIII вв.) // Очерки истории арабской культуры V-XV вв. Москва: "Наука", 1982. səh. 103.

[123] إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015، ص 41-42.

[124] Yenə orada, səh. 42-43.

Bunun üçün ağac budaqlarından qayıq düzəldərək okeanın insan ayağı dəyməmiş yerlərini gəzib ümmət axtarır. Ümmət olmadan onun bilikləri həqiqəti əks etdirməyəcəkdi[125].

Mühüm olaraq qeyd edilməlidir ki, ümmət islamda ən ali dini-mədəni institut sayılsa da, onu dövlətlə eyniləşdirmək olmaz. Düzdür, erkən islam dövründə Peyğəmbər və səhabələri həm vahid ümmət, həm də dövlət təsis etmək istiqamətində ciddi tədbirlər görmüşdülər. Yəni eyni Allaha iman və eyni din ümmətin əsasını əmələ gətirirdi. Dövlət isə ümmətin siyasi təşkilinin əsas qurumu kimi onun siyasi-ictimai maraqlarının qorunmağı üçün lazım idi. Hər bir halda, belə bir suala cavab tapmaq ciddi mühakimə tələb edir: ümmətin birliyi dövlətin birliyini zəruri edirmi? Dedik ki, ümmət hər şeydən əvvəl dini-mədəni təsisatdır, öz funksiyalarını icra etmək üçün dövlət qurumuna ehtiyacı vardır. Bu səbəbdən islam tarixinin erkən mərhələsində gənc müsəlman icması siyasi hakimiyyətin əhəmiyyətini, ümmətin formalaşması və qorunub saxlanmasındakı rolunu dərk edirdi. Peyğəmbərin qurduğu Mədinə dövlətinin birinci xəlifə Əbubəkrin (632-634) dövründə qəbilə üsyanlarını yatırıb Ərəbistanı parçalanmaqdan xilas etməsi ümmətin birliyi və davamlılığında mərkəzləşdirilmiş dövlətin əhəmiyyətini göstərmişdi. Xilafətin zəifləyib, ərazisində ayrı-ayrı dövlətlərin yaranmasından, 1258-ci ildə Bağdad Abbasilərinin süqutu ilə xəlifəlik təsisatının Osmanlıların bu təsisatı bərpa etməsinədək tarixə gömülməsindən sonra siyasi birlik ikinci plana keçmiş, fəqihlər "islamın şənini yüksəltmək, ümmətin məqamını ucaltmaq üçün siyasi-inzibati birlikdən daha çox ideoloji-fəlsəfi birlik haq-

[125] Yenə orada, səh. 43-44.

qında danışmağa başlamışdılar"[126]. Bəzi müəlliflər göstərirlər ki, vahid dövlət ümmətin formalaşma mərhələsində bir zərurət olsa da, xilafət demoqrafik və coğrafi cəhətdən genişləndikcə müsəlman fəqihləri xəlifənin mərkəzi hakimiyyətinin qorunub saxlanmasına deyil, yeni təşkilatlanma və idarəetmə formalarının tapılmasına çağırış etməli idilər[127]. Amma onların bu iddiası şübhə doğurur. Çünki bu müəlliflər Orta əsrlərin siyasi-inzibati mənzərəsinə əksər hallarda indiki dövrün siyasi-inzibati birlik meyarları əsasında yanaşırlar. Unutmaq olmaz ki, həm quldarlıq, həm də feodalizm quruluşlarında dövlətin gücü mərkəzi hakimiyyətin birliyi ilə ölçülür, çoxvahidli idarə sistemində mərkəzin avtoritetliyi əsas şərt olaraq irəli sürülürdü. Bununla yanaşı, islam xilafəti dinə əsaslanan, deməli, dini mənsubiyyəti ilə səciyyələnən sosiumun dövləti idi. Belə dövlətdə sosiumun birliyini qorumaq üçün mərkəzdənidarə sistemi ən optimal vasitə sayılırdı. Həm tarixi presedentlər, həm də xilafət ərazisindəki separatçı təmayüllərin doğurduğu mənfi hallar o dövrün müsəlman alimlərində belə bir haqlı qənaət yaratmışdı ki, ümmətin birliyi və təhlükəsizliyi üçün ən münasib vasitə xəlifəmərkəzli hakimiyyətdir.

Onu da qeyd etdik ki, ümmətin formalaşması mərhələsində vahid dövlətin mövcudluğu labüd idi. Sonralar ümummüsəlman mədəniyyətinin yaranmasında vahid dövlət – geniş coğrafiyanı və müxtəlif xalqları özündə birləşdirən islam xilafəti böyük rol

---

[126] Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 126.

[127] Məsələn, bax: Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014, səh. 124-127.

oynamışdı. Həmin dövrdə xilafət ümmətin birliyinin təcəssümü olmuş, onun gücünü əks etdirmişdir. Amma xilafət islamın dövlət modeli deyildi. Çünki idarəetmə, siyasi-inzibati qurumların forması dövrdən-dövrə, mühitdən-mühitə dəyişilən məsələdir. Bununla da, islamda bu fakt nəzərə alınmış, dövlət forması və quruluşu qəliblərə salınmamışdı. İndiki dövrdə elə bir yeni mədəni mexanizm işləyib hazırlamaq lazımdır ki, ümmətin varlığı, ideologiyası və mədəniyyəti ilə bağlı taleyüklü problemləri həll etsin. Bu mexanizmi, yaxud quruluşu işləyib hazırlayan müsəlman ideoloqlar islam ümmətinə daxil müxtəlif xalqların milli identikliyini nəzərə almalıdırlar. "Keçmişə qayıtmaqda israr edib bir gün də olsun dinin parçası olmamış formalara can atmaq – islam birliyi problemini həll etməyəcək, əksinə, daha da böyüdəcəkdir"[128].

Nəticə etibarı ilə, indiki dövrdə müsəlman dünyasını əmələ gətirən dövlətləri Orta əsrlərdə olduğu kimi vahid qurum daxilində birləşdirmək mümkün deyildir. Əməkdaşlığın müxtəlif sahələrini inkişaf etdirməklə müsəlman dövlətləri arasında əlaqələri daha da möhkəmlətmək, dövlətlərin müstəqil fəaliyyət göstərdiyi federativ birliklər yaratmaq ideyası real və cazibədar görünür. Belə idarəetmə forması müsəlman xalqların təbii tələblərini yerinə yetirəcək, identik fərqləri nəzərə alacaq, onların ayrı-ayrılıqda sosial-iqtisadi inkişafına şərait yaradacaqdır[129].

Digər mühüm məqam isə ümmət və millət məsələsidir. Quranda deyilir ki, Allah insanları xalqlara və qəbilələrə ayırmışdır[130]. Bu

---

[128]Məhəmməd Şərif Əhməd. Fiqhdə, düşüncə və siyasətdə İslama yeni baxış /Ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS – Polygraphic Production", 2011, səh. 109.
[129] Yenə orada, səh. 110-111.
[130] Quran: XLIX, 13.

səbəbdən islama görə, insanların xalqlar və ya millətlər olaraq təsnif edilməsi həm məqsədəuyğunluq, həm də təbii haldır. İslam nöqteyi-nəzərində göstərilir ki, millətlər yer üzündə Allahın məqsəd bildiyi müxtəlifliyin etnik tərəfini əmələ gətirir, tanışlığa, əməkdaşlıq və həmrəyliyə xidmət edəcək fərqlilik kimi başa düşülür; Allah insanları millətlərə ona görə ayırmayıb ki, biri digərindən üstün olsun və ya biri digərinə öz üstünlüyünü diktə etsin; əksinə, ona görə ayırıb ki, bir-birini yaxşı tanısınlar, əməkdaşlıq və dinc birgəyaşayışa can atsınlar[131]. Deməli, islam millət anlayışına etnik göstərici olaraq müsbət yanaşır, islamı qəbul etmiş millətləri də ümmətin – ən ali dini-mədəni institutun komponentləri hesab edir. İslamda etnik üstünlüyün iddia olunduğu millət anlayışı qəbul edilmir. Hər hansı bir şəxsin öz millətini sevməsi, onun tarixdəki yeri və müasir uğurları ilə fəxr etməsi təbiidir. Diqqət olunası məqam budur ki, bu və ya digər milli kimliyin fonunda digər milli kimliklər cılız, həqir göstərilməsin. İrqi təəssübkeşlik və ya ayrı-seçkilik (islam ədəbiyyatında bu, "əsəbiyyət" adlanır) Məhəmməd peyğəmbərin müsəlmanlara qadağa etdiyi məsələ olmuşdur. Dini mətnlərdən məlum olur ki, islama görə üstünlük irqə, millətə, rəngə... görə deyil, imanın dərəcəsinə – təqvaya görədir. İslam müxtəlif coğrafiyalardan, etnik birliklərdən çıxmış müsəlmanlar arasında qardaşlığı qoruyub saxlamaq üçün irqçiliyə, millətçiliyə "yox" deyir.

Əlaqədar ədəbiyyatda ümmət məfhumunun islam həmrəyliyini təmin edəcək funksiyalarından da söz açılır[132]. Buraya inteqrativ, maarifləndirici, kollektivçi və kommunikativ funksiyalar daxildir.

---

[131] Quran: XLIX, 13.
[132] Ətraflı məlumat üçün bax: Умма и её роль в жизни мусульман // https://islam.global/obshchestvo/istoriya/umma-i-eye-rol-v-zhizni-musulman/

Adlarından göründüyü kimi, bu funksiyalar məzmun etibarı ilə birləşdirici olub, əməkdaşlıq və həmrəyliyə zəmin yaradır.

Daha bir mühüm məsələ ümmət anlayışının təxəyyülün məhsulu, yoxsa real həqiqət olmağı ətrafında gedən mübahisələrlə əlaqəlidir. Qeyd edilməlidir ki, bu cür mübahisələr XX əsrin əvvəllərindən başlanmışdır. Xüsusən də, Türkiyədə 1924-cü ildə xilafət təsisatının ləğv edilməsindən sonra sual yaranırdı ki, parçalanmış ərəb xalqlarını hansı qurum daxilində birləşdirmək mümkündür. Bu mübahisələrlə əlaqədar olaraq, müsəlman müəlliflər şikayətlənirlər ki, Qərb siyasi fikrinin təsirində qalanlar ümmət anlayışını həqiqi məzmunundan uzaqlaşdıran, onu əmələ gətirən komponentləri subyektiv şəkildə izah edən, bu anlayışa yeni tərif verən nöqteyi-nəzərdən çıxış edirlər. Bu nöqteyi-nəzər ümmət anlayışına antipod olaraq millətçilik ideologiyasını təqdim edir[133]. Bununla yanaşı, ümməti əmələ gətirən əsas ideoloji baza olaraq dil göstərilir, din anlayışı sərf-nəzər edilir[134], millətçiliyə əsaslanan “ərəb ümməti” məfhumu dinin əsasında təşkil olunan “müsəlman ümməti” məfhumuna qarşı qoyulur. Birlik və həmrəyliklə əlaqəli proseslərin ümumi təsviri budur ki, Birinci Dünya müharibəsindən sonra ərəb-müsəlman dünyasında inkişafa, intibaha rəvac verib siyasi-mədəni tənəzzüldən xilas olmaq üçün bir sıra ideologiyalar işlənib hazırlanmış, bu və ya digər ölkədə tətbiq edilmiş, müəyyən dövrdə, xüsusən ərəb dövlətlərini birləşdirəcək ideoloji platforma olaraq seçilmişdi. Millətçilik, ərəbçilik, misirçilik, kosmopolitizm, şərqçilik, nasirçilik və sair ideologiyalar ərəb dövlətlərinin yeni inzibati

---

[133] Bax: حسان عبدالله. مفهوم الأمة في الفكر الإسلامي الحديث بين التنظير والحركة https://mugtama.com/ntellectual/item/48050-2017-01-02-12-30-01.html

[134] Bax: السيد عمر. حول مفهوم الأمة في قرن: نقد تراكمي مقارن //الأمة في فرن: لماهية والمكانة والإمكانية، القاهرة: دار الشروق الدولية، 2002، ص 62

qurumda birləşdirilməsi cəhdləri və təşəbbüslərində platforma rolunu oynamışdı[135].

Müsəlman dünyasında həmrəylik və birliyi təmin edəcək baza olaraq ümmət konsepsiyasının zəruriliyini qeyd edən müəlliflərə görə, yuxarıda adlarını çəkdiyimiz ideologiyalar müsəlman dünyasının tarixi, siyasi təcrübəsi, mədəni-ictimai və dini dünyagörüşü ilə üst-üstə düşmədiyindən tarixən özünü doğrulda bilməyib. Ümmət dünyagörüşünü süni və inzibati-amirlik üsulları ilə böyük bir coğrafiyanın siyasi-ictimai, dini-mədəni həyatından silib atmaq cəhdləri nəinki "səmərəli" olmuş, hətta problemləri və böhranlı vəziyyəti daha da gərginləşdirmişdir. Həmin müəlliflər öz müddəalarını belə əsaslandırırlar ki, islam ümməti anlayışını hər şeydən əvvəl dini mətnlər – Quran və hədislər, çoxəsrlik tarixi təcrübə təsdiqləyir. Müsəlman ölkələrinin eyni coğrafiyada yerləşməsi amili də ümmət adlanan ali mədəni-dini təsisatın tarixən reallaşmasına şərait yaratmışdır[136].

İraqlı müsəlman maarifçisi, ilahiyyatçı-mütəfəkkir Taha Cabir əl-Ülvani (1935-2016) bu qənaətdə idi ki, istək və aktivlik əsasında ümməti anlayış və təcrübə olaraq yenidən təsis etmədikcə ərəblər və müsəlmanlar daxildə və xaricdə problemləri həll edə bilməyəcəklər[137].

**İslam qardaşlığı.** İndiki dövrdə müsəlman ölkələri arasında möhkəm əlaqələri təsis edəcək mühüm prinsiplərdən biri də islam

---

[135] Bax: حسان عبدالله. مفهوم الأمة في الفكر الإسلامي الحديث بين التنظير والحركة
https://mugtama.com/ntellectual/item/48050-2017-01-02-12-30-01.html

[136] Bax: Yusuf el-Karadavi. İslam ümmeti hayalmı, gerçekmi? İstanbul, 2008, səh. 17-21.

[137] طه جابر العلواني (مقدمة) في : منى أبو الفضل: الأمة القطب نحو تأصيل منهاجي لمفهوم الأمة في الإسلام، القاهرة: مكتبة الشروق الدولية، 2005، ص14 .

qardaşlığı prinsipidir. Tarixi təcrübə göstərir ki, dini-mədəni və siyasi parçalanma islam qardaşlığı prinsipinin unudulmasının fonunda baş vermişdir. Halbuki qardaşlıq müsəlmanların qarşılıqlı münasibətlərini təmin edəcək, onların müxtəlif dini-siyasi qruplara aidliyini problemə çevirməyəcək aktiv prinsip hesab edilir.

Tədqiqatçı Ədnan Rza Nəhvi müsəlman həmrəyliyi problemini tədqiq edərkən qardaşlıq prinsipinə məsuliyyət, ülfət, fikir və hiss nöqteyi-nəzərindən toxunmuşdur. O, Allah naminə qardaşlığı müsəlmanların birliyində əhəmiyyətli məsələ hesab etmiş, bu həmrəylikdə, müsəlmanların ortaq məxrəcə gəlməsində metod və davranış tərzi olaraq qardaşlığın qəbuluna çağırmışdır[138].

Qardaşlıq universal anlayışın – islam həmrəyliyi və birliyinin təşviqedici elementini əmələ gətirir. Bəzi müsəlman müəlliflər qardaşlığı kollektiv vərəsəlik adlandırırlar. Onlara görə, Allah insanı yer üzünün varisi olmaq üçün yaratmış, ona ədaləti yaymaq, mənəvi abadlaşdırma işini icra etmək vəzifəsi tapşırmışdır. İnsanlar qardaşlıq prinsipindən çıxış etsələr, onlara tapşırılan vəzifənin öhdəsindən gələ biləcəklər[139].

Qardaşlıq prinsipi müsəlman cəmiyyətində fəallıq və müsbətlik kəsb etdirmədə, bərabərlik, həmrəylik və əməkdaşlığı formalaşdırmada mühüm amil hesab olunur. Bu ideyanı müdafiə edən nöqteyi-nəzər onunla əsaslandırılır ki, islam insanların münasibətlərini Allah sevgisi əsasında tənzimləyir, onlar arasında irq, dil, rəng,

---

[138] عدنان رضا النحوي. قاعدة الأخوة في الحوار الإسلامي - الاسلامي // مجلة الكلمة، 1996، ص 102-103.

[139] Əbdülhəmid əbu Süleyman. İslam iqtisadiyyatı nəzəriyyəsi (tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2017, səh. 24.

sosial status və sair baxımdan fərq qoymur, iman birliyini qohumluq və digər birlik formalarından üstün tutur.

İslamın ana mənbələri və Peyğəmbər təcrübəsi qardaşlıq prinsipinin nəzəri və praktik baxımdan əsaslandırılmasında arqument bazası seçilir. Ayə və hədislərdən məlum olur ki, möminlər qardaşdırlar[140]; müsəlmanlar digər müsəlmanlar arasında baş verən anlaşılmazlıq, mübahisə və münaqişələri aradan qaldırmalıdırlar[141]; müsəlmanlar bir-birini lağa qoymamalı, xoşagəlməz adlarla çağırmamalıdırlar;[142] bir-birinin ayıblarını axtarmamalı, qeybətini etməməlidirlər[143] və s.

İslam təlimlərində qardaşlıq sevgi, rəğbət və mərhəmətin yaratdığı bədənə oxşadılır və göstərilir ki, "bu bədənin bir əzası xəstələnib şikayət edərsə, digər əzalar da qızdırma və yuxusuzluğa düçar olar"; müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməməli, ehtiyacını ödəməli, kədərinə ortaq olmalıdır. Hədis mənbələrində müsəlmanların həmrəyliyi bədii formada "kərpicləri bir-birini bərkidən bina" sözü ilə ifadə edilmişdir.

Xülasə, Quranda "Möminlər ancaq qardaşdırlar" şüarı altında hökm təsis edilmiş və bu hökmün zəruri etdiyi əxlaqi-humanist vəzifələr müəyyənləşdirilmişdir. Hədislərdə də müsəlmanların qardaşlığı mövzusuna əhəmiyyət verilmiş, bu qardaşlığa dair hüquq və vəzifələr, dəyər və qaydalar təfsilatı ilə işlənib hazırlanmışdır.

Qardaşlıq prinsipinin Quran və hədislərdəki arqumentliliyinə, Peyğəmbərin dövründə Mədinə əhalisi ilə Məkkədən gələnlər arasında təsis edilmiş qardaşlığın səmərəliliyində ifadə olunmuş

---

[140] Quran: XLIX, 10.
[141] Quran: XLIX, 10.
[142] Quran: XLIX, 11.
[143] Quran: XLIX, 12.

tarixi təcrübəyə bələd olmayan subyektiv nöqteyi-nəzər islam həmrəyliyində qardaşlıq prinsipinin əhəmiyyətini dərk etmir, bu həmrəylikdə siyasi maraqların ideoloji baza olmağına diqqət çəkməyə cəhd göstərir[144]. Belə nöqteyi-nəzərin müdafiəçiləri birlik və həmrəylikdə mənəvi dəyərlərin rolunu görə bilmədikləri üçün erkən dövr müsəlman icmasının bütövlüyünü maddi və siyasi maraqlar əsasında izah edirlər. Onlar unudurlar ki, həmin dövrdə müsəlman icmasının varlığının mühafizə edilməsində qardaşlıq prinsipi əsas rol oynamış, təşviqedici mexanizm olaraq iman institutu seçilmişdi. Bununla yanaşı, qardaşlıq prinsipi özündə ali dəyərləri birləşdirib, mənəvi birliyi maddi maraqlardan üstün tutduğu üçün həmrəylik və vəhdəti təmin edəcək imkanlara sahibdir. Həmçinin bu prinsip tarixən özünü təsdiqləmişdir. Belə ki 622-ci ildə Mədinəyə gələn Peyğəmbər iman təsisatına əsaslanan mənəvi birliyin ilk təcrübəsi kimi iki fərqli cəmiyyətin nümayəndələrini din qardaşlığı çərçivəsində birləşdirə bilmişdi. Ümumiyyətlə, Peyğəmbər qəbilə təəssübkeşliyinin nəticəsi olaraq qan qohumluğuna əhəmiyyət verən bir cəmiyyətdə irqi mənsubiyyət və bundan irəli gələn istənilən münasibət formasından imtina etmək, əvəzində din və iman birliyinə söykənən yeni sosium yaratmağı qarşısına məqsəd qoymuşdu.

Vahid sosium təsis etmədə Peyğəmbər təcrübəsinin ümumi məzmunu budur ki, qəbilə (milli-irqi) təəssübkeşliyinin səbəb olduğu parçalanma və münaqişə təmayülləri prinsipləri Quranda göstərilmiş iman birliyini ifadə edən qardaşlıq institutu sayəsində zəifləmiş, həmrəylik və əməkdaşlıq Mədinə cəmiyyətində əməli təsdiqini tapmışdı.

---

[144] Р.М. Шарипова. Панисламизм сегодня. Москва, 1986, səh. 51.

Nəticə etibarı ilə, islam həmrəyliyi XX əsrin 70-ci illərindən başlayaraq müsəlman dünyasında qeyri-dini ideologiyaların – millətçilik və sosializmin, xüsusən ərəbləri birləşdirmədə iflasa uğramasından sonra aktuallıq kəsb etmişdir. Ərəb-müsəlman dünyasının problemlərinin, xüsusən Fələstin münaqişəsinin həllində birgə fəaliyyətin zəruriliyini başa düşən hökumət dairələri yeni əsasa söykənən birlik və həmrəylik forması haqqında düşünmüş, ideoloji bazasını islamın əmələ gətirdiyi həmrəylik modelini işləyib hazırlamışdılar. Yeni modelin əsas platformasını tarixən geniş coğrafiyada – Müsəlman coğrafiyasında ərəb-müsəlman xalqlarının vahid mədəni-dini, siyasi-iqtisadi və sosial bütövlüyünü təmin etmiş islam əmələ gətirirdi. Tarixi təcrübənin diktəsi və qeyri-islam ideyalarının vəhdəti təmin etmədə qənaətbəxş olmamağı islamın ərəb-müsəlman ölkələrinin növbəti mərhələdəki həmrəyliyində əsas rol oynamağına səbəb oldu.

İslam nöqteyi-nəzəri, ümmət və qardaşlıq konsepsiyalarına söykənən islam həmrəyliyi təkcə vərəq üzərində qalmamış, müxtəlif illərdə yaradılmış ayrı-ayrı qurumlarda öz əməli təsdiqini tapmışdı.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində:***

**1.** Esmeralda Həsənova. Azərbaycan respublikasında islam həmrəyliyinin ideoloji-siyasi əsasları / Azərbaycan şərqşünaslığı, №1 (15), Bakı, 2017, səh. 25-26.

2. Əbdülhəmid Əbu Süleyman. İslam iqtisadiyyatı nəzəriyyəsi (tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2017.

**3.** Əbdülhəmid Əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri / ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı, 2014.

**4.** Məhəmməd Şərif Əhməd. Fiqhdə, düşüncə və siyasətdə İslama yeni baxış /Ərəb dilindən tərcümə edən: Elvüsal Məmmədov. Bakı: "CBS – Polygraphic Production", 2011.

**5.** R. Əliyev, A. Məmmədov. İslam və ərəb ölkələrində milli-azadlıq hərəkatı. Bakı, 1986.

**6.** Ş.A. Paşazadə. İslamda ümmət və şüubilik. Bakı: "Bilik", 1992.

***Türk dilində:***

**7.** Hilal Görgün. Sosyalizm // İslam Ansiklopedisi: 44 cilddə, XXXVII cild, İstanbul, 2009.

**8.** Kahraman Arslan. İslam ülkeleri arasında işbirliğine giden yolda yeni arayışlar // Uluslararası Yönetim İktisat ve İşletme dergisi, X cild, № 21, 2014.

**9.** Muhittin Ataman, Ayşe Nur Gökçen. Sembolizm və Aktivizm arasında İslam İşbirliği Teşkilatı // SETA Siyaset, Ekonomi ve Toplum Araştırmaları Vakfı, № 76, 2014.

**10.** Yusuf el-Karadavi. İslam ümmeti hayalmı, gerçekmi? İstanbul, 2008.
**11.** Zekeriyya Kurşun. Panarabizm // İslam Ansiklopedisi: 44 cilddə, XXXIV cild, İstanbul, 2007.

***Ərəb dilində:***

**12.** أحمد كمال أبو المجد. الاسلام و العروبة معا // مجلة العربي، العدد رقم 263
**13.** أبو الحسن علي الماوردي. أدب الدنيا و الدين / التحقيق: مصطفى الصقا. القاهرة، 1955
**14.** ابن تيمية. مجموع الفتاوى/ التحقيق: عبدالرحمان الاسيمي. الرياض، 1963، مج 7.
**15.** ابن تيمية. الحسبة/ التحقيق: عبدالعزيز رباح. دمسق، 1967
**16.** عبد الرحمن بن خلدون. مقدمة ابن خلدون // تحقيق: حامد أحمد الطاهر. القاهرة: دار الفجر للتراث، 2004
**17.** الراغب الاسفهاني. معجم مفردات ألفاظ القرآن. بيروت: دار الفكر، 2006
**18.** إسماعيل راجي الفاروقي. التوحيد – جوهر الحضارة الإسلامية. عمان، 2015
**19.** السيد عمر. حول مفهوم الأمة في قرن: نقد تراكمي مقارن //الأمة في فرن: لماهية والمكانة والإمكانية، القاهرة: دار الشروق الدولية، 2002
**20.** بيار أبي صعب. نزار قبّاني : شاعر الغواية واللهو والغضب السياسي. "الأخبار"، 29 أبريل، 2008، العدد 512.
**21.** : حسان مفهوم الأمة في الفكر الإسلامي الحديث بين التنظير والحركة عبدالله. https://mugtama.com/ntellectual/item/48050-2017-01-02-12-30-01.html
**22.** سيد قطب. السلام العالمي و الاسلام. القاهرة، 2006.
**23.** طه جابر العلواني (مقدمة) في : منى أبو الفضل: الأمة القطب نحو تأصيل منهاجي لمفهوم الأمة في الإسلام، القاهرة: مكتبة الشروق الدولية، 2005
**24.** عدنان رضا النحوي. قاعدة الأخوة في الحوار الإسلامي - الاسلامي // مجلة الكلمة، 1996
**25.** فهمي هويدي. حتى لا تكون فتنة. القاهرة: "دار الشروق"، 1989

**26.** محمد أبو زهرة. العلاقات الدولية في الاسلام. القاهرة: دار الفكر العربي، 1995
**27.** يعقوب الفيروز آبادي. القاموس المحيط. بيروت: دار المعرفة، 2008
**28.** يوسف القرضاوي. الحلول المستوردة: وكيف جنت أمتنا؟ بيروت: مؤسسة الرسالة، 1989
**29.** القرضاوي. مستقبل الاصولية الاسلامية، بيروت: مؤسسة الرسالة، 2000
**30.** يوسف القرضاوي. الحل الإسلامي فريضة و ضرورة. بيروت: "مؤسسة الرسالة، 1974

***Rus dilində:***

**31.** П.А. Грязневич. Развитие исторического сознания арабов (VI-VIII вв.) // Очерки истории арабской культуры V-XV вв. Москва: "Наука", 1982.
**32.** Р.М. Шарипова. Панисламизм сегодня. Москва, 1986.
**33.** Умма и её роль в жизни мусульман // https://islam.global/obshchestvo/istoriya/umma-i-eye-rol-v-zhizni-musulman/

***İngilis dilində:***

**34.** Chapra M. Umar. Muslim Civilization: The Causes of Decline and Need for Reform. Leicester, UK: The Islamic Foundation, 2008, səh. 27-28.

***İnternet resursları:***

**35.** https://www.oic-oci.org/page/?p_id=56&p_ref=26&lan=ar
**36.**http://www.isdb.org/irj/go/km/docs/documents/IDBDevelopments/Internet/Arabic/IDB/CM/About_IDB/Articles_of_Agreement/Articles_of_Agreement.pdf

**37.**http://www.isdb.org/irj/portal/anonymous?NavigationTarget=navurl://1c4500b822129ccaafbe83495340f60f&LightDTNKnobID=-794569431

**38.** http://www.themwl.org/solidarity/node/50

**39**.http://library.islamweb.net/newlibrary/display_book.php?idfrom=229&idto=229&bk_no=122&ID=230

**İlkin Əlimuradov**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir*
*tarixi şöbəsinin aparıcı elmi işçisi*

# III FƏSİL
# İSLAM HƏMRƏYLİYİ VƏ MÜASİR AZƏRBAYCAN

Dini, eləcə də elmi mənbələr bəşəriyyətin dinsiz dövr yaşamadığını deməyə əsas verir. Tarix kitablarımızın verdiyi məlumatlara əsasən, insanlar kainatda baş verən fövqəladə halların ilahi qüvvə və ya qüvvələr tərəfindən idarə edildiyinə inanmışlar. İdrak və elm inkişaf etdikcə insanlar kainatda baş verən bütün hadisələri elmi əsaslara istinad edərək izah etməyə çalışmış, nəticədə, dini dünyagörüşü ilə yanaşı, elmi-fəlsəfi dünyagörüşü də inkişaf etmişdir. Beləliklə, din və elm bəşər tarixində böyük əhəmiyyətə malik güclü amillərdir.

Qədim tarixə malik Azərbaycan ərazisində yaşayan əhali müxtəlif dövrlərdə fərqli dinlərə etiqad bəsləmişdir. İslam dininin təşəkkül tapdığı VII əsrdən bu günə qədər isə xalqımız müsəlman xalqların cərgəsində durur.

Bu bir həqiqətdir ki, dünyada yaşanan böhranlara, qarşıdurma və münaqişələrə baxmayaraq, dünyamızı məhvərindən çıxmağa qoymayan əbədi dəyərlər mövcuddur. Bunların sırasında müxtəlif millət və etiqad sahiblərinin dinc birgəyaşayışı, qarşılıqlı anlaşma mədəniyyəti mühüm yer tutur. Səmavi dinlərin hər biri insanlara hidayət yolunu göstərmək üçün Allah tərəfindən göndərilmişdir.

İslamın təlqin etdiyi birlik, ədalət, əxlaqi təkamül ideyaları həm müsəlman ümməti, həm bütün qeyri-müsəlmanlar üçün mühüm dəyər kəsb edir.

"Azərbaycan tarixin erkən dövrlərindən islamın yayılmasında böyük rol oynamış, islam Azərbaycandan Qafqaza, oradan Avropa və Asiya istiqamətində yayılmışdır. Əsrlər boyunca islam sivilizasiyasının ayrılmaz hissəsi kimi Müsəlman intibahında mühüm rol oynamış Azərbaycan bu gün də islam dünyasının önündə gedən dövlətlərdən biridir və ümumbəşəri önəm kəsb edən ideyaların bütün dünya ictimaiyyətinə ünvanladığı ənənəvi məkan statusunu qorumaqdadır."[145]

Son vaxtlar beynəlxalq aləmdə baş verən hadisələr açıq-aydın göstərir ki, bu gün ixtilaf və münaqişələri hərbi yolla həll etmək mümkün deyil. Siyasi yollar, sülh və danışıq, qarşılıqlı anlaşma yolları araşdırılıb aşkar edilməlidir.

İslam din və dünyagörüşü sistemi kimi insanlara, cəmiyyətə, dünyaya münasibət kimi, davranış və təfəkkür tərzi kimi elə bir sivilizasiya yarada bilmişdir ki, mədəni inkişaf səviyyələrinin, dillərinin, talelərinin, mentalitetlərinin müxtəlifliyinə baxmayaraq, fərqli coğrafi mövqelərdə yaşayan insanları birləşdirmiş, aralarında bir dinə mənsubluq əsasında həmrəylik yarada bilmişdir. İslamın orbitinə cəm edilmiş xalqların mədəniyyətlərinin sintezi nəticəsində vahid, bütün müsəlman xalqları üçün ümumi islam sivilizasiyası təşəkkül tapmışdır. Azərbaycan xalqı islam aləminin ayrılmaz hissəsi olaraq islam sivilizasiyasının yaradıcılarından biri olub, bu sivilizasiyanın inkişafına və təkamülünə əvəzsiz incilər bəxş edib.

---

[145] Allahşükür Paşazadə, Şeyxülislam, Qafqaz Müsəlmanları İdarəsinin sədri, "İslam Həmrəyliyi-Zamanın çağırışı", Beynəlxalq Konfrans, Bakı şəhəri, 15 mart, 2017-ci il.

VII əsrin birinci yarısında Mərkəzi Ərəbistanda meydana gələn islam tezliklə böyük bir ərazidə, o cümlədən Azərbaycanda da yayıldı. Tarixçilər bu prosesin başlanğıcını 642-ci ilə aid edirlər. O vaxt islam Dərbəndə qədər gedib çıxa bilmişdi. Vətənimizin çoxəsrlik tarixi, ictimai fikri, mədəniyyəti, ədəbiyyatı məhz Yaxın və Orta Şərq ölkələrində gedən proseslərlə üzvi sintezdə inkişaf edərək təşəkkül tapmışdır. Böyük alim və mütəfəkkirlərimiz öz qiymətli əsərləri ilə daim Şərq xalqlarının elm və mədəniyyətini zənginləşdirmiş, həmin xəzinəyə qiymətli töhfələr vermişlər.[146]

Qurani-Kərimin ilk müxatəbi ərəblər, ilahi kəlamın dili ərəb dili olsa da, ərəb xalqının digər xalqlarla müqayisədə etnik cəhətdən xüsusi imtiyaz sahibi olmaması Allahın özü, eləcə də Peyğəmbəri tərəfindən xüsusilə qeyd edilmişdir:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ ۚ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır.[147]

Bu məna Peyğəmbərin:

لا فضل لعربي على أعجمي إلا بالتقوى[148]

---

[146] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

[147] Qurani-Kərim, əl-Hucurat, 13.

[148] محمد راتب النابلسي، كتاب ومضات في الإسلام – الباب الرابع - الفقرة (2-4) : خطبة حجة الوداع

"Təqvadan (pis əməllərdən daha çox çəkinmək) başqa ərəbin qeyri-ərəbdən heç bir üstünlüyü yoxdur" məzmunlu hədisində də ifadə edilir.

İslam dini ilə bağlı elmi fəaliyyətlərdə ərəblərlə yanaşı, əslən ərəb olmayan müsəlmanların da fəallığı danılmaz faktdır. Bu fəallıq dinin bütün sahələrində aydın şəkildə müşahidə olunur. Bununla əlaqədar olaraq deyə bilərik ki, islam dini Ərəbistan yarımadasının hüdudlarından çıxaraq çoxsaylı millətlərin ümumi dininə çevrilmiş və müxtəlif müsəlman xalqları, o cümlədən də azərbaycanlılar ərəbdilli ədəbiyyatın həm din, həm də başqa sahələrində fəal iştirak etmişlər. Bununla əlaqədar olaraq "Kəbair" – böyük günahlara ilk müstəqil kitab həsr etmiş, "nadir adlar" mövzusunda ilk əsərin müəllifi olmuş orta əsr, eləcə də müasir dövrdə Şərq aləminin yaxşı tanıdığı və elmi tədqiqatlarda istinad edilən IX-X əsrlərin azərbaycanlı din alimi Əhməd Harun oğlu əl-Bərdicinin adını xüsusilə çəkmək olar. O, altı əsərin müəllifi, hədisşünas alim, öz dəst-xətti, elmi üslubu və metodu ilə hədis tarixinin "Qızıl dövrü" adlandırılan hicri III (miladi IX) əsrə yenilik gətirməyə nail olmuş azərbaycanlı din alimlərindən biridir.[149]

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan islam mədəniyyətinə aid zəngin maddi və mədəni irsə malik müsəlman ölkəsidir. O, tarixən olduğu kimi, bu gün də islama öz töhfəsini verir və bu ali dinin sülhsevər missiyasını yaşadır.

---

[149] البرديجي، الحافظ أبو بكر أحمد بن هارون البرديجي (المتوفى 914/301), كتاب الكبائر, تحقيق: د. محمد بن تركي التركي، ص. 24؛ السمعاني، أبو سعيد عبد الكريم بن محمد السمعاني(المتوفى 562 هـ), الأنساب, تعليق عبدالله البارودي، الطبعة الأولى، بيروت: دار الكتب العلمية، 1408 – 1988م، مج1، ص. 314؛ ياقوت الحموي، شهاب الدين أبو عبد الله ياقوت بن عبد الله الحموي (المتوفى 626 هـ)، معجم البلدان، تحقيق فريد الجندي، الطبعة الأولى ، بيروت: دار الكتب العلمية، 1410هـ، مج 1؛ ص.449

Buna görə də təsadüfi deyildir ki, XX əsrin əvvəllərində müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının təsdiq etdiyi və təxminən 70 illik əsarətdən sonra müstəqilliyini bərpa etmiş müasir Azərbaycanın rəsmi simvollarından biri olan üçrəngli dövlət bayrağında göy rəng türkçülüyü, qırmızı rəng müasir azadlıq ideologiyasını, yaşıl rəng isə məhz islamçılığı tərənnüm edir.[150] Azərbaycan şairi Cəfər Cabbarlının təbiri ilə desək:

Bu göy boya, Göy Moğoldan qalmış bir türk nişanı,
– Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
– Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
– Mədəniyyət bulmalı![151]

XX əsrin sonlarında qan bahasına bərpa edilən müstəqilliyin ilk illəri çətin müharibə şəraitində keçdi. Azərbaycan ərazisi sürətlə işğal olunur, şəhidlərin sayı getdikcə artır, sağ qalan xalq isə qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olurdu.

XX əsrin sonlarına doğru dünyada cərəyan edən qlobal proseslərin və milli azadlıq hərəkatının nəticəsi kimi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycan 1991-ci il 18 oktyabr tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nda demokratik, hüquqi və dünyəvi dövlət olduğunu bəyan etsə də, qarşıya qoyduğu strateji hədəflərə doğru irəliləmək imkanı qazanmamışdı. Azərbaycanda hüquqi dövlət quruculuğu, insan

---

[150] İqrar Əliyev, Elmar Məhərrəmov, "Azərbaycan Respublikasının Dövlət Rəmzləri", Bakı, Nurlan, 2008, s. 14.

[151] Cəfər Cabbarlı əsərləri, Müasir Azərbaycan Ədəbiyyatı, I cild, "Şərq-Qərb", Bakı, 2005, s.63; Bax: Sona Vəliyeva, Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası, "Azərbaycan" nəşriyyatı, 2003, s. 78.

hüquq və azadlıqlarının təminatı sahəsində ciddi problemlər hökm sürürdü. Demokratiya və azad bazar iqtisadiyyatı prinsiplərini gələcək inkişaf modeli kimi seçmiş respublikamızda hakimiyyətin və bütün təbii sərvətlərin xalqa mənsubluğu, mülkiyyətin bütün formalarının bərabərliyi, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatı, habelə insan və vətəndaş hüquq və azadlıqlarının ümumi prinsipləri elan edilsə də, 1991-1993-cü illərdə rəhbərlikdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması zəminində baş qaldırmış xaotik və ziddiyyətli proseslər – qanunçuluğun, hüquq qaydalarının zəifləməsi, ictimai-siyasi sabitliyin təminatında ciddi problemlərin yaranması, vətəndaşların təhlükəsizliyi üçün real təhdidlərin meydana çıxması, sosial-iqtisadi tənəzzülün dərinləşməsi bu istəyin reallaşmasında ciddi maneəyə çevrilmişdi. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin genişlənməsi, digər tərəfdən isə hakimiyyətdə olan diletant qüvvələrə qarşı ictimai inamsızlığın dərinləşməsi, sosial-iqtisadi tənəzzül, vətəndaş qarşıdurması, xaos və özbaşınalıq, habelə yeni dövrün tələblərinə cavab verən qanunların yoxluğu xalqın demokratik və hüquqi dövlətdə yaşamaq istəyini əlçatmaz ideyaya çevirmişdi.[152]

1993-cü ildə dünyada tanınmış siyasətçi Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan yeni və müasir inkişaf mərhələsinə qədəm qoydu. Nəticədə, xalqın böyük oğlu Heydər Əliyev müasir Azərbaycanın banisi və ümummilli lider kimi yaddaşlarımıza həkk olundu. Heydər Əliyev Respublikanın maddi imkanlarından, o cümlədən mənəvi dəyərlərindən ölkənin mənafeyi üçün məharətlə istifadə edir, Azərbaycanın nüfuzunun artması, onun

---

[152] Abel Məhərrəmov, akademik, "Azərbaycanın simvolu", Azərbaycan.- 2017.- 15 iyun-№128.-S.7; Bax: Adil Abdulla əl-Fəlah, Heydər Əliyev və milli-mənəvi dəyərlər, Bakı, Qismət, 2007, s. 26.

beynəlxalq səviyyədə daha yaxşı tanınması üçün səylə çalışırdı. Heydər Əliyevin həyata keçirdiyi səmərəli və uzaqgörən siyasət nəticəsində Azərbaycan enerji ehtiyatlarının ticarəti sahəsində dünyanın qabaqcıl şirkətləri ilə əməkdaşlıq etməyə başlayır. Bununla da, Odlar diyarı Azərbaycanın enerji məhsulları dünya bazarına çıxarılır və ölkə yüksək məbləğdə gəlir əldə edir.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə mükəmməl inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrəti bərpa edilmiş, bütün sahələrdə olduğu kimi, neft emalı sənayesində də dərin keyfiyyət dəyişiklikləri baş vermiş, neft-qaz sənayesinin bazası genişləndirilmiş və müasirləşdirilmişdi.[153]

Artıq ölkə iqtisadiyyatı neftdən asılı deyil, qeyri-neft sektoru da sürətlə inkişaf edir.

Tarixi təcrübə göstərir ki, hər bir xalq, hər bir dövlət dünya coğrafiyasında müəyyən areala sahib olmaqla öz milli-mənəvi dəyərləri, adət-ənənələri, elmi ilə bəşəri əxlaqın formalaşmasında bu və yaxud digər səviyyədə iştirak edir. Dünya sivilizasiyasının bir parçası olan Azərbaycan xalqını da əksər xalqlardan fərqləndirən, spesifik edən cəhət digər mədəniyyətlərə hörmətlə yanaşmaq, sülhpərvər, tolerant, həmrəy olmaq düşüncəsini mənimsəməklə yanaşı, sülhün və rifahın təmin olunması naminə bu ideyaların təbliğini bəşəriyyət qarşısında borc və məsuliyyət missiyası kimi qəbul etməsidir. Belə bir təfəkkürə, dünyagörüşünə və əxlaqa sahib olmağımız, şübhəsiz ki, yaşadığımız ərazinin Şərqlə Qərb arasında mədəni, həm də coğrafi baxımdan körpü rolu oynamasından, eləcə də

---

[153] İki sahil, "Azərbaycan neft sənayesinin tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır", 2017.- 8 noyabr.- № 204.- s. 22-25.

dədə-babalarımızdan miras qalan milli, dini dəyərlərimizin aliliyindən irəli gəlir.[154]

Hal-hazırda müasir dövrünü yaşayan Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra milli, dini ənənələrinə diqqət və qayğını artırdı. Şübhəsiz, bu, dövlətin həm daxili, həm də xarici siyasətində aydın şəkildə müşahidə olunmaqda davam edir. Dünyəvi respublika statusuna malik ölkəmizin təbii olaraq dinindən, irqindən asılı olmayaraq həm dünyanın inkişaf etmiş dövlətləri, beynəlxalq təşkilatları ilə əlaqələrini gündən-günə inkişaf etdirməsi, həm də islam mədəniyyətini milli mədəniyyətin bir hissəsi kimi qoruyub saxlayan müsəlman ölkəsi kimi digər müsəlman ölkələri, o cümlədən nüfuzlu islam təşkilatları ilə əməkdaşlığa maraq göstərməsi yuxarıda qeyd etdiyimiz fikirləri təsdiq edir. Bu siyasət Azərbaycan dövlətçiliyini müntəzəm şəkildə möhkəmləndirib inkişaf etdirməyə və milli mənafeləri qorumağa yönəldilmişdir. Azərbaycan öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur.

Qloballaşma şəraitində həyata keçirilən irimiqyaslı enerji, nəqliyyat və informasiya dəhlizlərinin yaradılması, xarici investorların Azərbaycana uzunmüddətli sərmayə qoyması da ölkədəki daxili sabitlik və onu reallaşdıran milli və dini tolerantlıq siyasəti sayəsində mümkün olub. Artıq çağdaş Azərbaycan multikulturalizm məkanı kimi mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan və inkişaf etdirən unikal ölkəyə çevrilib. Burada hər bir xalq və etnikin mədəni, dini müxtəlifliyi vahid harmoniyaya – ümummilli

---

[154] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

vətəndaş həmrəyliyinə xidmət edir. Əksər ölkələr üçün örnək olan bu model artıq müxtəlif inanc və mədəniyyətlərə sahib Azərbaycan vətəndaşlarının həyat tərzinə çevrilib. Məlum olduğu kimi, ölkəmizdəki mövcud multikulturalizmi qiymətləndirən Moskva və bütün Rusiyanın patriarxı II Aleksi hələ 2001-ci ildə Bakıda Heydər Əliyevə müqəddəs Moskva Knyazı Daniel ordenini təqdim edərkən demişdi: "Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir". Roma Papası mərhum II İohann Pavelin xristianlığın katolik məzhəbinə etiqad edən ölkələrin israrlı dəvətlərinə rəğmən, məhz əhalisinin cəmi 0,5 faizini katoliklərin təşkil etdiyi Azərbaycana səfər etməsi isə azsaylı millət və onların etiqad etdiyi dinlərə də sayğının, xoş münasibətin dönməzliyindən xəbər verir. Burada qeyd olunası vacib məqamlardan biri də Azərbaycanın mədəni irsini Vatikanda nümayiş etdirən ilk islam ölkəsi olmasıdır. Azərbaycandakı nümunəvi dini tolerantlığa heyranlığını gizlətməyən İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman isə Bakının İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar deyib: "İSESCO bütün dünyaya çatdırmalıdır ki, siz necə də qədim və zəngin mədəniyyətə sahibsiniz. Ölkənizlə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır".

Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, bu gün respublikamızda məscidlərlə bərabər, kilsələr də, sinaqoqlar da fəaliyyət göstərir. Elə buna görə də bu gün hər kəsin bölüşdüyü bir fikir var ki, "dövlət və din münasibətləri sahəsində Azərbaycan modeli başqa ölkələrə də ixrac edilə bilər. Dini tolerantlıq və dözümlülük Azərbaycanın malik olduğu zənginliklərdir".

Ulu öndər Heydər Əliyev başda olmaqla, respublika hökuməti dinlərarası dialoq təşəbbüsünü nəzərə çatdıraraq, 2002-ci il mayın

23-də Roma Papası II İohann Pavelin ölkəmizə səfərini təşkil etmişdi. Papanın səfəri böyük əks-səda doğurmuşdu.

Azərbaycanlıların yüksək dini dözümlülüyü haqqında daha bir nümunə, Roma Patriarxı I Varfolomey də 2003-cü ildə ölkəmizə səfər edərkən deyib: "Burada dini dözümlülüyün səviyyəsindən məmnun qaldım. Azərbaycanda hər kəs öz arzusuna görə dininə etiqad edə və ayinlərini keçirə bilər".[155]

Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur.

Xüsusi şəkildə qeyd etmək lazımdır ki, 1991-ci ildə İKT-yə (İƏT) üzv olduqdan sonra Azərbaycan bu təşkilatın fəal iştirakçısına çevrilmişdir. İslam Konfransı Təşkilatı Ermənistanı təcavüzkar qismində tanıyan və pisləyən ilk beynəlxalq təşkilat olmuşdur. İƏT-in bu həyati əhəmiyyətli məsələyə dair aydın və ədalətli mövqeyi həmin təşkilatla münasibətlərin yüksələn xətlə inkişafına əlverişli zəmin yaratmışdır.

Azərbaycanın da üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı (İƏT) müasir dövrdə müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq qurumdur. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədi üzv dövlətlər arasında islam həmrəyliyini möhkəmləndirmək, elm, mədəniyyət, sosial-iqtisadi və digər mühüm sahələrdə əməkdaşlığa tərəfdar çıxmaq, irqi ayrı-seçkiliyin və dözümsüzlüyün bütün formalarının ləğv olunmasına səy göstərmək, müsəlman

---

[155] Firudin Nəbiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri, Azərbaycan tolerantlığın məkanıdır (https://migration.gov.az/post.php?pageid=6105).

xalqlarının inkişafına yardım etmək, üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığı üçün hər cür şərait yaratmaqdan ibarətdir. Əsas fəaliyyət prinsipi islam həmrəyliyi olan İslam Əməkdaşlıq Təşkilatı, onun Parlament İttifaqı (İƏT Pİ) hər il keçirdiyi sessiya və konfranslarda çoxsaylı qərar, qətnamə və bəyannamə qəbul edir.[156]

Azərbaycanın beynəlxalq islam təşkilatları ilə münasibətlərindən danışarkən respublikamızın İSESCO ilə əməkdaşlığına xüsusi diqqət yetirməliyik. Belə ki, Azərbaycan Respublikası 1991-ci ildən İSESCO-nun üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər Respublikamızın Birinci xanımı, Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban Əliyevanın 24 noyabr 2006-cı il tarixində İSESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur.

İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri ölkəmizlə əməkdaşlığın səviyyəsindən razılığını və bu əməkdaşlığın genişləndirilməsinə marağını dəfələrlə vurğulamış, 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir.

Azərbaycan Respublikası çoxmillətli və çoxdinlidir. Ölkənin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgəyaşayış və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilmişdir. Azərbaycanın coğrafi, təbii və iqlim şəraiti, flora və faunası, digər maddi-mənəvi xüsusiyyətləri ən qədim dövrlərdən bu torpaqlarda insanların məskunlaşmasına şərait yaratmışdır.[157]

---

[156] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017.- 28 yanvar.- s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748); Bax: Heydər Əliyev və Şərq, altı cilddə, beşinci kitab, Çaşıoğlu, 2005, s. 40.
[157] Niyaz Niftiyev, "Azərbaycanda Birgəyaşayış və Multikulturalizm", Bakı, 2015, s. 199.

Ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir. Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzində deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır.[158]

Azərbaycan ölkə ərazisində yaşayan bütün xalqların doğma vətənidir. Etnik ayrı-seçkiliyə yol verməmək müdrik Azərbaycan xalqının humanist xüsusiyyətlərindən biridir. Ölkəmiz müstəqilliyini bərpa etdikdən, xalqın böyük oğlu Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə bu xüsusiyyət dövlətin siyasətində qabarıq şəkildə özünü büruzə verməyə başlamışdır. O, öz çıxışlarında bu məsələ ilə bağlı mövqeyini dəqiq və aydın şəkildə ifadə edirdi. “Azərbaycan həmişə çoxmillətli bir ölkə olubdur, bu gün də çoxmillətli bir ölkədir. Biz bunu ölkəmizin üstünlüyü hesab edirik. Biz Azərbaycanı heç vaxt təkmillətli bir dövlətə çevirmək fikrində olmamışıq. Ona görə də Azərbaycanda yaşayan insanlar milliyyətindən asılı olmayaraq, həmişə bərabərhüquqlu olmuşlar. Azərbaycanda bu gün də bütün başqa millətlərə məxsus olan, yaşayan insanlar da respublikamızın vətəndaşlarıdır və ölkəmizdə eyni hüquqlara malikdirlər.” (Heydər Əliyev)[159]

---

[158] http://multiculturalism.preslib.az/az_a1.html
[159] Dövlət və din, İctimai Fikir Toplusu, 06 (47) 2016, s. 1.

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi.

Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də, "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır". Bu sözlər bu gün də son dərəcə əhəmiyyətlidir və belə bir aydın siyasi həqiqəti aktuallaşdırır: biz, yəni Azərbaycanda yaşayan bütün xalqlar məhz bir yerdə, məhz azərbaycanlı olaraq dünya üçün maraq kəsb edə bilərik.[160]

---

[160] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

Bu mövzu ilə bağlı digər çıxışlarından birində: “Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" – deyən ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi. Akademik Kamal Abdullayevin sözləri ilə desək: “O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi. Əslində, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisi oldu.”[161]

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməz. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada ölkəmizin milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər. Multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, təəssüf ki, bütün dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıqoymaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxaran yoldur. Bu baxımdan əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən multikulturalizmin Azərbaycan modeli sınanmış və optimal variant kimi qarşıya çıxır.[162]

---

[161] Kamal Abdullayev, akademik, Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir, Türkologiya-beynəlxalq elmi jurnal, № 2, aprel, may, iyun. Elm, Bakı, 2017, s. 19.

[162] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, “Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi”, Azərbaycan.- 2017.- 9 may.- S. 6.

Bu ideyanın müasir Azərbaycanın rəsmi qərarlarında və quruculuğunda bir daha öz əksini tapması aydın şəkildə müşahidə olunur. Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1, 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür.[163]

2014-cü ildə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədi ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı.

Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. O, daim ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbay-

---

[163] Yenə orada.

can Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Azərbaycanın mənəvi-siyasi yüksəlişində son dərəcə vacib məqamlardan biri isə Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən bəri mütəmadi olaraq Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumun son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi "alternativi olmayan, gələcək inkişaf üçün ən məqbul variant" kimi dəyərləndirməklə təkcə Azərbaycanda deyil, müasir dünyada multikulturalizm meyillərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyev 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşavirinin xidmətini yaratdı. Bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv səbəbdən özünü göstərən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyət göstərməkdədir.[164]

Prezident İlham Əliyevin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev Fondunun böyük xidmətləri danılmazdır. Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan

---

[164] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır.

Fondun düşünülmüş, sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, fondun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan - tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.[165]

Multikulturalizmi Azərbaycanda dövlət siyasəti və eyni zamanda həyat tərzi hesab edən ölkə başçısı cənab İlham Əliyev 2016-cı ili "Multikulturalizm ili" elan etməklə bu sahədə görülən işləri daha da genişləndirdi.

Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

---

[165] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət etmək, qarşılıqlı anlaşma, mədəniyyətlərin və sivilizasiyaların dialoqunu qurmaq mümkün deyil.

Lakin təəssüflər olsun ki, Avropa və bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb kulturoloji vəzifə olması ilə əlaqədar ondan imtina etmişlər. Bəzi xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə inteqrasiya olmağı arzu edirlər. Bu vəzifənin həlli üçün bütün dünyada "Homo sapiens" tipli insandan "Homo culturalies" tipli insana keçid beynəlxalq proqramının işlənib hazırlanması və tətbiq edilməsi zəruridir.[166]

Prezident cənab İlham Əliyev tərəfindən imzalanmış 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi barədə 11 mart 2016-cı il tarixli Sərəncama, eyni zamanda "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair təsdiq olunmuş Tədbirlər Planı"na uyğun olaraq, Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi tərəfindən "Multikulturalizm ili" çərçivəsində 150-dən artıq tədbir keçirilib. Bu il ərzində "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda respublikanın demək olar ki, bütün bölgələrini əhatə edən 22 regional konfrans, "Dünyəvi dövlətdə din: Azərbaycan modeli" mövzusunda 27 seminar-treninq, "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda isə 25 seminar-müşavirə keçirilib. Həmin

---

[166] Yenə orada.

tədbirlərdə respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq- mühafizə orqanlarının rəhbərləri, gənclər, dini icma sədrləri, imam və axundlar, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak ediblər. Eyni zamanda "Multikulturalizm ili" çərçivəsində həyata keçirilən tədbirlər respublikamızın dini və dünyəvi təhsil müəssisələrini, Silahlı Qüvvələri, hüquq- mühafizə orqanlarını, dini icmaları, cəzaçəkmə müəssisələrini, qeyri-hökumət təşkilatlarını, qaçqın və məcburi köçkünlərin kompakt yaşadığı əraziləri əhatə edib. "Multikulturalizm ili" bir sıra beynəlxalq konfrans və görüşlərlə də əlamətdar olub. Bakı, Qəbələ, eləcə də Təbriz şəhərlərində beynəlxalq tədbirlər təşkil edilmiş, ölkəmizdəki multikulturalizm ənənələrinin beynəlxalq arenada təbliği istiqamətində çoxsaylı görüşlər keçirilmişdir. Həmçinin ölkəmizdə mövcud olan tolerant və multikultural ənənələrin təbliği, dini radikalizmə qarşı mübarizə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və s. məsələlərlə bağlı Dövlət Komitəsinin sədri, eyni zamanda məsul əməkdaşları Türkiyə, İsveç, Sinqapur, Almaniya, İspaniya və digər ölkələrdə təşkil olunmuş tədbirlərdə iştirak ediblər.

Hazırda Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri şərait var və biz də bundan istifadə edərək öz dəyərlərimizin təbliği istiqamətində var gücümüzlə çalışırıq. Bütün bu amillərə söykənərək deyə bilərik ki, 2016-cı il ölkə tarixində səmərəli illərdən biri kimi yadda qaldı.[167]

---

[167] Mübariz Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, "Dövlət başçısı İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var", www.yap.org.az (http://yap.org.az/az/view/interview/382/prezident-ilham-eliyevin-2017-ci-ili-islam-hemreyliyi-ili-elan-etmesinin-chox-boyuk-ictimai-siyasi-beynelxalq-ve-ideoloji-ehemiyyeti-var

Bu gün dünyanın 67 ölkəsində silahlı münaqişələr və müharibələr davam edir. Münaqişələrdə 750-dən çox qrup və dövlət iştirak edir. Təəssüflə qeyd edilməlidir ki, bu münaqişələrin əksəriyyəti ya müsəlman dövlətlərində baş verir, yaxud da müsəlmanlar həmin münaqişələrdə bu və ya digər şəkildə iştirak edirlər. Bir fakt da qeyd edilməlidir ki, müsəlmanların iştirak etdiyi əksər münaqişələrin kökündə məzhəb fərqliliyi dayanır. Aparılan tədqiqatlar göstərir ki, müsəlman ölkələrində hökm sürən radikal məzhəbçilik onları bölən əsas məqamlardan birincisidir. Bəzi ölkələrdə islamın bir məzhəbinin nümayəndələrinin 50 faizdən çoxu digər islam məzhəbinin nümayəndələrini müsəlman hesab etmir. Yəni Quran və islam dəyərlərinin Afrikada, Yaxın Şərqdə və Cənub-şərqi Asiyada müxtəlif şəkildə və fərqli interpretasiyası aparılır. Nəticə etibarı ilə islam dəyərləri Yaxın Şərqdə ərəb dövlətləri və İran arasında, Yaxın Şərqlə Türkiyə arasında, eləcə də müsəlman Pakistanı və müsəlman Hindistanı arasında özünü fərqli göstərir. Keçirilən sorğuların nəticəsi göstərir ki, 39 müsəlman ölkəsindən 32-də insanların böyük əksəriyyəti islamda bir doğru yolun olduğu, digər alternativ izahların isə məqbul hesab edilmədiyi qənaətindədir. Bütün bunlarla yanaşı, əsas məqamlardan biri də dünya enerji ehtiyatlarının böyük hissəsinin müsəlman ölkələrində yerləşməsinə baxmayaraq, onlardan səmərəli şəkildə istifadə edilməməsi və müsəlman ölkələri arasında enerji sahəsində mübadilənin zəif olmasıdır.[168]

Dini mənsubiyyət faktorunu qabardaraq insanlar arasında təfriqə salmaqla xaos yaratmaq günümüzün xoşagəlməz reallığına

---

[168] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, "İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır", www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

çevrilib. Təəssüflər olsun ki, son illərdə dindaxili məzhəb amilindən istifadə edərək törədilən ağır cinayətlərin miqyası getdikcə genişlənir. Radikal dini təşkilatlar yaratmaqla və yaxud maddi-texniki dəstək verməklə öz məkrli planlarını həyata keçirməyə çalışanlar müsəlman dünyasında məzhəb fərqliliklərini süni şəkildə dərinləşdirməyə, islam dünyasını zəiflətməyə, texnoloji cəhətdən inkişafına mane olmağa və nəticədə coğrafi baxımdan böyük strateji əhəmiyyət daşıyan, çoxlu yeraltı, yerüstü sərvətlərə, nəqliyyat infrastrukturuna sahib olmağa cəhd göstərirlər. Bu gün acı həqiqətdir ki, bəzi ölkələr arasında iqtisadi, siyasi, hərbi sahələrlə yanaşı, sivilizasiya və teoloji dəyərlərin rəqabəti də gedir. Əfsuslar olsun ki, bu rəqabət sağlam şəkildə deyil, günahsız insanların həyatı bahasına başa gəlir. Suriyada, İraqda, Yəməndə və Yaxın Şərqin digər müsəlman ölkələrində baş verən qanlı olaylar buna misal ola bilər. Odur ki, müsəlman dünyasında bu gün dini zəmində yaradılan qarşıdurmaların qarşısını almaq üçün alternativ yollar axtarıb tapmağa daha çox ehtiyac var. Bu cür xoşagəlməz halların qarşısını almaq üçün dünyaya islamın sülh dini olduğunu və müsəlmanların terrorçu deyil, hansı dini və ya etnik konfessiya nümayəndəsi olmasından asılı olmayaraq, hər kəsə dözümlü, bərabər yanaşan toplumlar kimi çatdırmağa ehtiyac duyulur.[169]

Bu gün cəmiyyətimiz daha dinamik, müxtəlif və mürəkkəbdir. Eyni zamanda etnik və mədəni cəhətdən daha çox plüraldır. Bunun əsas səbəblərindən biri miqrasiya nəticəsində Qərbdə yeni nəslin ən azı iki müxtəlif mədəni irsin daşıyıcısı olmasıdır. Məsələn, vaxtilə Avropaya müsəlman və qeyri-müsəlman ölkələrindən gələn miqrantların ikinci və üçüncü nəsli həm "Köhnə dünya"nın, həm də

[169] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

ata və babalarının mənsub olduqları mədəniyyətin elementlərini özlərində daşıyırlar. Daha dəqiq desək, ikili mədəniyyət daşıyıcılarıdırlar. Eyni zamanda Avropanın "köklü" sakinlərinin qocalması və yeni nəsil ilə yerdəyişməsi xristian təəssübkeşlərini düşündürməyə bilməz. Onlar öz dini və mədəni irslərinin islam ilə yerdəyişməsinə imkan verməmək üçün bu dini həm öz daxili problemlər, həm də özlərinin əllərində olan imkanlar hesabına gözdən salaraq bütün ssenarini islam üzərində qurur. Son günlər Qərb dairələrinin dilindən düşməyən "radikal islam" da siyasi ideologiya çərçivəsində həyata keçirilən islamofobiya siyasətinin nəticəsidir. Fransız politoloq Roy Oliviyerin ifadəsi ilə desək, radikalizmin islamlaşdırılması siyasəti aparılır. Avropada azlıq təşkil edən müsəlmanların ibadət yerlərinin kifayət qədər olmaması və təşkilatlanması üçün lazımi şəraitin yaradılmaması, əksinə, xristian dəyərlərinin geniş təbliği, dövlətlə kilsə arasında münasibətlərin daha üst səviyyədə qurulması, nəticədə, müsəlmanların gedən proseslərdən və cəmiyyətdən izolyasiya edilərək inteqrasiya olunmalarına maneələrin yaradılması bunun əyani sübutudur. Bütün bunlar islam dini və müsəlmanlarla bağlı stereotiplərin güclənməsinə gətirib çıxarır.

Belə olduqda islam həmrəyliyinin gücləndirilməsi və müsəlman dünyasının hərəkətə keçməsi, sahib olduğu dəyərlərin demokratiyanın formalaşmasında əsas kimi çıxış edən bir dəyər olduğunu, hökm sürən xürafatı təhsil vasitəsilə aradan qaldıraraq intibahına nail olmaq, öz aralarında baş verən ixtilaf və münaqişələrə son verərək təkcə münaqişələrə son vermək baxımından deyil, həm də dünyada layiqli yer tutmaq, insanlara əlverişli həyat bəxş etmək baxımından da zəruridir.[170]

---

[170] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, "İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır", www.salamnews.org, 28 Mart 2017

Nəzərə almaq lazımdır ki, Azərbaycan müxtəlif azsaylı xalqlarla yanaşı, müxtəlif din və eyni din daxilində müxtəlif məzhəb, təriqət və əqidə nümayəndələrinin yaşadığı bir ölkədir. Buna baxmayaraq, tarix boyu dini zəmində ciddi problemlərlə qarşılaşmamağımız yenə də xalqımızın müdrikliyi, sülhsevərliyi, insanpərvərliyi və uzaqgörən dövlət rəhbərlərinə sahib olmasından irəli gəlir.

Təbii ki, islam dünyasında bu təşəbbüsləri irəli sürən və ümumi rifaha xidmət edən iradəni ortaya qoyan müsəlman ölkələri az da olsa, var. Bunlardan biri də Azərbaycandır. Dünyəvi qanunlarla idarə edilən və əhalisinin 96%-i müsəlmanlardan ibarət olan ölkəmiz multikultural dəyərlərə və tolerantlığın təşviqinə verdiyi töhfələrə görə dünyada nümunə kimi qəbul edilir. Azərbaycanın etnik və mədəni coğrafiyası imkan verir ki, dünyada sülhün və həmrəyliyin möhkəmlənməsinə töhfə versin. Artıq ölkəmiz öz multikultural dəyərlərinə sadiqliyini sübut edərək beynəlxalq ictimaiyyətə çatdırdı ki, müxtəliflik əslində bəşəriyyətin əvəzolunmaz xəzinəsidir.[171]

Xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, müsəlman Şərqinə qırılmaz tellərlə bağlıdır, cəmiyyətimizdəki bir sıra mental xüsusiyyətlər, sosial-psixoloji faktlar islam dinindən qaynaqlanır. Belə bir vəziyyətdə, yəni çoxəsrlik mədəniyyətinin təməlində islam faktoru aparıcı yer tutan müstəqil dövlətimizin müsəlman aləminə diqqətinin artması çox təbiidir. Bunu Prezident İlham Əliyevin müsəlman dövlətlərinə ardıcıl səfərləri, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər bu kimi

---

(http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

[171] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, “İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır”, www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

universal və regional beynəlxalq təşkilatlarda Azərbaycanın fəal iştirakı da təsdiqləyir. Etiraf olunmalıdır ki, bir çox hallarda məhz Azərbaycanın təklifləri bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni formalarının müəyyən edilməsində başlıca rol oynayır.[172]

İslam mədəniyyəti milli mədəniyyətimizin ayrılmaz hissəsidir. Ölkəmiz coğrafi mövqeyi, azərbaycanlı din və qeyri-din alimləri sayəsində islam mədəniyyətinin inkişafında və təbliğində mühüm yer tutur. Qafqazda islam məhz Azərbaycan vasitəsilə yayılmışdır. Təsadüfi deyildir ki, Qafqazın ən qədim iki məscidindən biri Azərbaycanın Şamaxı rayonunda yerləşən Cümə məscididir. Müxtəlif təbii fəlakətlərə, erməni vəhşiliklərinə məruz qalmış bu məscid xalqımız tərəfindən qorunub saxlanılmış və müasir Azərbaycan hökuməti tərəfindən əsaslı təmir edilərək müsəlmanların istifadəsinə verilmişdir. Orta əsrlərin memarlıq üslubunu özündə əks etdirən bu qədim məscid Azərbaycanda islam həmrəyliyi prinsipinin kökünün islamın özü qədər qədim olduğuna dəlalət edən orijinal nişanələri ehtiva edir. Belə ki, Cümə məscidində tarix boyu eyni günbəz altında islamın fərqli məzhəb və əqidə sahibləri qarşılıqlı hörmət və anlaşma şəraitində Allaha ibadət etmişlər. Şamaxı Cümə məscidi, bəlkə də, dünyada nadir ibadət ocaqlarından biridir ki, məscidlərin qiblə tərəfdəki divarında yerləşən və namaz qılanların üzlərini çevirdikləri oyuq yer – mehrab bir deyil, üç dənədir. Bu, tarix boyu ölkəmizdə fərqli məzhəb və təriqətlərin bir-birinə yaxın, əmin-amanlıq şəraitində ibadət etməsinin bariz nümunəsidir.

Ölkəmizdə tətbiq olunan dövlət-din modelinin ən böyük uğuru ondan ibarətdir ki, dünyada dinlərarası və məzhəblərarası qarşıdur-

---

[172] Gövhər Baxşəliyeva, akademik, “İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır”, Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

maların baş verdiyi müasir dövrdə Azərbaycanda bu sahədə hansısa gərginlik yaşanmır. Bir faktı söyləmək kifayətdir. Belə ki, əsrlərdən bəri islam dünyasının iki böyük – şiə və sünni məzhəblərinin nümayəndələri ibadətlərini fərqli şəkildə və fərqli məkanda həyata keçirirlər. Tarixdə bir neçə dəfə onların birliyinə, həmrəyliyinə təşəbbüslər göstərilsə də, indiyədək bu təşəbbüslər davamlı xarakter almayıb. İslam aləmində məzhəb məsələsinin ön plana çıxdığı bir dövrdə – keçən il yanvar ayının 15-də Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq, ölkə müsəlmanları ilk dəfə bir araya gələrək eyni vaxtda, bir yerdə, bir sırada vəhdət namazı qıldılar və bu, ənənəyə çevrilərək digər məscidlərdə də tətbiq olunmağa başladı.[173]

Harmoniya və həmrəylik əldə etmiş müsəlmanlar ayrı-seçkiliyə məruz qalmadıqca başqa dinlərə də yalnız barış və hörmət nümayiş etdirəcəklər. Bu baxımdan 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ölkəmizi bu prosesin avanqardına çevirir. "İslam Həmrəyliyi İli" yalnız din sahəsində deyil, eyni zamanda müsəlman ölkələrinin həm sosial-iqtisadi, həm siyasi, həm də mədəniyyət sahəsində bir-birinə dəstək olması, həmrəylik nümayiş etdirməsidir və onların arasında nifaq salmaq istəyənlərə tutarlı cavabdır.[174]

Akademik Gövhər Baxşəliyeva 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsini zamanın çağırışlarına uzaqgörən reaksiya kimi dəyərləndirərək bildirmişdir ki, "2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi islami dəyərlərin və bütövlükdə müsəlman aləminin

---

[173] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

[174] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, "İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır", www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

böyük təəssübkeşi Prezident İlham Əliyev tərəfindən zamanında verilmiş çox gərəkli, uzaqgörən ictimai-siyasi qərardır. XX əsrin axırları-XXI əsrin əvvəllərində islam dünyagörüşü sistemi həyat və davranış tərzi kimi dünyada baş verən mürəkkəb və ziddiyyətli siyasi, iqtisadi və mədəni proseslərdə mühüm rol oynamaqda davam edir. Bu gün islam amilini nəzərə almadan dünya xalqlarının ictimai inkişaf yönümlərini dəqiq izləmək mümkün deyil. Bir sıra beynəlxalq və regional münaqişələrdə islamın adından getdikcə daha çox istifadə edilir. Müsəlman dünyasında baş verən hadisələrin arxasında digər amillərlə yanaşı, qeyri-bərabər inkişaf, ənənəvi sosial-mədəni və siyasi strukturların dağılmasına reaksiya ilə bağlı meydana çıxan problemlər durur. Dini hərəkatlar dövlət hüdudlarını aşır, beynəlxalq xarakter kəsb edir, bəzən dünya siyasətinin subyektinə çevrilir. Cərəyan edən proseslər bir daha göstərir ki, islam hələ uzun müddət real siyasi amil rolunu oynayacaq, dünya siyasətinə güclü təsir göstərə biləcəkdir."[175]

"İslam Həmrəyliyi İli" bütün dünya dinlərinin nümayəndələrini birləşməyə, qarşılıqlı anlaşmaya və dialoqa çağırır. Bu, Azərbaycanın təşəbbüsü ilə dünyaya yeni çağırışdır. Və həm də müasir dünyanın mübtəla olduğu irqçilik, ksenofobiya və islamofobiya mərəzlərinə qarşı ən yaxşı məlhəmdir.[176]

---

[175] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

[176] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, "İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır", www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

Tarixdən gələn birlik, həmrəylik ənənəsi bu gün Ulu öndərin adını daşıyan Heydər məscidində yaşayır, vəhdət namazları qılınır. Bəli, biz etiqadından asılı olmayaraq tarix boyu eyni günbəz altında, bu gün isə eyni cərgədə, yan-yana durub Allaha ibadət etməyi bacaran xalqın övladlarıyıq.

Azərbaycan əhalisinin 90 % -dən çoxu müsəlmandır. İslam dini sülhsevər, əmin-amanlıq və həmrəylik tərəfdarı olan humanist bir dindir.

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَىٰ وَيَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَالْبَغْيِ ۚ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

(Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, yaxınlara əl tutmağı buyurur, əxlaqsızlığı, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!)[177]

İslam Peyğəmbərinin təbiri ilə desək:

المسلم من سلم المسلمون من لسانه و يده

“Müsəlman, əlindən və dilindən digər müsəlmanlara zərər toxundurmayana deyilir.”

Dövlət başçısı cənab İlham Əliyevin 2016-cı ili “Multikulturalizm ili”, onun məntiqi davamı kimi bu ili (İ.Ə. 2017) “İslam Həmrəyliyi İli” elan etməsi bütün dünyaya “Bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq” çağırışıdır. Bunun ən gözəl örnəyi əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın dövlət-din münasibətləri modelinin digər dövlətlər tərəfindən öyrənilməsi və tədqiq olunmasıdır.[178]

---

177 Qurani-Kərim, Nəhl, 90.

178 Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, “Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi”, Azərbaycan. - 2017.- 9 may.- S. 6.

Dinimizin olduğu kimi öyrənilməsini vacib hesab edən Ulu öndər, dindən sui-istifadə hallarının yolverilməz olduğunu bildirmişdir. “Gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt imkan verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək, islam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini və mənəviyyatını zədələsinlər”. (Heydər Əliyev)[179]

Ötən dövr ərzində ümumilikdə islam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi istiqamətində də əməli addımlar atılmışdır. Hələ ümummilli liderin dövründən başlayaraq Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının işində fəal iştirak etmişdir. Ölkəmizin islam dünyasının ayrılmaz parçası olduğunu dönə-dönə vurğulayan Ulu öndərin islam Əməkdaşlıq Təşkilatının Mərakeş Krallığında keçirilən zirvə toplantısında səsləndirdiyi: “Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla – müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm”, – fikri onun islam dünyası ilə əlaqələrə verdiyi əhəmiyyətin bariz göstəricisidir.[180]

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının bildirdiyinə görə, cənab Prezident İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var. Hər bir dövrün müəyyən çağırışları olur. Hər bir çağırışa da adekvat cavablar

---

[179] Sakit Hüseynov, Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik, Bakı-22 “Təknur”, 2012, s.61.

[180] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, “Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi”, Azərbaycan.- 2017.- 9 may.- S. 6.

verilməli və buna müvafiq olaraq da qərarlar qəbul edilməlidir. Siyasi xadimlərin, liderlərin də fərqli keyfiyyətlərindən biri bu cür hadisələri qabaqlayaraq zamanında müvafiq qərarlar qəbul etməsidir. Müasir dövrdə islam dünyasının həmrəyliyə çox böyük ehtiyacı var. Bu həmrəyliyi yaratmaq, bununla bağlı müəyyən addımlar atmaq üçün belə bir çağırışın edilməsi, belə bir mesajın verilməsi çox böyük önəm daşıyır.[181]

İslam meydana çıxdığı dövrdən (VII əsrin ortalarından) etibarən Azərbaycanda yayılmağa başlamış, azərbaycanlılar üçün təkcə din yox, həm də ölkə mədəniyyətinin formalaşmasına təsir göstərmiş, eləcə də mövcudluğumuzu şərtləndirmişdir. Bu baxımdan Azərbaycanın 14 əsrlik mədəni yüksəlişini, elmi nailiyyətini və mənəviyyatını islamsız təsəvvür etmək mümkün deyil. Bu nöqteyi-nəzərdən islam həmrəyliyi ideyası həm də islamın mahiyyətindən doğan digər dinlərə hörmət və tolerantlığı ehtiva edir.[182]

İslam dünyasında böyük nüfuza malik olan, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan sivilizasiyalararası dialoqun məkanına çevrilib. Milli müstəqilliyin bərpasından sonra respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsində və dini etiqad azadlığının təminatında çox əhəmiyyətli işlər görülüb. Təsadüfi deyil ki,

---

[181] Mübariz Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, “Dövlət başçısı İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var”, www.yap.org.az (http://yap.org.az/az/view/interview/382/prezident-ilham-eliyevin-2017-ci-ili-islam-hemreyliyi-ili-elan-etmesinin-chox-boyuk-ictimai-siyasi-beynelxalq-ve-ideoloji-ehemiyyeti-var)

[182] Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini, İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır, www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)

Ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə, dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Ümumiyyətlə, Ulu öndərin dövlət-din münasibətləri sahəsində irəli sürdüyü ideyaların, dünyagörüşünün, müdrik tövsiyələrinin bu günün reallıqları kontekstində oynadığı müsbət rolu daha aydın görürük. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri, o cümlədən müsəlman respublikaları tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir. Bütün bunlar həm də ümummilli lider Heydər Əliyev siyasətini layiqli formada davam etdirən Prezident cənab İlham Əliyevin uğurlarının nəticəsidir.[183]

Müasir Azərbaycan hökumətinin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsi islamın humanist prinsipləri ilə səsləşən, dinindən və məzhəbindən asılı olmayaraq hamını sülh və əmin-amanlıq naminə həmrəy olmağa çağıran növbəti nümunəvi addım hesab edilir. Bu qərar tarix etibarilə yeni olsa da, milli ənənələrimizə, dövlətin apardığı ümumi siyasətə yad deyildir. 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərinin İslam mədəniyyətinin paytaxtı, 2018-ci ildə isə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi ölkənin mühüm nailiyyətlərindən hesab edilir. Müasir Azərbaycanda

---

[183] Mübariz Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, “Dövlət başçısı İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var”, www.yap.org.az (http://yap.org.az/az/view/interview/382/prezident-ilham-eliyevin-2017-ci-ili-islam-hemreyliyi-ili-elan-etmesinin-chox-boyuk-ictimai-siyasi-beynelxalq-ve-ideoloji-ehemiyyeti-var)

etnik və dini ayrı-seçkilik qəbuledilməzdir və dövlətin apardığı siyasətlə ziddiyyət təşkil edir. Beləliklə, müasir ölkəmizdə multikulturalizm kimi, islam həmrəyliyi məsələsi də ənənədən siyasi müstəviyə yüksəldi.

Konseptual əsaslara söykənən və tənzimlədiyi sahədə mühüm hüquqi çərçivə müəyyənləşdirən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun ölkədə vicdan azadlığının təmin edilməsi, dini qurumların statusu, onların fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı bütün məsələlərə aydınlıq gətirməsinə baxmayaraq, respublikamızda dövlət-din münasibətlərinin təkmilləşdirilməsi ilə bağlı bu sahədə mərkəzi idarəetmə orqanının yaradılması zamanın tələbi idi. Ona görə də 2001-ci ildə Ulu öndər Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı və bununla da dövlət-din münasibətlərinin inkişafında yeni mərhələyə qədəm qoyuldu. Dövlət komitəsi dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafında, din sahəsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsində, müvafiq qanunvericiliyin icrasına nəzarətin, eyni zamanda dövlət-din münasibətləri sahəsində məqsədyönlü proqramların həyata keçirilməsində böyük rol oynayır.[184]

Hazırda Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasət xalqın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsidir. Belə ki, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə yeni ibadət ocaqlarının inşası, təmirə ehtiyacı olanların yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər Sovet İttifaqı dağılarkən

---

[184] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-i ötüb. Təkcə son 13 il ərzində ölkədə 200-dən çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırıqlarına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində, Gəncə şəhər İmamzadə ziyarətgahında əsaslı təmir-bərpa və yenidənqurma işləri aparılıb. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və cənubi Qafqazın ən möhtəşəm islam abidəsinin – Heydər məscidinin 2014-cü il dekabrın 26-da açılışı olub.[185]

Milli-mənəvi dəyərlərin qorunmasından və bu məsələyə dövlət qayğısından danışarkən "İslam Həmrəyliyi İli"ndə ölkə başçısı cənab İlham Əliyevin "Mənəvi Dəyərlərin Təbliği Fondu"nun yaradılması haqqında 10 oktyabr 2017-ci il tarixli fərmanını qeyd etmək vacibdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə rəsmiləşən həmin fərmanda bildirilir: "Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan tarixən çoxkonfessiyalı məkan olmuşdur. Müasir dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyə-

---

[185] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

tinin birgəyaşayış normasına çevrilmişdir. Hazırda Azərbaycan nəinki Cənubi Qafqazda, bütün Yaxın və Orta Şərqdə islam mədəniyyətinin, tolerant mühitin formalaşdığı, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin effektiv vəhdətinin mövcud olduğu nümunəvi ölkələrdən biridir.

Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir."[186]

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. Onun rəhbərliyi ilə fondun "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə

---

[186]https://azertag.az/xeber/Menevi_Deyerlerin_Tebligi_Fondunun_yaradilmasi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1101382

əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib.[187]

Dünyəvi dövlət statusuna malik müasir Azərbaycan Respublikası milli dəyərlərini qorumaqla yanaşı, dünya miqyasında daha da yaxşı tanınmaq, yüksək tərəqqiyə nail olmaq üçün səylərini əsirgəmir. "Böyük İyirmilik"in Antalya Sammitində Azərbaycanın təmsil olunması, dövlətimizin başçısının dünya liderləri ilə birlikdə müasir dövrün ən aktual məsələlərinin müzakirələrində yaxından iştirak etməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasını sübut edən daha bir amildir.

Tarixi inkişafın obyektiv inkişaf meylini hər zaman uzaqgörənliklə təhlil edən ümummilli lider Heydər Əliyev Şərqlə Qərb arasında körpü rolunu oynayan ölkəmizin iki qitə arasında barışdırıcı missiyasının əhəmiyyətinə diqqət çəkərək deyirdi: "Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük."[188]

Artıq Azərbaycan dünyada istər mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi, istər tolerantlığın, multikultural dəyərlərin inkişafı, istərsə də müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm rol oynayır. Ötən illər ərzində qeyd etdiyimiz istiqamətlərdə keçirilmiş beynəlxalq tədbirlərin coğra-

---

[187] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.
[188] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

fiyasına nəzər salsaq, bu sahədə təşəbbüslərin böyük əksəriyyətinin beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan kimi tanınan Azərbaycan tərəfindən irəli sürüldüyünün şahidi olarıq. Buna misal Ulu öndər Heydər Əliyev tərəfindən ölkədə əsası qoyulan "16 noyabr – Beynəlxalq Tolerantlıq Günü"nün hər il qeyd edilməsi, 2007-ci ildə "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" beynəlxalq elmi-praktik konfransın, 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi, həmçinin 2006-cı ildə "İslamda dözümlülük" mövzusunda beynəlxalq konfransın, 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, 2012-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə toplantısının, "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumunun, 2014-cü ildə "İslam ənənəli dövlətlərdə dini birgəyaşayış. Müsəlman ölkəsində müxtəlif dinlərin yanaşı mövcudluğu: Azərbaycan təcrübəsi" beynəlxalq konfransının, beş beynəlxalq humanitar forumun, Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və digər mötəbər tədbirlərin keçirilməsidir.[189]

Ötən illər mütləq bir həqiqəti ortaya qoyub: müstəqil Azərbaycan Respublikasının Şərq siyasəti daim yüksələn xətlə inkişaf edir, ümummüsəlman mənafelərinə xidmət edərək xalqımızın haqq səsinin ucaldılmasında və mənafeyinin qorunmasında daha da böyük rol oynayır. Bu gün müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə əksər Şərq ölkələri ilə qarşılıqlı siyasi, iqtisadi, mədəni və digər əlaqələrini inamla inkişaf etdirir. İslam aləmi ilə qurulan əlaqələr, hərtərəfli əməkdaşlıq Azərbaycan Respublikasının dövlət

[189] Yenə orada.

siyasətinin mühüm bir hissəsi kimi daim təkmilləşdirilməkdədir. İslam ölkələrinin dövlət başçıları ilə görüşlər, imzalanan bəyannamələr, bağlanan siyasi, iqtisadi, mədəni, hərbi, hüquqi müqavilələr forma və məzmun baxımından mükəmməl və genişdir. Son iki ildə ölkə Prezidenti cənab İlham Əliyev onlarca islam ölkəsinə, o cümlədən Türkiyəyə, Qırğızıstana, İrana, Birləşmiş Ərəb Əmirliklərinə, Qazaxıstana rəsmi və işgüzar səfərlər edib. Artıq Azərbaycanın 38 Asiya və 23 Afrika ölkəsi ilə diplomatik əlaqələri var və onların əksəriyyəti müsəlman ölkələridir. Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya, Qətər, İordaniya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir çox ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir, BƏƏ, Suriya, İordaniya, Liviya, Sudan və s. ərəb ölkələrində səfirlikləri fəaliyyət göstərir. Azərbaycan ilə ərəb ölkələri arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair sazişlər imzalanmışdır.[190]

Azərbaycanın daxili və xarici siyasətində təbii olaraq mədəniyyət və idman məsələləri də prioritet təşkil edir. Elmi, siyasi, dini, ictimai və s. aktual problemlərlə bağlı respublika, eləcə də beynəlxalq səviyyəli konfrans, simpozium, forum və başqa bir çox vacib tədbirlərə ev sahibliyi edən Azərbaycan mədəniyyət və idman sahəsinə də öz töhfəsini verməkdə davam edir.

Son illərdə bir-birinin ardınca beynəlxalq səviyyəli müsabiqələrin, o cümlədən "Avroviziya" mahnı müsabiqəsi, "Avropa (idman)

---

[190] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

oyunları" və 5 il mütəmadi olaraq keçirilməsi nəzərdə tutulan "Formula 1" bir nəfərlik, açıq təkərli avtomobil yarışlarının Azərbaycanda keçirilməsi bu sahədə qəbul edilən qərarların əməli təsdiqidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bildirdiyinə görə, 2013-cü il iyulun 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında səsvermə zamanı Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməsi haqqında qərar qəbul edilmişdir. Səsvermədə 57 üzv ölkənin nümayəndələri iştirak etmişdir. Qərar yekdilliklə qəbul edilmişdir.[191]

Ölkəmizdə keçirilən IV İslam Həmrəylik Oyunları ərəfəsində yarışın əhəmiyyətindən danışan akademik G.Baxşəliyeva bildirmişdir ki, "İnanırıq ki, ölkəmiz bir daha islam ölkələrini təmsil edən idmançıları, azarkeşləri, həvəskarları bir araya gətirəcək və idman bayramı ən yüksək səviyyədə keçəcək. İslamiada təkcə idman yarışları yox, həmrəylik, sülh, əmin-amanlıq, tolerantlıq bayramı olacaq. Hələ qədim zamanlarda olimpiya idman oyunları keçiriləndə müharibələr, qarşıdurmalar dayandırılırdı, insanlar bir araya gəlib idman yarışları keçirirdi. Bu baxımdan IV İslam Həmrəyliyi Oyunları bir daha insanları birliyə, barışa, əməkdaşlığa dəvət edəcək. Bu kontekstdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi həm Prezident İlham Əliyevin dövlət başçısı kimi mövqeyinin, islam aləminin birlik və həmrəyliyinə verdiyi böyük önəmin, həm də bu aləmin problemlərini yaxından yaşamasının göstəricisidir."[192]

---

[191] https://az.trend.az/azerbaijan/politics/2436713.html

[192] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır",

IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2015-ci ilin sentyabr ayının 23-də keçirilən birinci iclasında IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirmişdir ki, "Bu günə qədər ölkəmizdə bir çox böyük miqyaslı beynəlxalq tədbirlər keçirilib. O cümlədən, əlbəttə, bu il (2015-ci il) böyük uğurla keçirilən Birinci Avropa Oyunlarını qeyd etmək istəyirəm. Bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini göstərdi. Ümumi fikrə görə, bu Oyunlar Yay Olimpiya Oyunları səviyyəsində hazırlanmışdı. Əminəm ki, IV İslam Həmrəylik Oyunları da eyni səviyyədə hazırlanıb keçiriləcək və müstəqil Azərbaycanın tarixinə növbəti qələbə kimi daxil olacaq."[193]

Bu mötəbər yarışa ciddi hazırlaşmış Azərbaycan öz işini yüksək səviyyədə tamamlayaraq dünya, xüsusilə də islam ölkələrinin bir daha rəğbətini qazandı.

İslam Həmrəyliyi idman oyunları idman ilə yanaşı başqa ali məqsədlərə də xidmət edir. Ölkə başçısının sözləri ilə desək: "Kimsə düşünürsə ki, bu yalnız idman tədbiridir, səhv edir, bunun böyük ictimai-siyasi əhəmiyyəti var".[194]

Beləliklə, bu mötəbər yarışın Azərbaycanda keçirilməsi ölkənin böyük uğuru və islam həmrəyliyi işinə əhəmiyyətli töhfə kimi yaddaşlara həkk olunmuşdur.

---

Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

[193] https://az.trend.az/azerbaijan/politics/2436713.html

[194] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

Düşünülmüş və hərtərəfli siyasətin real nəticəsidir ki, Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz sivilizasiyalararası və mədəniyyətlərarası, dini dözümlülük, birgəyaşayış ənənəsi, həmrəylik ideyasının təşviqi ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. Belə ki, bu ilin (2017 İ.Ə.) Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan olunması vaxtında qəbul olunmuş və zamanın çağırışlarına cavab verən addımdır. "İslam Həmrəyliyi İli" yalnız din amilini deyil, eyni zamanda müsəlman ölkələrinin həm iqtisadi, həm mədəniyyət, həm də mənəviyyat sahəsində bir-birinə dəstək olması, həmrəy olması məsələsini özündə əks etdirir və onlar arasında nifaq salmaq istəyənlərə bir cavabdır. Həmçinin bu il çox önəmli beynəlxalq tədbir olan IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi müstəqil Azərbaycanın müsəlman dünyasındakı nüfuzundan xəbər verir. Cənab Prezidentin də qeyd etdiyi kimi, bu, böyük siyasi, mədəni tədbirdir, böyük ictimai hadisədir: "Bu, bir daha Azərbaycanı müstəqil, öz dəyərlərinə, islam dəyərlərinə sadiq ölkə kimi, eyni zamanda müasir ölkə kimi göstərir və bu gün islama qarşı çirkin kampaniya aparanlara da bir cavab olacaq. Çünki onlar islam haqqında rəy formalaşdırırlar ki, islam geridəqalmış sivilizasiyadır. Onlar öz imkanları hesabına həm mediada, həm ictimai fikirdə, həm müxtəlif qeyri-hökumət təşkilatları çərçivəsində rəy formalaşdırırlar ki, islam dünya üçün təhlükədir, islamı terrorizmlə eyniləşdirirlər, islamofobiyaya rəvac verirlər, xalqları dinə görə bölürlər, müsəlman qaçqınlarına qarşı hörmətsizlik edirlər".[195]

---

[195] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və

Ölkə başçısı tərəfindən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinin müsəlman dünyasına bəxş edəcəyi töhfələrin nədən ibarət olması, haqqında danışılan mövzu ilə bağlı aktual problemlərdən biridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu məsələ ilə bağlı müsahibələrinin birində bildirmişdir: "Təəssüf ki, islam ölkələrini bir-birinə qarşı qaldırmaq, onlar arasında məzhəb və təriqət savaşlarına rəvac vermək istəyən xarici dairələr əvvəllər də olub, bu gün də var. Şübhəsiz ki, 2017-ci ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi müsəlman dünyasında baş verən qarşıdurmaların qarşısının alınması və islam ölkələri arasında həmrəyliyin yaradılması işinə öz töhfəsini verəcək. Bildiyiniz kimi, bu il (2017 İ.Ə.) Azərbaycanda həm də "IV İslam Həmrəyliyi Oyunları" keçiriləcək. Buna paralel olaraq 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi islam dünyasındakı mövcud problemlərin, çətinliklərin, ayrı-ayrı islam ölkələri arasındakı müəyyən qarşıdurma və ziddiyyətlərin aradan qaldırılması istiqamətində addımların atılmasına və burada müəyyən nailiyyətlərin əldə edilməsinə çox böyük təsir göstərəcək. Bir məsələyə xüsusilə toxunmaq istəyirəm ki, ölkə Prezidentinin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi və bu il çərçivəsində görüləcək işlərdə təkcə din amili nəzərə alınmayıb. Din burada müəyyən rol oynayır, amma islam ölkələrinin müxtəlif sahələrdə biri-birinə dəstək olması, nəzərdə tutulan fəaliyyət istiqamətləri qəbul olunacaq "Tədbirlər Planı"nda da öz əksini tapacaq."[196]

---

İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.

[196] Mübariz Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, "Dövlət başçısı İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var", www.yap.org.az (http://yap.org.az/az/view/interview/382/prezident-ilham-eliyevin-2017-ci-ili-

Bu gün müsəlman aləmi dünyanın ən gərgin və böhranlı regionlarından birinə çevrilmişdir. Burada mövcud olan zəngin neft ehtiyatları və digər təbii sərvətlər böyük dövlətlərin və beynəlxalq güc mərkəzlərinin diqqətini durmadan bölgəyə cəlb edir. Hazırda regionda gərginliyin kəskin artması, hərbi qarşıdurmanın yaranması, davam edən İsrail-Fələstin qarşıdurması, İraq və Suriya ətrafındakı hadisələrə bir sıra ölkələrin cəlb edilməsi, müxtəlif etnik münaqişələr, dini-fundamentalist cərəyanlar, beynəlxalq terrorizm təhlükəsi, əhalinin müharibə zonalarından kütləvi miqrasiyası və s. Problemlər bütün dünyanın nəzər-diqqətini bu regiona yönəldib. Regionda bir çox ölkələrin maraqlarının toqquşması yaxın gələcəkdə bu regionda əmin-amanlığın hələ bərqərar olmamasından xəbər verir. Belə şəraitdə müsəlman ölkələrinin birləşməsi, islami dəyər və prinsipləri rəhbər tutaraq həmrəylik nümayiş etdirməsi, bir-birinə əməkdaşlıq əlini uzatması həyati əhəmiyyət kəsb edir. Odur ki, Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi dünyada və regionda baş verən hadisələrə adekvat və uzaqgörən reaksiyadır.[197]

Tarixən islam dünyasının bir parçası, mədəni və dini mərkəzlərindən biri olan Azərbaycanın özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, ölkəmiz müxtəlif məsələlərlə əlaqədar müsəlman dövlətləri arasındakı bu və ya digər problemlərdə münsif rolunu oynaya bilir. Biz bilirik ki, islam dünyasında bəzi məsələlərlə əlaqədar ziddiyyətlər, fikir ayrılıqları var, ayrı-ayrı müsəlman ölkələri arasında qarşıdurmalar mövcuddur. Bunlar bəzən təriqət, məzhəb fərqliliyi fonunda ortaya çıxır. Azərbaycan isə bütün mü-

---

islam-hemreyliyi-ili-elan-etmesinin-chox-boyuk-ictimai-siyasi-beynelxalq-ve-ideoloji-ehemiyyeti-var)

[197] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

səlman ölkələri ilə eyni səviyyədə xoş və dostyana münasibətlərə malikdir. Məhz buna görədir ki, Azərbaycan islam dünyasında da özünün uzlaşdırıcı, barışdırıcı və sülhpərvər mövqeyi ilə nümunədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da qeyd etdiyi kimi: "Azərbaycan islam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz."[198]

Tarixən çoxmillətli və çoxkonfessiyalı dövlət, islami dəyərlər, multikultural ənənələr diyarı olan Azərbaycanda sabitlik mövcuddur. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. Azərbaycandakı din-dövlət münasibətlərinin lazımi səviyyədə tənzimlənməsində ölkə prezidenti İlham Əliyevin siyasi iradəsi böyük önəm daşıyır. Dövlət başçımızın xalqımızın ənənəvi, milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların carçısına çevrilməsi, ölkəmizin Humanitar və Mədəniyyətlərarası dialoqa dair Qlobal Forumlarda mütəmadi olaraq ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzu üçün yenilməz zəfərdir.[199]

Hazırda Avropa mədəniyyətinin praqmatik nailiyyətləri Azərbaycan cəmiyyətində başqa müsəlman cəmiyyətlərinə nisbətən qat-

---

[198] Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, "Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi", Azərbaycan.- 2017.- 9 may.- S. 6.
[199] Allahşükür Paşazadə, Şeyxülislam, Qafqaz Müsəlmanları İdarəsinin sədri, "İslam Həmrəyliyi-Zamanın çağırışı", Beynəlxalq Konfrans, Bakı şəhəri, 15 mart, 2017-ci il.

qat çoxdur. Bu amillər modernləşmənin tələblərinə cavab verən dəyərlərin və həyat oriyentasiyalarının Azərbaycan cəmiyyətində yayımlanmasına və möhkəmlənməsinə geniş şərait yaradır. Bununla yanaşı, Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyi və əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, islam mənəvi dəyərlərini, mədəniyyətini, ənənələrini qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutur.[200]

"İslam Həmrəyliyi İli"ndə yadda qalan mühüm hadisələrdən biri də 13 dekabr 2017-ci il tarixində İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fövqəladə Zirvə toplantısı oldu. Belə ki, ABŞ Prezidenti Donald Trampın həmin ilin dekabr ayının 6-da islamın ilk qibləsi və üç müqəddəs məscidindən biri olan Əl-Əqsanın yerləşdiyi Qüds şəhərini İsrailin paytaxtı kimi tanıdığını bildirməsi və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə əlaqədar olaraq cari ilin dekabr ayının 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə fövqəladə Zirvə toplantısı keçirildi. Toplantıda iştirak edən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev ilk növbədə, fövqəladə İslam Zirvə görüşünün təşkilinə görə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür etdi və Prezident Ərdoğanın təşəbbüsü ilə keçirilən bu Zirvə görüşünü Türkiyənin islam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürü kimi qiymətləndirdi.[201]

---

[200] Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017. – 28 yanvar. – s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

[201] https://azertag.az/xeber/Istanbulda_Islam_Amekdasliq_Teskilatinin_Quds_meselesi_ile_bagli_fovqelade_Zirve_toplantisi_kechirilib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Zirve_toplantisinda_istirak_edib_YENILANIB_VIDEO-1120633

Prezident İlham Əliyev bildirdi ki, "Amerika Birləşmiş Ştatları Prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı bizdə böyük narahatlıq yaradır. Bu qərar Fələstin-İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər. Hesab edirik ki, Amerika Birləşmiş Ştatları bu qərara yenidən baxmalıdır."[202]

Azərbaycanın ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini bildirən cənab İlham Əliyev qeyd etdi ki, "Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyul ayında Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair komitəsinin, BMT-nin humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və Əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq."[203]

---

[202] Yenə orada.

[203]https://azertag.az/xeber/Istanbulda_Islam_Amekdasliq_Teskilatinin_Quds_meselesi_ile_bagli_fovqelade_Zirve_toplantisi_kechirilib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Zirve_toplantisinda_istirak_edib_YENILANIB_VIDEO-1120633

Zirvə görüşündə islam həmrəyliyi ilə bağlı ölkəmizdə görülən işlərdən danışan Prezident İlham Əliyev bildirdi ki, "Azərbaycan islam həmrəyliyi işinə böyük töhfə verir, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Azərbaycanın təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi və İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası yaradılmışdır. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. Azərbaycan islamofobiyaya qarşı fəal mübarizə aparan ölkələrin ön sırasındadır. 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilib. Bu möhtəşəm idman, dostluq, qardaşlıq bayramı bir daha bütün dünyaya göstərdi ki, islam sülh, mərhəmət, bərabərlik dinidir."[204]

Öz çıxışında diqqəti ölkəmizin ən böyük probleminə çəkən cənab İlham Əliyev iyirmi ildən artıqdır ki, Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla, 20 faiz torpağını işğal altında saxlamasını növbəti dəfə diqqətə çatdırdı. O bildirdi ki, "Fürsətdən istifadə edərək, İƏT-ə, onun üzv dövlətlərinə və dünyadakı müsəlman cəmiyyətlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə təşəkkürümü ifadə etmək istərdim. İyirmi ildən artıqdır ki, Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla, 20 faiz torpaqlarını işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilmişdir. Ermənistan

---

[204]Yenə orada.

məscidlər və islam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir.

Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişdir. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq. Münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır."[205]

Beləliklə, müasir Azərbaycan milli-mənəvi dəyərlərinin bir tərkib hissəsi olan sülhsevər, humanist İslam ənənələrini yaşadır və bu ənənələri ümumiyyətlə dünyada, xüsusilə də müsəlman ölkələr arasında həmrəylik, birlik, sülh və əmin-amanlığı təmin etmək məqsədilə məharətlə istifadə edir.

---

[205]https://azertag.az/xeber/Istanbulda_Islam_Amekdasliq_Teskilatinin_Quds_meselesi_ile_bagli_fovqelade_Zirve_toplantisi_kechirilib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Zirve_toplantisinda_istirak_edib_YENILANIB_VIDEO-1120633

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SIYAHISI

***Azərbaycan dilində:***

**1.** Abel Məhərrəmov, akademik, "Azərbaycanın simvolu", Azərbaycan.- 2017.- 15 iyun- №128.

**2.** Adil Abdulla əl-Fəlah, Heydər Əliyev və milli-mənəvi dəyərlər, Bakı, Qismət, 2007.

**3.** Allahşükür Paşazadə, Şeyxülislam, Qafqaz Müsəlmanları İdarəsinin sədri, "İslam Həmrəyliyi-Zamanın çağırışı", Beynəlxalq Konfrans, Bakı, 15 mart, 2017-ci il.

**4.** Cəfər Cabbarlı əsərləri, Müasir Azərbaycan Ədəbiyyatı, I cild, "Şərq-Qərb", Bakı, 2005.

**5.** Dövlət və Din-ictimai Fikir Toplusu, 06(47), 2016.

**6.** Firudin Nəbiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri, "Azərbaycan tolerantlığın məkanıdır", https://migration.gov.az/post.php?pageid=6105.

**7.** Gövhər Baxşəliyeva, akademik, "İslami dəyərlərin böyük təəssübkeşi Prezident İlham Əliyevin bu təşəbbüsü uzaqgörən ictimai-siyasi qərardır", Azərbaycan.- 2017.- 28 yanvar.- s. 5. (http://www.azerbaijan-news.az/index.php?mod=3&id=114748)

**8.** Heydər Əliyev və Şərq, altı cilddə, beşinci kitab, Çaşıoğlu, 2005.

**9.** İki sahil, "Azərbaycan neft sənayesinin tərəqqisi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır". - 2017.- 8 noyabr.- № 204.

**10.** İqrar Əliyev, Elmar Məhərrəmov, "Azərbaycan Respublikasının Dövlət Rəmzləri", Bakı, Nurlan, 2008.

**11.** İlkin Əlimuradov, "IX-X əsrlərdə azərbaycanlı hədisşünas alim Əhməd Harun oğlu əl-Bərdici (Bərdəli)", "Araz" nəşriyyatı, Bakı, 2016.

**12.** Kamal Abdullayev, akademik, “Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir”, Türkologiya-beynəlxalq elmi jurnal, № 2, aprel, may, iyun. Elm, Bakı, 2017.
**13.** Mübariz Qurbanlı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, “Dövlət başçısı İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsinin çox böyük ictimai-siyasi, beynəlxalq və ideoloji əhəmiyyəti var”, www.yap.org.az (http://yap.org.az/az/view/interview/382/prezident-ilham-eliyevin-2017-ci-ili-islam-hemreyliyi-ili-elan-etmesinin-chox-boyuk-ictimai-siyasi-beynelxalq-ve-ideoloji-ehemiyyeti-var
**14.** Niyaz Niftiyev, “Azərbaycanda Birgəyaşayış və Multikulturalizm”, Bakı, 2015.
**15.** Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici Əlaqələr şöbəsinin müdir müavini, “İslam həmrəyliyi müsəlman dünyasının xilasıdır”, www.salamnews.org, 28 Mart 2017 (http://salamnews.org/az/news/read/264097/islam-hemreyliyi-muselman-dunyasinin-xilasidir--dovlet-komitesi/)
**16.** Sakit Hüseynov, Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik, Bakı-22 “Təknur” -2012.
**17.** Siyavuş Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri, YAP İcra katibinin müavini, “Heydər Əliyev Azərbaycanı multikulturalizmin və İslam həmrəyliyinin mərkəzinə çevirdi”, Azərbaycan.- 2017.- 9 may.
**18.** Sona Vəliyeva, Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası, “Azərbaycan” nəşriyyatı, 2003.
**19.** Z.M.Bünyadov, akademik, V.M.Məmmədəliyev, akademik, Qurani-Kərim (tərcüməsi), “Çıraq”, Bakı, 2005.

*Ərəb dilində:*

**20.** القران الكريم

**21.** البرديجي، الحافظ أبو بكر أحمد بن هارون البرديجي (المتوفى 914/301)، كتاب الكبائر، تحقيق: د. محمد بن تركي التركي

**22.** السمعاني، أبو سعيد عبد الكريم بن محمد السمعاني(المتوفى 562 هـ)، الأنساب، تعليق عبدالله البارودي، الطبعة الأولى، بيروت: دار الكتب العلمية، 1408 – 1988م

**23.** محمد راتب النابلسي، كتاب ومضات في الإسلام – الباب الرابع - الفقرة (2-4) : خطبة حجة الوداع

**24.** ياقوت الحموي، شهاب الدين أبو عبد الله ياقوت بن عبد الله الحموي (المتوفى 626 هـ)، معجم البلدان، تحقيق فريد الجندي، الطبعة الأولى ، بيروت: دار الكتب العلمية، 1410ھ

***İnternet resursları:***

**25.** http://multiculturalism.preslib.az/az_a1.html

**26.** https://azertag.az/xeber/Menevi_Deyerlerin_Tebligi_Fondunun_yaradilmasi_haqqinda_Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1101382

**27.** https://az.trend.az/azerbaijan/politics/2436713.html

**28.** https://azertag.az/xeber/Istanbulda_Islam_Amekdasliq_Teskilatinin_Quds_meselesi_ile_bagli_fovqelade_Zirve_toplantisi_kechirilib_Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Zirve_toplantisinda_istirak_edib_YENILANIB_VIDEO-1120633

**Leyla Məlikova**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir*
*tarixi şöbəsinin aparıcı elmi işçisi*

# IV FƏSİL
# İSLAM HƏMRƏYLİYİ – YENİ DÜNYA SİSTEMİNDƏ ALTERNATİV TƏŞƏBBÜS KİMİ

## Giriş

"İslam həmrəyliyi" konsepsiyasını müasir dövlətlər və xalqlar arasında münasibətlərin dünya sistemi kontekstində dünyanın müasir ictimai quruluş qarşısında alternativ olaraq hansı təkliflərlə çıxış etdiyini aşkarlamaq məqsədi ilə tədqiq edərkən müasir dövrdə "islam həmrəyliyi" konsepsiyasını təşkil edən bəzi əsas anlayışlar və komponentlərin məzmununun müəyyənləşdirilməsi zərurəti meydana gəlir. O cümlədən bu anlayışın dini-mənəvi, siyasi, iqtisadi, coğrafi, mədəni aspektlərini də müəyyən etmək vacibdir. Aydın məsələdir ki, son vaxtlar dünya siyasətində baş verən və bütün müsəlman dünyasına təsir göstərən qloballaşma proseslərini[206] nəzərə almadan bu problemin təhlili mümkün deyil.

Dəqiqləşdirək ki, islam alternativindən (*əl-bədil əl-islami*) bəhs edərkən biz Qərb sivilizasiyasının neoliberal dəyərlərinin post-

---

[206] Qeyd edək ki, "qloballaşma" anlayışının məzmunu müasir elmdə hələ də öz dərkedilməsi mərhələsindədir. Bu məqalədə biz qloballaşmaya yanaşmamızda onun ərəb dünyasına və ümumiyyətlə, müsəlman dünyasına çağırışları kontekstində əsaslanırıq.

modern paradiqmasına əsaslanan, müasir qlobal dünya quruluşunun ümumi axınında fəaliyyət göstərən və müsəlmanların həyatlarının bütün aspektlərini əhatə edən islami inkişaf modelini nəzərdə tuturuq.

Müsəlman həmrəyliyi ideyasına gəldikdə isə qeyd etmək lazımdır ki, tarix boyunca islam dünyasında konsolidasiya ideyası özündə həmişə siyasi ideologiya komponentini daşımışdır və müsəlman dünyasının olduqca böyük bölgələrinin ümumi şəkildə təyin edilməsi üçün əsas amilə çevrilmişdir.

Müasir elmdə bu ideya əksər hallarda olduqca yayğın və çoxcəhətli "islamçılıq" və yaxud "islamizm" [207] termini ilə ifadə edilir və bundan əvvəl öz növbəsində "pan-islam/çılıq(izm)" terminindən də istifadə edilirdi. Fikrimizcə, bu terminlərin hər ikisi islama qarşı olduqca sadələşdirilmiş və qərəzkar yanaşmanı əks etdirir. Burada belə fikirlə razılaşmaq olar ki, "islam/çılıq(izm) termini qavrayış üçün ona görə rahat deyil ki, digərlərindən yaxşıdır. Sadəcə, onun tərkibində hər kəs üçün başa düşülən "islam" kökü var; o, belə desək, daha həcmlidir, çünki dərhal üç komponentdən ibarətdir – dini, ideoloji ("izm") və siyasi fəaliyyət – və üstəlik, əlavə izahat tələb etmir..." [208]. Bu anlayış çərçivəsində bu gün ən müxtəlif terminlərlə tərif edilən bir çox fərqli, o cümlədən radikal olmayan və hətta "panislamçılığın" özünə müxalif olan islami siyasi konsepsiya və ideologiyalar mövcuddur (məsələn, avro-islam, mötədil islam, *əl-vəsətiyyə* (orta yol), *əs-səhvət əl-islamiyyə*

---

[207] "İslamizm" termininin məzmunu haqqında daha ətraflı, bax.: Г.Н.Валиахметова. Исламский фактор в мировой политике. Курс лекций. Екатеринбург. «Изд.-во Уральского Университета»: 2013. S. 27-28.

[208] Малашенко А.В. Исламская альтернатива и исламистский проект. Издательство «Весь Мир», Москва: 2006. 221 с. S. 17.

(islam oyanışı), *ən-nəhdət əl-islamiyyə* (islam dirçəlişi) və s.). İslam tarixində vahid nəzəri platforması olmayan (yəni dünyagörüşü standartı, idarəetmə konsepsiyası) bu inteqrasiya edici gücün və ya ideologiyanın üzərində mövcud olan konsepsiyalar çox vaxt alternativ, biri-birinə zidd olan və nəinki islam dünyasının, hətta qlobal miqyasda dünya nizamını yenidən təşkil etməyi nəzərdə tutan layihələri müdafiə edirlər.

Baxmayaraq ki, islam faktoru və islamın coğrafi arealı dünya siyasəti hadisələrində demək olar ki, əsas rol oynayırlar, məlum səbəblərə görə yeni dünya nizamı sisteminin hazırkı transformasiyası şəraitində islam həmrəyliyi faktoru dünya siyasətinin prioritet istiqamətlərindən deyil. Bu, Qərbin və islamın bir-birlərini öz identikliklərinə təhlükə kimi qəbul etməsi paradoksu ilə bağlıdır.

Lakin bu, o demək deyil ki, qloballaşma müsəlman dünyasının maraqlarında deyil, əksinə qloballaşma onun ən zəruri sosial-siyasi və iqtisadi ehtiyaclarını ödəməsinin xeyrinə gedərdi. Ancaq əsas problem budur ki, dünyada hökmranlıq  edən qüvvələr islama qloballaşmanı yalnız modernləşmə şəklində təklif edirlər. Modernləşməyə qarşı isə islam doktrinal səviyyədə özünün universalist bütövlüyü səbəbindən bidətlər və yad təsirlərə qarşı tarix boyu davamlı olaraq, həmişə müqavimət göstərmişdir. Və bu, fikrimizcə, ona görə baş verir ki, "modernləşmə" daha çox "qərbləşmə"ni, "liberallaşma"nı nəzərdə tutur. "Modernləşmə" müsəlmanların həyatlarının müxtəlif aspektlərinin islahı ilə deyil, islam dininin təməl əsaslarının islahetmə cəhdləri ilə müşahidə olunur, bu isə islam üçün heç bir şəkildə qətiyyən qəbuledilməzdir. Fikrimizcə, islam "modernizm"ini islam islahatçılığından fərqləndirən əsas və ciddi amil məhz budur. Məşhur fransız alim Olivye Rua qeyd etdiyi kimi

"onların (müsəlmanların –M.L.) problemi modernləşmənin rədd edilməsi deyil, modernləşmənin islamlaşdırılmasıdır" [209]. Onu da qeyd edək ki, bu məsələ ilə bağlı elmi təsnifatlarda da vəziyyət birmənalı deyil. Bəzi yanaşmalar islamda "modernləşmə" proseslərinin və "modernistləri" təhlil edərkən, yanlış ümumiləşdirmələrə yol verirlər. Bunun nəticəsində, məsələn, şiə fikrindən qaynaqlanan İran mənşəli məşhur amerikalı alim Əbdülkərim Soruş və məsələn, islamda müasir sünni fikrinin görkəmli təmsilçilərindən biri olan misirli alim şeyx Yusif əl-Qərdavi kimi mütəfəkkirlərin hər ikisi islam "modernistlər"i kimi təsnif olunur.

Qloballaşmanın islam dünyasına təsirinin artması ilə islam yeni çağırışlara və təhdidlərə öz kollektiv cavablarını hazırlamağa çalışacaqdır. Bu hansı növ cavablar olacaq, islam dünyasında Qərblə münasibətlərdə ortaq mövqelərdən çıxışlar istiqamətində meyillərin güclənməsini, maraqlarının birgə müdafiə edilməsini, məqsəd və prioritetlərin ümumi sisteminin qurulmasını gözləməyə dəyərmi, yoxsa bu proseslər getdikcə "neo-islamçılığın" döyüşçü, cihadçı ruhu axınında cərəyan etməyə davam edəcək? Bunları zaman göstərəcək. Lakin aydın məsələdir ki, əqli zərurət dünya müsəlmanlarına bütün ixtilafları qırağa qoyaraq dövrün real çağırışları və tələblərini, eləcə də özlərinin zəruri ehtiyaclarını dərk edərək islam həmrəyliyi ideyası ətrafında səfərbər olmağı diktə edir.

Bu gün islam dünyasında inteqrasiya proseslərinin artması fonunda islam faktorunun həm dünya siyasətində, həm də iqtisadiyyatında artmasını qeyd etməmək mümkün deyil. Bu səbəbdən qloballaşan maliyyə sisteminin tərkibinə onun üçün tam yeni olan –

---

[209] Ближний Восток и современность. Сборник статей (выпуск семнадцатый). Институт Востоковедения РАН. Институт изучения Израиля и Ближнего Востока. Москва: 2003, 398 с. S. 30.

islam bankçılığı kimi bir ünsür artıq daxil olub. Müasir islam dünyasında əsaslarında dini birlik ideyasına söykənən çoxsaylı beynəlxalq təşkilatlar səviyyəsində siyasi birləşməyə meyillər müşahidə olunur. Bu növ təşkilatlar sırasında İƏT (İslam Əməkdaşlıq Təşkilatı), İslam İnkişaf Bankı, İslam Beynəlxalq Qızıl Aypara Komissiyası, İSESCO (İslam Təhsil Təşkilatı, Elm və Mədəniyyət Təşkilatı), İslam Ticarət və Sənaye Palatası, İslam Gəmi sahibkarlığı, İslam İdman Həmrəyliyi Federasiyası, Beynəlxalq Müsəlman Alimləri Birliyi və digər təşkilatları sadalamaq olar. Bütün bu təşkilatlar Qərbin beynəlxalq hüququ sisteminin normalarına alternativ olan və islam hüququ normalarına əsaslanan beynəlxalq mahiyyətli sənədləri hazırlayıb təsdiq edirlər. Ancaq əslində onlar artıq mövcud olan beynəlxalq təşkilatların fəaliyyətini təkrarlayırlar. Təəssüflər olsun ki, müsəlmanların həmrəylik təşəbbüsünü bu növ rəsmi surətdə təşkil etmək cəhdləri reallıqda, nadir istisnalar olmaqla, hətta bir ciddi münaqişənin də həllinə təsir edə bilməmişdir. Müsəlman həmrəyliyi ideyasının praktiki təcrübədə həyata keçməsinə islam aləmini parçalayan, təfriqəyə məruz qoyan dərin ziddiyyətlər maneçilik törədir.

Müasir islamın demək olar ki, bütün istiqamətlərində Qərbin təkliflərinə alternativ olan sosial-siyasi və iqtisadi quruluş formalarının axtarışı prosesinə baxmayaraq, islam alternativi ideyası özünün bütün ideoloji variantlarında hələ də istənilən nəticə verməmişdir. Həmin məsələnin xüsusiyyətləri, onun müsbət və mənfi cəhətləri müxtəlif mövqelərdən hazırkı araşdırmada nəzərdən keçirilir. Eləcə də islam həmrəyliyi məsələsinə dair tənqidi yanaşmalara nəzər salınır.

## 1. İslam həmrəyliyi ideyası – qlobal tarix və Şərq-Qərb münasibətləri kontekstində

Etiraf etmək məcburiyyətindəyik ki, dünya tarixinin hazırkı mərhələsində qlobal tarixin aparıcı oyunçuları istər beynəlxalq münasibətlər sahəsinin, istərsə də dünya siyasəti və iqtisadiyyatı sahələrinin bütün idarəetmə və nəzarət mexanizmlərinin açarlarını əllərində cəmləşdirən Qərbdəki böyük dövlətlərin nümayəndələridir. Bunun bir çox səbəbi var, o cümlədən obyektiv-tarixi. Lakin bu məsələyə Şərq sivilizasiyalarının və xüsusən islam aləminin təmsilçilərinin gözləri ilə baxsaq demək olar ki, onların təsəvvürlərində "qloballaşma" müstəmləkəçiliyin sadəcə yeni bir forması kimi çıxış edir, onun məqsədi isə əvvəlki kimi – Şərq ölkələri üzərində hərtərəfli və hər şeydən əvvəl maliyyə-iqtisadi cəhətdən üstünlük təşkil etməkdir. XX əsrin görkəmli islam mütəfəkkiri, mərhum professor İsmayıl əl-Faruqinin digər islam alimi Əbdülhəmid əbu Süleymanın kitabına yazdığı müqəddiməsində qeyd edilir ki, "İkinci Dünya müharibəsindən sonra... yeni güclər Avropa müstəmləkəçiliyini əvəz etdilər, Yer kürəsinin hər bir nöqtəsində nüfuz sahibi oldular" [210]. Qərbin "Ümumdünya cəmiyyəti" ideyasını əsaslı şəkildə tənqid edərək və ona alternativ olaraq islamın çağırış etdiyi ümumdünya sistemini yeddi bənddə şərh edən əl-Faruqi hesab edir ki, "Beynəlxalq qanunlar və ya ümumdünya sistemi sahəsində Qərb fikri olduqca kasaddır. Belə ki, bəzi ənənələr istisna olmaqla ümumdünya sisteminə Qərbin "töhfə"si müəyyən

---

[210] Əbdülhəmid əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri. "İdrak", Bakı: 2014. 299 s. S. 29.

müqavilələr və güc tətbiqetmə hallarından ibarətdir" [211]. "Qərb fikrinin məhsulu sayılan və son iki əsr ərzində əsas götürülən indiki ümumdünya sistemini yaşatmaq mümkün deyildir. Ya bu sistem yox olmalı, ya da sivil formada dəyişdirilib bəşəriyyətin arzu və maraqlarına cavab verməlidir... Yəni.. yeni ümumdünya sistemi qurmaq lazımdır. Lakin bəşəriyyət mədəni islam irsi istisna olmaqla yeni ümumdünya sisteminə dair heç bir fikir mirasına sahib deyildir" [212].

Vaxtı ilə Orta əsrlərdə (VIII əsrin ortalarından başlayaraq XIII əsrin ortalarına qədər) öz "qızıl əsrini" yaşamış və dünya elminin, mədəniyyəti və incəsənətinin tərəqqipərvər mərkəzi olmuş böyük sivilizasiyanın mirasının varisləri olan müsəlmanlar şüuraltı olaraq indiyədək ovqattəlxlik hissi keçirirlər və bir həqiqətin gecikmiş dərkedilməsi ilə barışa bilmirlər ki, "dar əl-hərb" torpaqlarında yaşayan "kafirlər" həm hərbi, ictimai-siyasi, həm də iqtisadi cəhətdən onlardan olduqca qabağa getməyi bacarmışdırlar. Məhz bu faktın tədricən XVIII əsrin sonundan başlayaraq və nəhayət, XIX əsrdə kədərli dərkedilməsi məqamından "islam həmrəyliyi" adlanan konsepsiyanın formalaşması tarixi şərti olaraq öz başlanğıcını götürür. İslam dünyasında ciddi daxili dəyişikliklərə səbəb olan islam mədəniyyətinin qloballaşması meyilləri artıq XVII əsrdən etibarən güclənir. Bu növ dünyagörüşünün formalaşması nəticəsində müsəlman cəmiyyətlərinin diqqəti mərkəzində xarici çağırışlara cavab axtarmaq, Qərbdən geriliyi aradan qaldırmağa yönəlmiş inkişaf variantlarının hazırlanması kimi məqsədlər yer alır. "İslam həmrəyliyi" konsepsiyası məhz bu məqsədlərin ətrafında formalaşmağa başlayır. Yuxarıda qeyd etdiyimiz kimi elmdə bu ideyanın ifadəsi üçün

---

[211] Yenə orada, s. 35.
[212] Yenə orada, s. 37-38.

ən geniş istifadə edilən “islamçılıq” terminidir. “İslamçılıq” həm bir konsepsiya, həm bir təzahür kimi müxtəlif mədəni, ideoloji, sosial, siyasi, dini aspektləri, həmçinin dini-siyasi hərəkət və cərəyanlar dairəsini əhatə edir. Öz mahiyyətinə görə islamçılıq elə həmin o siyasi ideologiyadır ki, bütün lazımi – islam dövləti, iqtisadiyyatı, şəriət əsasında qurulmuş hüquqverici sistemi və digər atributlarına malik olan dünya quruluşunu qlobal islam alternativi şəklində dünyaya təklif edir. Bu da tamamilə məntiqidir, çünki islam özünü təməl ünsürlərindən biri *ümmət* anlayışı olan qlobal din kimi (bu da Quranda dəfələrlə qeydə alınıb) [213] qəbul edir. Heç bir etnik və dövlətlərarası sərhədləri olmayan və birləşdirici amil kimi ümumi dini-mənəvi və mədəni-ideoloji məkan olacaq dünyanın alternativ qlobal dəyişdirilməsi üzrə müxtəlif islamçı layihələri də, məhz bu platformanın üzərində qurulurlar. Baxmayaraq ki, bu layihələrin ideoloqları və nəzəriyyəçiləri məsələyə dair yanaşmalarına və alternativ islam dünyası modellərinin həyata keçirilməsi üzrə təklif etdikləri konkret üsullara görə fərqlənsələr də, “islamın sənaye baxımından inkişaf etmiş Avro-Amerika dünyasının ekspansiyasına qarşı çıxan inteqrasiyalaşmış sosial-siyasi, sosial-iqtisadi, sosial-mədəni sistem olması tezisinə əsaslanan müsəlman icmasının planetar birliyi konsepsiyasını siyasətdə istifadə etmək” niyyəti onlar üçün ümumi olaraq qalır. “Bu günə o, islam həmrəyliyi formasını alıb” [214].

---

[213] Məsələn, bax.: Quran: surə 7- «əl-Əraf» (Sədd), ayə 158; surə 21- «əl-Ənbiya» (Peyğəmbərlər), ayə 107; surə 25 - «əl-Furqan» (Fərqləndirmə), ayə 1; surə 34 - «Səba», ayə 28; surə 2 - «əl-Bəqərə» (İnək), ayələr 21, 168; surə 4 - «ən-Nisa» (Qadınlar), ayələr 1, 170, 174; surə 10 - «Yunus», ayələr 23, 57, 104, 108; və s.

[214] Левин З.И. Общественная мысль на Востоке: постколониальный период. «Восточная литература» РАН, Москва: 1999. S. 196.

Elmdə "panislamizm" kimi tərif edilən müsəlman xalqlarının dini-siyasi birliyi ideyasını ilk dəfə XIX əsrin ikinci yarısında Cəmaləddin əl-Əfqani (1839 – 1897) əsaslandırmışdır[215]. Bütövlükdə, panislamçılığın əsasını təşkil edən müstəmləkə asılılığına qarşı dini alternativ konsepsiya XX əsrin əvvəllərində milli azadlıq mübarizəsi üçün müəyyən mütərəqqi potensiala malik idi. Panislamçılıq "məqsədi Quran prinsiplərinin həyata keçirilməsi olan islam aləminin (*dar əl-islam*) vahid qüdrətli bir qruplaşmada birləşməsi..." kimi təyin edilirdi [216].

Nəzərdən keçirilən sahədə ən yeni əsərlərdən biri olan – Şimali Karolina Universitetinin (ABŞ) professoru Cəmil Aydının "Müsəlman dünyası ideyası. Qlobal intellektual tarix" adlı kitabına yazılmış resenziyada çox doğru qeyd olunur ki, həmin tədqiqatda "Qərb hegemonluğu qarşısında "müsəlman dünyasının məzlumluğu" haqqında geniş yayılmış stereotipə baxmayaraq, XIX əsrin ortasında "islahatlaşan müsəlmanlar («reformist Muslim») özlərini Avropa ekspansiyasının qurbanları kimi dərk etmirdilər, hətta özlərini daha çox yeni idarəedicilik təcrübələrin alıcıları və agentləri hesab edirdilər". Artıq onda Qərb və müsəlman dünyasının sonrakı qarşıdurmasına sivilizasiya komponenti daxil olunur: sivilizasiya ayrıca bir xalqın mədəniyyəti kimi deyil, "bütün bəşəriyyətə əlverişli olan mövcudluğun yetişdirilmiş modeli" kimi qavranılırdı... O məqamda müsəlman xalqlarına sivilizasiyanın belə başa düşülməsinə müraciət etmək rahat olmuşdur. Aydının fikrincə, daha vacibi odur ki, sivilizasiyanın məhz belə başa düşülməsi əsasında müsəlman həm-

---

[215] Гасанова Э.Ю. Идеология буржуазного национализма в Турции. Баку: 1966. 161 с. S. 31-32.
[216] Жданов Н.В. Исламская концепция миропорядка. «Международные отношения», М.: 2003. 568 с. S. 11.

rəyliyi ideyalarının real həyata keçirilməsi baş verirdi, "transmilli müsəlman identiklikləri" yaranırdı. Bu nə ilə ifadə olunurdu? Cəmaləddin əl-Əfqaninin və Məhəmməd Əbduhun əsərlərinin populyarlığında. 1898-ci ildən 1935-ci ilə qədər Misirdə nəşr edilən və uzun müddət ərzində baş redaktoru Rəşid Riza olan  Əl-Mənar jurnalının geniş yayılmasında. Bütün bu ideyaların real siyasi layihələrdə, məsələn, 1880-ci ildə Sudanda baş vermiş mehdiçilik qiyamında gerçəkləşməsi ilə ifadə olunurdu" [217]. Əlavə edək ki, C.Aydın həmçinin qeyd edir ki, panislamçılıq diskursu Osmanlı dövlətində müsəlman ziyalılarının mühitini də qidalandırırdı, xüsusən Osmanlı dövləti üçün bütün dünya müsəlmanlarının mənəvi xilafət statusunu əldə etməyə çalışan Sultan Əbdülhəmid II hakimiyyəti dövründə. C.Aydın vurğulayır ki, "Sultan Əbdülhəmid tərəfindən osmanlı mənəvi suverenliyinin irəlilətməsi müsəlman dünyasının geosiyasi obrazını yeni imperializm dövründə möhkəmlətmişdir. Panislamçılığın bu versiyası Avropa imperiyalarına qarşı cihad deyildi. Əksinə, o, xarici müsəlmanların imperiyaya, xüsusilə də tac və xəlifəyə ikiqat sadiqliklərini işlədərək Osmanlı imperiyasının suverenliyinin təmin edilməsinə yönəlmişdir" [218]. Lakin müəllif təəssüflə etiraf edir ki, "Xilafətin ləğv olunması osmanlı modernizminin modelinə bağlanmış yarım əsrin qlobal siyasi fikrinə son qoydu" [219].

"Şərq – Qərb" kontekstində baş verən qlobal diskussiyalarda çox nadir hallarda etiraf edilir ki, "müsəlman dünyası" ideyası və "islam sivilizasiyası" anlayışı – müasir konsepsiyalardır. Onların

---

[217] ISLAMOLOGY. Журнал исследований ислама и мусульманских обществ. «Фонд поддержки и развития научных и культурных программ имени Ш. Марджани», Москва: ТОМ 7, №1, 2017. S. 216-217.
[218] Aydin Cemil. The idea of the Muslim world: a global intellectual history. Cambridge, Massachusetts Harvard University Press: 2017. 304 p. S. 97.
[219] Yenə orada, s. 130.

yaranma tarixini yalnız XIX əsrin ikinci yarısına aid etmək olar. Bu kontekstdə "islam sivilizasiyası" konsepsiyasının məzmununu müəyyən etmək lazımdır, bu da öz növbəsində onun artıq VII əsrdən bəri Avropa və ümumiyyətlə, Qərb sivilizasiyası ilə ən sıx şəkildə əlaqəyə girərək inkişaf etmiş, formalaşmış və fəaliyyət göstərmiş "islam identikliyi" kimi bir tərkib hissəsinin konkretləşdirilməsini tələb edir. Bu halda başa düşmək lazımdır ki, islam sivilizasiyasının və identikliyinin təşəkkülü tarix boyunca öz xüsusiyyətlərinə malik olan dərin ziddiyyətli və ağrılı proseslər ilə müşayiət olunurdu və həmin şəkildə bu günə qədər də davam edir. Şərq-Qərb dixotomiyası kontekstində tarixi arenada mövcud olan qüvvələrin yerləşdiyi mövqelər dəyişdikdə bu ağrılı ziddiyyətlər həmin tarixi mərhələlərdə özünü büruzə verirdi. Eləcə də nəzərə almaq lazımdır ki, islam identikliyinin və ya daha doğrusu, onun müxtəlif formalarının axtarışı və özünütəsdiqi müasir qloballaşan dünya şəraitində, həmçinin ərəb dünyasında baş vermiş müasir böhranların gedişatı nəticəsində daha da mürəkkəbləşmişdir.

Hələ ötən əsrin 80-ci illərində tanınmış din antropoloqu Təlal Əsəd islamın ənənəvi baxımdan müxtəlifliyi haqqında yazırdı: "Fərqli dövrlərdə, yerlərdə və fərqli əhalilərə malik olan ənənəvi islam təcrübələrinin müxtəlifliyi fərqli sosial və tarixi şəraitə davam gətirməyi bacara bilən və ya bilməyən müxtəlif islam düşüncələrinə işarə edir. Ənənələrin mahiyyətcə homogen olduğu haqqında ideya güclü intellektual cazibəyə malikdir, ancaq səhvdir... İslam ənənələri homogen olmasalar da, bütün diskursiv ənənələrə məxsus olduğu kimi onlar yekdilliyə can atırlar. Onların həmişə buna nail ola bilməməsi, ənənələrin yer aldığı siyasi və iqtisadi

şərait məhdudiyyətləri, eləcə də öz çərçivələri ilə bağlıdır" [220]. Beləliklə, vahid islam identikliyinin mövcudluğu barəsində bəhs etmək zamanımız üçün də yanlış olardı. Üstəlik, onu da qeyd edək ki, bu və bir çox digər səbəblərdən hazırkı mərhələdə islam identikliyinin təşəkkülünü yalnız Qərb sivilizasiyası ilə əlaqədar olaraq deyil, digər mövcud mədəniyyətlər, həmçinin, bütövlükdə ümumbəşəri sivilizasiya kontekstində də nəzərdən keçirmək zəruri olardı.

Bu baxımdan 1880-ci illərdən etibarən və 1930-cu illərə qədər "müsəlman dünyası" panislamist konsepsiyasına məxsus olan dörd vacib aspekti göstərən C.Aydının yanaşması maraq doğurur. Alim hesab edir ki, müasir transmilli müsəlman fikri və identikliyi məhz bunların əsasında formalaşmışdır. Birinci aspektin mahiyyətini müəllif "islam sivilizasiyası haqqında yeni diskursun və ona müvafiq olaraq demək olar ki, vahid irqçilik kimi müsəlman dünyası ideyası"nın məzmununa gətirib çıxarır. Buna əsasən "islam sivilizasiyası yunan irsini miras alaraq, onu rasional və humanist islam dəyərləri ilə birləşdirdi və öz qızıl əsrinin hesabına müasir Qərbin meydana gəlməsinə səbəb oldu". Panislamist diskurslarının ikinci vacib ümumi aspekti islamla Qərbin münaqişəsinə belə bir baxışındadır ki, burada müasir imperializm dünya tarixinin avroposentrist mənzərəsi ilə əlaqədar olaraq islam islahatçıları tərəfindən islam tarixinin yenidən yazılmasına göstərdikləri maraq işığında xristianların müsəlmanlara hücumları haqqında tarixi normativ ilə uzlaşır. Üçüncü ümumi aspekt müsəlmanların Qərb imperializmi tərəfindən alçaldılmasıdır. Avropa müəllifləri tərəfindən islam həmrəyliyinin ksenofob antiqərbçilik kimi başa düşülməsinə bax-

---

[220] Asad Talal. The Idea of an Antropology of Islam. Occasional Papers Series. Center for Contemporary Arab Studies, Georgetown University, Washington: 1986. S. 16-17

mayaraq, müsəlman ziyalı və islahatçıları "ya Qərbə qarşı hər hansı mürtəcelik ittifaqının mövcud olmasını inkar edirdilər və yaxud da bunun imperiya dünya nizamının əsassız hökmranlığının aradan qaldırılması üçün yeganə yolu olduğunu qeyd edirdilər". Transmilli panislamçı diskursunun dördüncü ümumi cəhəti kimi C.Aydın qeyri-müsəlman Asiya cəmiyyətlərini əhatə edən beynəlmiləlçiliyi göstərir. Buna əsasən qeyri-müsəlman asiyalılar panislamçı diskursları dəstəkləyərək Yaxın Şərqi və qeyri-müsəlman Şərqi Asiyanı (Yaponiya və Çin) ümumi Asiya-Şərq identikliyi anlayışı ətrafında birləşdirdilər və nəticədə onların "alternativ beynəlmiləlçiliyi" yarandı. Alim qeyd edir ki, bütün müasir qlobal Qərb layihələri "nadir hallarda siyasi cəhətdən həddindən artıq yüklənmiş "islam" və "xristian-Qərb" sivilizasiyasının terminləri haqqında düşünərək hələ də, elə həmin epistemoloji struktura söykənirlər" [221].

Baxmayaraq ki, bu gün XXI əsrin əvvəlində islam dünyasının konsolidasiyası ideyası dinin birliyi və Qərbə özünü qarşı qoymağa əsaslanırsa da, fikrimizcə, Qərb qloballaşma layihəsinin qarşısında dayanmış hansısa bir real müasir "islam qloballaşması" layihəsi haqqında bəhs etmək mümkün deyil. Məsələn, əsərlərində "islam millətçiliyi" fenomenini tədqiq edən qabaqcıl amerikalı nəzəriyyəçilərdən biri – antropoloq Klifford Girts belə hesab edir ki, "Əlbəttə, qloballaşmaya təkan da mövcuddur, islamın qlobal yayılmasına da... lakin bu həmin dinin təbiəti ilə bağlıdır... Ancaq müəyyən strukturdan danışsaq... bəzən, məsələn, VII əsrdə islam çox sürətlə yayılsa da, hesab etmirəm ki, "layihə" mövcuddur. Hətta bizim

---

[221] Aydin Cemil. Global Identity of the Muslim World: The Legacies of the Late 19th Century Intellectual History. // AMSS 38th ANNUAL CONFERENCE "Islamic Traditions and Comparative Modernitites" Cosponsored by: The University of Virginia, Charlottesville, VA September 25-26, 2009. S. 14-18.

dövrdə də, fikrimcə, "layihə" haqqında danışmaq olmaz". "Əl-Qaidə" kimi hərəkatların mövzusuna toxunaraq alim qeyd edir ki, onların strukturu "olduqca boşdur" və "diffuzdur". Alim hesab edir ki, islami hərəkatların məhz bu səciyyəsi onlara "qloballıq" verir [222].

Rusiyalı alim A.İqnatenko da eyni fikirdədir ki, "hazırda islamçılığın vahid qlobal uzlaşdırıcı mərkəzi qeyri-mövcuddur. İslamçılıq hərəkatının nisbi birliyini ideoloji olaraq islamın özü təmin edir" [223].

Öz məşhur "Siyasi islamın iflası" kitabında Olivye Rua (Oliver Roy) yazır: "Lap əvvəlindən biz islamı üç coğrafi və mədəni tendensiyalara bölünmüş olaraq sayırıq: sünni ərəb Yaxın Şərqi, sünni hind subkontinenti və İran-ərəb şiəliyi; ərəb dünyasından təcrid olunmuş Türkiyə öz təşkilatlarına malikdir. Bu qruplar siyasi baxımdan olduğu kimi coğrafi baxımdan da fərqlənirlər və ona görə islamçı nüfuz dairəsi haqqında bəhs etmək daha düzgün olardı, nəinki beynəlxalq birlik haqqında"[224].

Lakin rusiyalı islamşünas A.V. Malaşenkonun belə bir yanaşması mövcuddur ki, ona əsasən islam alternativi dörd – lokal, milli, regional, qlobal səviyyələrdə mövcud olan çoxqatlı "islamçı layihəsi"ndə konkretləşmişdir. "Məhz dini mənada bu növ stratifikasiya şərtidir, çünki birincisi – hər səviyyədə eyni vəzifə qoyulur – islam

---

[222] Islam, Modernity, Nationalism: Interview with Clifford Geertz // Перевод интервью Сергея Глебова для журнала Ab Imperio 3 (2004), с. 91-111. http://islamoved.ru/2016/islam-modern-natsionalizm-intervyu-s-kliffordom-girtsem/

[223] Игнатенко А.А. От Филиппин до Косово: Исламизм как глобальный дестабилизирующий фактор // Независимая газета, 2000-10-12. http://www.ng.ru/ideas/2000-10-12/8_islam.html

[224] Olivier Roy. The Failure of Political Islam, Harvard University Press: 1994, 238 p. S. 2.

dövlətinin bərqərar olunması (dövlət yaratmaq mümkün deyilsə, islam məkanı yaratmaq) və islam cəmiyyətinin formalaşdırılması; ikincisi hər yanda eyni ideoloji stereotiplər yer alır” [225]. “İslamçı layihəsinin dörd səviyyələri arasında ideoloji və işgüzar qarşılıqlı asılılıq və əlaqə mövcuddur” [226]. Öz mülahizələrinə Malaşenko amerikalı alim Vartan Qreqoryanın islamçıların “amorf”, lakin “qarşılıqlı fəaliyyət məkanı” olan və “öz həmfikirlərinin bir çox müsəlman ölkələri və cəmiyyətlərində konfederasiyasını” yaratmaq cəhdləri haqqında olan sözləri ilə dəstək verir.

Fikrimizcə, rusiyalı alimin yuxarıda göstərilən yanaşması kifayət qədər qərəzli və sadələşdirilmişdir. Təqdim olunmuş təsnifatla razılaşmaq – islam alternativi konsepsiyasını sadəcə çox vaxt bir-birləri ilə münaqişədə olan, lakin buna baxmayaraq, “məqsəd vasitələrə haqq qazandırır” kredosu ətrafında birləşmiş radikal islam qruplaşmalar, hərəkatlar və müxtəlifyönlü cərəyanların yığnağı kimi qəbul etmək deməkdir, məqsəd kimi isə burada müəllifə görə vahid “islam məkanı” yaratmaq ideyası çıxış edir. Özü-özlüyündə bu artıq islam hərəkatlarına malik olmayan konsolidasiyanı nəzərdə tutur, bundan savayı desək, əgər belə bir “layihə” mövcud olsaydı, islam dünyasında onun həyata keçirilməsi üçün heç olmasa azdan-çoxdan mərkəzləşdirilmiş bir idarəetmə mexanizmləri olmalı idi. Bunu isə A.Malaşenkonun özü də utopiya hesab edir. Bu növ çoxsəviyyəli “islamçı layihəsinin” mövcudluğunun qəbul edilməsi həmçinin avtomatik surətdə bütün müsəlman dünyası tərəfindən müasir cihadçı qruplaşmalara məsələn, “Əl-Qaidə”, İŞİD, “Cəbhə ən-Nüsrə”, “Əhrar əş-Şam” və ya “Hizbullah” kimi (yeri gəlmiş-

---

[225] Малашенко А.В. Исламская альтернатива и исламистский проект. Издательство «Весь Мир», Москва: 2006. 221 с. S. 67.
[226] Yenə orada, s. 72.

kən, bir-birinə qarşı düşmən mövqelərdə olan) riyakar şəkildə yardım və dəstəkvermə (passiv və ya aktiv) faktının tanınmasına çevrilərdi. Rusiyalı alim "qlobal islamçı layihəsinin yaradıcıları", "qlobal islamçılar" obrazını "ümumbəşəri cihad yaradıcıları"nın obrazı ilə bərabərləşdirir və "qlobal dördüncü səviyyədə" fəaliyyət göstərən terroristlərlə eyniləşdirir [227]. Fikrimizcə, məsələyə bu növ yanaşma ümumiyyətlə, heç bir tənqidə davam gətirmir. Çünki hamıya məlumdur ki, terror nə dini, nə də milli mənsubiyyətə malik deyil. Gətirilmiş yanaşmada nümayiş etdirildiyi kimi, "Qlobal islamçı layihəni" islam radikallarının "bəşəri cihad" ideyasına çıxarmaq şüurlu şəkildə müasir "islamofobiya" isteriyasının "dəyirmanına su tökmək" deməkdir və alimlərə yaraşmır.

Digər alimlər qeyd edirlər ki, beynəlxalq terrorçulara *ümmət*in adından və guya onun naminə çıxış etməyə islam identikliyinin eksterritorial aspekti imkan yaradır. Baxmayaraq ki, islamın bir çox görkəmli dini xadimləri və adi nümayəndələri özlərini həmin terroristlərlə identikləşdirməkdən imtina edirlər [228].

Nüfuzlu ərəbşünas, tarixçi və politoloq G.Mirskinin (hazırda mərhum) fikrinə görə islam ekstremistləri geridə qalma, yaşayış səviyyəsinin aşağı düşməsi, yoxsulluq, işsizlik, Asiya və Afrika kütlələri arasında və xüsusilə, ərəb dünyasında narazılıq kimi sosial amillərdən istifadə edirlər. Bütün fəlakətlərdə dünənki müstəmləkəçi və sahib olan Qərbi günahlandıran "radikal-islamçılar insanlara belə bir fikir aşılayırlar ki, əgər texnoloji cəhətdən dəfələrlə güclü olan düşmənə qarşı bərabər şərtlərdə mübarizə etmək mümkün deyilsə, yeganə təsirli silah terrordur". Lakin G.Mirski

[227] Yenə orada, s. 72-73.
[228] Игнатенко А. Ислам и политика. Сборник статей. Институт религии и политики, Москва: 2004. 256 с. S. 216-222.

qeyd edir ki, təkcə bu faktorlarla islamçı terroru və radikalizmi izah etmək kifayət olmazdı, çünki “lokal mahiyyətli çox vacib bir səbəb mövcuddur. Bu – Yerusəlimdir...”. Alim əmindir ki, özlərini ölümə məhkum edən *şəhid*-terrorçulardan onların nə uğrunda ölmək istədiklərini soruşmaq imkanı olsaydı, məlum olardı ki, “onların imperativi – daha yüksək və daha qlobal xarakterə malikdir; onlar inanırlar ki, onların müqəddəs vəzifəsi – yeganə həqiqi dini parçalayıb partlatmağa, islamı onun mənəvi dəyərlərindən məhrum etməyə, müsəlmanların “ümmətini” bəşəri cəmiyyətin ən aşağı səviyyəsinə endirməyə, müqəddəs Qüdsü müsəlmanların əllərindən həmişəlik qoparmağa çalışan ədalətsiz və təcavüzkar Qərbin hücumundan islamı qorumaqdır. Bunun uğrunda onlar özlərini qurban verməyə hazırdırlar [229] .

Həqiqətən, XX əsrdə müsəlmanların həmrəyliyinə təsir göstərən ciddi bir faktor Yerusəlim (ərəbcə: *Əl-Qüds*, yəni “müqəddəs” deməkdir) problemi və İsrailin işğal etdiyi ərəb torpaqları olmuşdur. Yerusəlimdə bütün dünya müsəlmanları tərəfindən dərin ehtirama malik olan islamın iki müqəddəs yeri – *Məscid Qübbə əs-Səxra* (yəni “Qayanın qübbəsi məscidi”, hazırda mədəniyyət və memarlıq abidəsidir) və *əl-Məscid əl-Əqsa* (yəni “Ən uzaqdakı məscid”). Hər iki abidə Məbəd dağında yerləşir və hazırda *Həram əş-şərif* və ya *Əl-Həram əl-qüdsi əş-şərif*, yəni “Qüdsün müqəddəs məkanı” adlanan vahid memarlıq kompleksini təşkil edir. Məbəd dağı  yəhudilikdə də müqəddəs yer sayılır. Bu islam abidələrinin hər ikisi Məhəmməd peyğəmbərin Məkkədəki *Məscid əl-Həram*dan Qüdsdəki *əl-Əqsa* məscidinə gecə yürüyüşü (*Leylət əl-isra*) və göylərə qaldırılması (*əl-Merac*) hadisələri ilə bağlıdır.

---

[229] Исламская цивилизация в глобализирующемся мире. / Отв. ред. – В.Г. Хорос. ИМЭМО РАН, Москва: 2011. 336 c. S. 116-117.

Müsəlmanlar belə hesab edirlər ki, İsrail Yaxın Şərqdə Qərbin və ABŞ-ın forpostu kimi yaradılmışdır və müqəddəs torpaqlar onların dəstəyi ilə zorla yəhudilər tərəfindən işğal edilmişdirlər. 1967-ci ilin iyun ayında Altıgünlük Ərəb-İsrail müharibəsi (sayca, üçüncüsü) nəticəsində İsrail Şərqi Yerusəlimi qəsb etmişdir. "Əslində, Şərqi Qüdsün işğalının ilk addımlarından İsrail hakimiyyətinin "birləşdirici" siyasəti ərəb əhalisinə qarşı ayrı-seçkilik, təcavüzkar xasiyyətini daşıyırdı. Fələstinlilərin *Əl-Qüdsə* və bütövlükdə *Həram əş-şərif*ə hər hansı bir şəkildə ifadə edilən hüquqlarına riayət etmək tələbləri şərtsiz İsrailin maraqlarına düşmən sayılırdı..." [230]. "Bir neçə əsr ərzində ilk dəfə Yerusəlim üzərində nəzarətin itirilməsi ərəb və müsəlman dünyasını silkələməyə bilməzdi. İsrail hökuməti *Həram əş-şərif*i Yerusəlim Vəqfinin inzibati idarəçiliyinə keçirib yəhudilərə hər hansı dini ibadətləri qadağan etsə də, müsəlmanların müqəddəs dağa hüquqlarını qəbul etməyən yəhudi-fanatiklərinin provokasiya çıxışları dayanmırdı. Müsəlman ictimaiyyətinin bunlara göstərdiyi reaksiya son dərəcədə kəskin idi... 1968-ci ildə "Tanrının kilsəsi" adlı xristian fundamentalist sektanın mənsubu 28 yaşlı avstraliyalı turist Denis Roxan Əl-Əqsa məscidində yanğın törətdi. Məhkəmədə məlum olmuşdur ki, o, ruhi pozuntulu insan olaraq İsanın ikinci dəfə nazil olmasını yaxınlaşdırmaq üçün özünü "İblis məbədlərindən" birinin dağıdıcısı olduğunu təsəvvür edirdi" [231]. Məhz bu hadisə islam aləminin konsolidasiyası və islam həmrəyliyi hərəkatının fəallaşdırılmasına səbəb olmuşdur. 1969-cu ilin sentyabr ayında Rabatda (Mərakeşin paytaxtı) 24 islam ölkəsinin dövlət və hökumət başçılarının ilk

---

[230] Носенко Т.В. Иерусалим. Три религии – три мира. «ОЛМА-ПРЕСС», Москва: 2003. 440 с. S. 367.
[231] Yenə orada, s. 392.

toplantısı keçirilmiş və ümumi islami təşkilatının yaradılması üçün təməl qoyulmuşdur və 1972-ci ildə qərargahı Ciddədə (Səudiyyə Ərəbistanı) yerləşən və hazırda 56 dövlətin üzv olduğu İslam Konfransı Təşkilatı (İKT) təsis edilmişdir. Onun Nizamnaməsində "Qüdsün azad edilməsinə qədər" sözləri yazılmışdır, həmçinin təşkilatın nəzdində Qüdslə bağlı xüsusi komitə fəaliyyət göstərir [232].

O vaxtdan bəri İKT-ın (hazırda: İslam Əməkdaşlıq Təşkilatı / İƏT) mövqeyi öz təkamül yolunu keçmişdir. 1981-ci ildə İKT-ın sammiti "Fələstin və işğal edilmiş ərazilərin azad edilməsi üçün" cihada çağırış etmişdi. Ancaq vaxt keçdikcə müsəlman ölkələrinin bu problemə yanaşmaları daha təmkinli xasiyyət almışdır. 1979-cu ildə İsraillə sülh müqaviləsinin bağlanmasına görə təşkilatın tərkibindən çıxarılmış Misirin İslam Konfransında üzvlüyü 1984-cü ildə bərpa olunmuşdur. 1991-ci ildə İKT İsrailə qarşı cihada çağıran qətnaməsini (qələmə alınan və kağızda qalan çağırış) ləğv etmişdir. Lakin müsəlman ölkələri arasında eyni zamanda Yaxın Şərqdəki vəziyyətə yanaşmalarda əhəmiyyətli fərqlər müşahidə olunurdu. 2008-ci ilin dekabr – 2009-cu ilin yanvar tarixlərində İsrailin Qəzzaya hücumu ilə əlaqədar olaraq həmin fərqlər aradan qaldırılmadı. İslam dövlətləri İsrailin hərəkətlərini pisləsələr də, baş verən hadisələrə reaksiya ilə bağlı ümumi bir fikrə gəlmək mümkün olmamışdı. Misir və Səudiyyə Ərəbistanı mötədil mövqelərdə olduğu halda, Suriya və Qətər radikal mövqelərdən çıxış edirdilər [233].

---

[232] Yenə orada, s. 393.
[233] Подцероб А.Б. Солидарность мусульман – мечта или реальность? Источник: "Институт Ближнего Востока http://www.rodon.org/relig-090826132653

Beləliklə, müasir dövrün görkəmli islam mütəfəkkirlərindən biri olan Heydər Camalın (1947-2016) sözləri ilə desək: “Qüdsün problemi, Fələstinin problemi bugünkü dünya tarixinin mərkəzində qalır. Bu qütbi problemdir. Fələstin və Qüdsə münasibət hər siyasətçi üçün, hər bir siyasi cərəyan üçün məhək daşıdır” [234].

Yeri gəlmişkən, Heydər Camalın islam alternativi məsələsinə dair öz orijinal yanaşması var idi. O, müasir siyasi islamı öz sivilizasiya alternativini (anti-Qərbi, dünya hökumətinə qarşı yönəlmiş) təklif edərək tarixin gedişini dəyişdirmək qabiliyyətinə malik olan ən yeni inqilabi-azadlıq hərəkatına bərabər olduğunu hesab edirdi. İslam haqqında vəhy dinlərinin sonuncusu kimi teoloji ideyanın analogiyasına uyğun olaraq o, siyasi islamı sonuncu və qəti azad edilmə kimi təqdim edir. H.Camala görə “Marksizmdən sonrakı dövrdə ümumbəşəri müsəlman icması – beynəlxalq oliqarxların və xüsusilə də Vaşinqton rəhbərliyinin arxasında duran imperialist qüvvələrin qəzəb və nifrətini üzərində cəmləşdirmiş ümmət – yeni “proletariat” kimi çıxış edir... Bunun üçün zəruridir ki, bəşəri müsəlman icması tarixi prosesin siyasi teologiya dilində fikir söyləyən vahid teoloji-siyasi subyekti kimi səfərbər olsun...”. Həmin teologiya “marksizmin bir sıra səbəblərə görə dürüst ifadə edə bilmədiyi bəşəriyyətin azad edilməsi üzrə yeni intellektual proqramın təməlinə çevrilməlidir. (H.Camal. İslamın azad edilməsi., s. 232–233)” [235]. Bu növ yanaşma utopik görünsə də, bununla belə islam dünyasının vahid kollektiv subyekti kimi şərh etmək imkanı məsələsinin qoyuluşuna gətirib çıxarır.

---

[234] День Иерусалима в Москве. 21.08.12
http://www.safarov.ru/06.php?act=news_by_id&news_id=16774
[235] Почта Ю.М. Ислам и политика: Учеб. пособие. РУДН, Москва: 2008. 135 с. S. 66.

Digər daha sxematik, modernist anlayışların sərt dixotomiyasına əsaslanan islamlaşma məsələsinə baxış XX əsrin 90-cı illərində "avroislam" terminini elmi dövriyyəyə buraxan alman alimi Bəssam Tibiyə məxsusdur. O, belə hesab edir ki, siyasi islam Qərbə cihad elan edən və islamlaşma vasitəsilə dünyanı vesternizasiyadan azad etməyə çalışan totalitarizmin yeni bir formasıdır. Nəticədə, dini və dünyəvi dünyagörüşlərinin, demokratik pluralizmin və dini absolyutizmin toqquşması baş verir. Cihadçılara münasibətdə dialoq deyil, təhlükəsizlik siyasəti lazımdır. İslam və Qərbin münaqişəsini belə bir amil şərtləşdirir ki, tək onların ikisi universal iddiaları olan sivilizasiyalardır. İslamda onun Qərblə görüşdüyündən sonra qismən sekulyarlaşma keçirilmişdi, lakin onun davamı hazırda qeyri-mümkündür [236].

Bəssam Tibinin fikrinə görə ancaq dünyəvi cəmiyyət islamçıların təzyiqlərinə müvəffəqiyyətlə müqavimət göstərə bilər və Avropada müxtəlif etnik və konfessional qrupların sülh şəraitində yaşayışını təmin etməyə qadirdir. Tibi eləcə də bəyan edir ki, Avropa müsəlmanları dini və mədəni baxımdan çoxçeşidli olan müasir Avropa cəmiyyətinə inteqrasiya olunmaq imkanını əldə etmək üçün islamçılıq və radikal-cihadçıların siyasi islamından kənara çəkilməlidirlər. Tibi islamçılığı qeyri-dini maraqlara nail olmaq üçün dini siyasi alətə çevirən və dindən sui-istifadə edən siyasi hərəkat kimi təyin edir. Onun yayılma səbəbləri isə Tibinin fikrinə görə müsəlmanların Qərb cəmiyyətinə ağıllı, düzgün düşünülmüş bir inteqrasiya siyasətinin olmamasıdır. Daima diskriminasiyanın təzahürləri ilə toqquşan müsəlmanlar "özününkülərinin" dairəsinə qapanaraq "Qərbi islamlaşma yolu ilə azad etmək" məqsədini güdən islamçı-

[236] Yenə orada, s. 40.

radikalların qurbanlarına çox asanlıqla çevrilirlər. İnsan hüquqları rasionalizm prinsiplərinə əsaslanır bu isə Tibiyə görə onların sülh içərisində birgə yaşamasına səbəb ola biləcək bir amildir. Beləliklə, Bəssam Tibi Avropanın bütün müsəlmanları üçün vahid identikliyin yaranması, Avropa xristianlığının tutduğu yeri və statusuna malik olan "Avropa islamı"nın mövcudluğunu və iki sivilizasiyanın nümayəndələrinin bir arada dostluq içində yaşaması imkanlarını nəzərdən keçirir.

İslamın Qərb tərəfindən hansı şəkildə qarşılanması kontekstində doktor Murad Vilfred Hoffmanın "İslam – alternativ kimi" kitabına reaksiyanı xatırlamaq kifayətdir[237]. Kitab nəşr edildikdən sonra ictimai skandala səbəb olmuşdur. Hoffmanın özü isə alman KİV-ləri tərəfindən "islam fundamentalisti" adlandırılaraq kəskin tənqid atəşinə məruz qalmışdır. Kitab "yol boyunca duran "bütöv, mədəni cəhətdən şərtləndirilmiş kognitiv maneələri" aradan qaldırmaq" üçün islam və Qərb arasında körpülərin qurulması məqsədi ilə Qərb oxucularına ünvanlanmışdır. Müəllif "İslam və Qərb arasındakı əlaqələrin 1400 illik faciəli tarixi"ndən "dərs almağa" çağırır və hesab edir ki, "hər iki dünya... planetdə sülhü qorumaq üçün bir-birinə tolerant yanaşmalıdır. Qərb islamı yaxşı anlasa, islam isə Qərbi bu, daha asan şəkildə baş verəcək" [238]. Kitabın "Tolerantlıq

---

[237] Murad Wilfred Hoffmann (alm.: Murad Wilfried Hofmann) -1931-ci ildə Almaniyada katolik ailəsində anadan olub, Harvard Hüquq məktəbinin məzunu, Münhen Universitetinin hüquq elmləri doktoru, 1983-1987-ci illərdə Brüsseldə NATO qərargahının informasiya şöbəsinin direktoru, 1987-1990-cı illərdə Əlcəzairdə və 1990-1994-cü illərdə Mərakeşdə keçmiş AFR-in fövqəladə və səlahiyyətli səfiri vəzifələrində çalışmışdır. 1980-ci ildə islamı qəbul etmişdir. M.Hoffman "İslama fəlsəfi yanaşma" (1983), "Alman müsəlmanının gündəliyi" (1985), "İslam – alternativ kimi" (1992), "Məkkəyə səyahət" (1996), "İslamın dərkedilməsi" (2007) və digər kitabların müəllifidir.

[238] مراد هوفمان. الإسلام كبديل. الطبعة الاولى. دار الشروق. القاهرة: 1997 . 170 ص. S. 23.

və ya zorakılıq" adlı səkkizinci fəslində M.Hoffman Qurana istinadən bəyan edir ki, islam tolerantlıq dinidir [239]. Digər əsərində M.Hoffman bəyan edir ki, "Bütün dünyada islamın qlobal gələcəyi Qərb müsəlmanlarının rolu ilə bağlıdır və onlar xaricdəki icmalar arasında parçalanma vəziyyətini aradan qaldıra bilməsələr, onların rolu irəliləməyəcəkdir və bütün bunlar xilafəti canlandırmadan və ya bir siyasi mərkəz mövcud olmadan islam ümməti ilə bağlıdır" [240].

"Avropa islamı" konsepsiyasının ideoloqlarından ən məşhuru İsveçrədəki Friburq Universitetinin professoru Tariq Ramazan Avropada yaşayan, onun mədəniyyətinə uyğunlaşan, ancaq eyni zamanda islamın fundamental prinsiplərinə sadiq qalan "avropa islam mədəniyyətinin" daşıyıcılarının mövcudluğunu nəzərdə tutur. T.Ramazan hesab edir ki, əgər müsəlmanlar Avropada yaşamaq istəyirlərsə, onlar Avropa cəmiyyətinin onlara qarşı sürdüyü müəyyən tələblərinə cavab verməyi öyrənməlidirlər, həmin cəmiyyətin qanunlarına hörmətlə yanaşaraq onlara riayət etməlidirlər. Bunlara nail olmaq üçün islama dəyişikliklər lazımdır. O yazır: "Quranda öz əksini tapmayan və Peyğəmbərin vəhyinin qismi olmayan "dar əl-hərb" (ərəbcə: müharibə evi, müsəlman qanunlarının işləmədiyi məkan) və "dar əl-islam" (islam evi, islamın hakim olduğu məkan) kimi köhnə məfhumların vaxtı keçib". Bunların əvəzinə Ramazan Avropa üçün "dar əş-şəhadə" (şəhadət evi, islama etiqad edilən məkan) kimi yeni tərifi dövriyyəyə buraxmağı təklif edir, çünki onun fikrincə, bu müsəlmanların Avropada məskunlaşmasının asanlaşmasına kömək edə bilər. Bu yeni tərifə həm müsəlmanların

---

[239] Yenə orada, s. 73-77.

[240] عبد المجيد الشرفي , مراد هوفمان. مستقبل الإسلام في الغرب والشرق. الطبعة الاولى. دار الفكر.دمشق: 2008. 280 ص.
C. 182.

din rəmzi (Kəlmeyi-şəhadət), həm də qanunlara tabe olma vəzifələri daxildir. Həmçinin, T.Ramazan müsəlmanları qəbul edən cəmiyyətə islamın "qanunverici inteqrasiyasını" da yaratmağı, yəni Avropa *fiqh*inin formalaşmasını təklif edir [241].

Qeyd etmək lazımdır ki, Bəssam Tibi və Tariq Ramazan kimi avropalı müsəlman ziyalıların irəli sürdükləri müsəlmanların Avropa sivilizasiyasına inteqrasiyası ideyası islam dünyasında böyük populyarlıq qazanmağı bacarmadı. Lakin bu baxımdan Qərb müsəlmanları üçün qeyri-müsəlman ölkələrində cəmiyyətə uyğun bir şəkildə inteqrasiyası üçün onların həyatları və sosial adaptasiyasını təmin edən bir sıra fikir və ideya irəli sürən Taha Cabir əl-Əlvaninin (1935-2016) və yuxarıda bəhs etdiyimiz Avropa ziyalısı Tariq Ramazanın mənəvi rəhbəri olmuş şeyx Yusif əl-Qərdavinin (1926) görüşləri maraq doğurur.

Digərlərindən fərqli olaraq bu alimlərin hər ikisi gələcəkdə Şərqdə, eləcə də Qərbdə planetin bütün müsəlmanlarını səfərbər edərək onları vəhdət qüvvəyə çevirməyə qadir olan qlobal birləşdirici amil kimi islama öz proqressiv baxışları ilə seçilirlər.

Bu məqsədlə əl-Əlvani qeyri-müsəlmanlar çoxluq təşkil edən ölkələrdə yaşayan müsəlman azlıqları üçün şəriət qanunlarının uyğunlaşdırılmış *fiqh əl-əqəliyyat* termini ilə tərif edilən konsepsiyanı, onun məzmununu işləyib hazırlamış, elmi dövriyyəyə buraxmış və tətbiq etmişdir. Həmin ideyanın mahiyyəti isə daha əvvəllər şeyx Yusif əl-Qərdavinin əsərlərində əsaslandırılmışdır.

---

[241] Ислам в мировой политике в начале XXI века: учеб. пособие / под ред. Л.М. Ефимовой, М.А. Сапроновой; [А.М. Ахунов, В.А. Ахмадуллин, Р.И. Беккин и др.]; Кафедра востоковедения МГИМО. «МГИМО-Университет», Москва: 2016. 345 с. S. 188-189

T.-C.əl-Əlvaninin fikirlərinin xüsusiyyətlərindən biri də odur ki, o, müsəlman icmalarına yardım göstərmək işində Qərbdə yəhudi icmalarının təcrübəsini öyrənib tətbiq etməyinin mümkün və lazım olduğunu düşünən azsaylı alimlərdən biri idi.

Xüsusilə, ABŞ-da yaşayarkən o, bir neçə dini qrupun, o cümlədən yəhudi tarixini də öyrənmişdir və diqqətini Hayfa şəhərində (İsrail) məşhur yəhudi məktəbini təsis etmiş və dünyanın hər yerində yəhudi azlıqları üçün məhkəmə təcrübəsini tətbiq etmiş rəbbi Yohanan ben Zakayanın fəaliyyətinə yönəltmişdir. Əl-Əlvani onun təcrübəsindən müsəlmanların Amerika cəmiyyətinə inteqrasiyası üzrə özü gördüyü işləri üçün bir çox şey əldə etmişdir. Bu baxımdan əl-Əlvaninin fəaliyyətini həqiqətən multikultural, dinlərin dialoquna, gərginliyin və dini münaqişənin aradan qaldırılmasına yönəlmiş kimi qiymətləndirmək olar. Məhz özünün bu niyyətləri axınında əl-Əlvani müasirliyin ideya paralelini keçirir. O, Amerikanı İspaniyanın *əl-Əndəlüsü* ilə müqayisə edir ki, paytaxtı Kordova çiçəkləndiyi dövrdə müsəlmanlar, xristianlar və yəhudilərin içərisindən çıxan ən müxtəlif aparıcı ziyalıları özünə cəlb edib bir araya yığırdı. Əl-Əlvani "Belə ki, müsəlman, xristian və yəhudi alimləri arasında əməkdaşlıq istisna deyil, bu – normaldır" qənaətinə gəlir. Bu baxımdan tam məntiqlidir ki, əl-Əlvaninin ən böyük layihəsi Vaşinqtonun ətrafında yerləşən Eşberndə (Virciniya) yeni Kordova Universitetinin yaradılması olmuşdur. Universitetin proqramı "ictihada səmtləşmə"nin yaradılmasına yönəlib və bu da klassik islam irsinin işləyib qurtarmadığı problemlərin aradan qaldırılmasına imkan verir. Həmçinin, alim 1962-ci ildə Məkkədə yaradılmış İslam Dünyası Liqasının təsisçilərindən biri olmuşdur, 1987-ci ildən İKT-nin islam fiqhi üzrə Akademiyasının (Ciddə) üzvü, 1988-ci ildən isə fiqh üzrə Şimali Amerika heyətinin (ABŞ) başçısı olmuşdur. Onun əsərlərinin sırasında "İslamda fikir ayrılığının

etikası", "Təqlid və müsəlman fikrində durğunluq", "Azlıqların fiqhinə doğru: bəzi əsas fikirlər", "Müsəlman intellektual diskursunun islahatı", "Müasir islami mədəni layihə", "Biliklərin islamlaşması: dünən və bu gün", "Müasir islami hərəkatlar tərəfindən buraxılmış aspektlər" və digər əsərlərini sadalamaq mümkündür [242].

Şeyx Yusif əl-Qərdaviyə gəldikdə qeyd etmək lazımdır ki, hazırda o, 1997-ci ildə yaradılmış Fitvalar və araşdırmalar üzrə Avropa məclisinin (*Əl-məclis əl-urubbi li əl-ifta' və əl-buhus*) prezidenti [243] və 2004-cü ildə Londonda təsis edilmiş və qərargahları İrlandiyada yerləşən qeyri-hökumət islami təşkilatı olan İslam Alimləri Beynəlxalq Birliyinin (*Əl-ittihad əl-aləmi li üləma əl-müslimin*) sədridir. Təşkilatın əsas fəaliyyəti islam məzhəblərinin yaxınlaşmasına yönəlib. Bu da təsadüf deyil, çünki şeyx ərəb dilindən mənası "orta yol" və yaxud "mötədillik" kimi tərcümə olunan məşhur *əl-vəsətiyyə* konsepsiyasının müəllifidir. Çox vaxt şərqşünaslar əl-Qərdavini gah islam "fundamentalçısı", gah da dini "modernist" kimi qələmə verirlər, lakin alimin özü həmişə islahatçı olduğunu təkid edir. Əl-Qərdavi vurğulayır ki, islamda islahat "daxilindən hüquqi sənədlərin xalqının seçdiyi yolundan asılı olaraq istifadə edilməsi ilə həyata keçirilməlidir". Əsərlərində şeyx qeyd edir ki, islamın müasir dünyaya adaptasiyası keçmişin mirasına, yolu işıqlandıra biləcək islam hüquqşünaslığının böyük zənginliyinə söykənməlidir ki, müasir hüquqşünaslara konkret insanın vaxtı, məkanı, vəziyyətində olan xüsusi dəyişiklikləri nəzərə alaraq hər bir tarixi mərhələdə problemlərinin həlli məqsədi ilə öz

---

[242] Курбанов Р.В. Фикх мусульманских меньшинств. Мусульманское законодательство в современном немусульманском мире. http://www.idmedina.ru/books/theology/?4888

[243] https://www.e-cfr.org/ المجلس الأوروبي للإفتاء والبحوث.

məntiqi, ruhu, təməli, sənədləri və şərhlərinə əsaslanan hüquqi baza yaratmaq imkanını verir [244]. Əl-Qərdavi 1970-80-ci illərdə ortaya çıxan çoxsaylı radikal qruplaşmaların üzvlərinə də təsir göstərməyə çalışırdı. O, onları müsəlmanların müqəddəs mətnlərinə öz şərhlərini təqdim etmək cəhdlərinə görə nəsihətləndirir və *təkfir* (*küfr* – yəni dindən kənara çıxmaq) konsepsiyasından sui-istifadə etmələrinə, digər müsəlmanları, hətta bütövlükdə cəmiyyətləri mürtədlikdə ittiham etmələrinə və onlara qarşı zorakılıq sanksiyalarını vermələrinə görə dəfələrlə sərt şəkildə tənqid edir. Digər tərəfdən o, onlara rəhbərliyə ehtiyacları olan "gənc insanlar" kimi yanaşır. Xüsusən bu Əl-Qərdavinin "İslam oyanışı imtina və ekstremizm arasında" (*Əs-səhvət əl-islamiyyə beynə əl-cuhud və ət-tətərruf*) (1982) adlı əsərində ifadə olunur. Burada şeyx radikalizmin cəmiyyətdə meydana gəlməsini onu Allahın iradəsinə uyğun olmayan idarə edilməsi ideyasından doğan ümumi tənəzzül ilə əlaqələndirir. Kitabın "İslamın mötədilliyə çağırışı və ekstremizmin qarşısının alınması" adlı fəslində əl-Qərdavi qeyd edir ki, "Mötədillik" (*əl-vəsətiyyə*) islamın başlıca xüsusiyyətlərindən biridir və Allahın öz ümmətini digərlərindən fərqləndirdiyi əsas əlamətlərindən biridir... İslam mətnləri mötədilliyə çağırır və ekstremizmə qarşı xəbərdar edir, bu da ki, şəriət dilində bir neçə sözlə ifadə olunur: "hədsizlik", "itaətsizlik" və "şiddət"" [245].

"Əl-vəsətiyyə" fiqhinin mahiyyətinə həsr edilmiş digər əsərində əl-Qərdavi "...dövrün dəyişikliklərini nəzərə almağı, fiqhi hökm və

---

[244] Soage Ana Belén. Shaykh Yusuf al-Qaradawi: Portrait of a Leading Islamist Cleric. // Filed Under: MERIA Journal Volume 12, Number 01 (Mar 2008), Radical Movements. http://www.rubincenter.org/2008/03/soage-2008-03-05/

[245] يوسف القرضاوي. الصحوه الاسلاميه بين الجحود و التطرف. سلسلة كتاب الأمة, رئاسة المحاكم الشرعية والشؤون الدينية – قطر: 1402ه. - 1982 م. 231 ص. S. 25.

fitvalarda asanlaşdırma üslubunun mənimsənilməsini, islamı öyrətmədə müdrik hərəkət edib tədriciliyi gözləməyi... ağıl və qəlbin, dünya və axirətin uyğunlaşdırılmasını, dini azlıqların hüquqlarının tanınmasını, təfəkkürə qiymətin verilməsini tələb edir, elmi təfəkkürə çağırır, ətalət və kor təqlidi rədd edir, din, irq, dil, mədəni və siyasi pluralizmə "hə" deyir, identikliyin itirilməməsi şərti ilə mədəni birgə yaşayışı, inteqrasiya və qarşılıqlı inkişafı alqışlayır" [246]. Şeyx həmçinin yazır ki, "islamın zəfərinə qarşı çıxan qüvvələr" bir sıra məqsədlərə nail olmaq üçün radikalizm "alovunu qızışdırırlar": əhalini islamçılardan uzaqlaşdırmaq üçün onları barışmaz fanatiklər kimi təsvir etmək; gəncləri ikinci məsələlər istiqamətinə yönəltmək üçün daha geniş görüşlərin olduğunu unutdurmaq; müxtəlif islam qüvvələri arasındakı qarşıdurmaları hiddətləndirmək; bütün islam hərəkatına zərbə endirmək məqsədi ilə ekstremizmi bəhanə kimi istifadə etmək; islamçıları onların səylərinin daxili struktur təfriqələrə və dövlət təqiblərinə səbəb olmaları ilə ümidsizliyə uğratmaq [247]. Lakin əgər keçmişdə Əl-Qərdavinin tənqid atəşinin mərkəzində əsasən müsəlman hökmdarları olmuşdurlarsa, müsəlman dünyasında Qərbin rolunun və təsirinin artması ilə Qərbin mənfi meyilləri hazırda şeyxin hədəfə aldığı mövzulardan biridir. Sonrakı əsərlərində alim yazır: "Müsəlmanlar arasında bir neçə şəxs və ya qrup var ki, hədsiz dərəcədə zorakılıqdan istifadə edir. Lakin onlar bütün müsəlmanlar deyil, Qərb mətbuatı tərəfindən əhəmiyyəti şişirdilmiş olan kiçik qruplardı ki, onların əksəriy-

---

[246] Dini radikalizm: Tarixi, yaranma səbəbləri və fəsadları. DQİDK, "Digital Media" MMC, Bakı: 2015, 224 c. S. 151.

[247] Soage Ana Belén. Shaykh Yusuf al-Qaradawi: Portrait of a Leading Islamist Cleric. // Filed Under: MERIA Journal Volume 12, Number 01 (Mar 2008), Radical Movements. http://www.rubincenter.org/2008/03/soage-2008-03-05/

yəti Qərbin ədalətsizliyi, müsəlmanlara qarşı təcavüzü, qanunsuzluqları və İsrailə davamlı dəstəyi nəticəsində ekstremist kimi təsnif edilmişdirlər”. Sələfilər kimi əl-Qərdavi də iki növ üləmaları tənqid edir: Qərbə olan ehtiramları qarşısında islam doktrinasını Qərb modelinə uyğunlaşdırmağa çalışanları və müəyyən bir hüquqi məktəbin (məzhəbin) kor-koranə ardınca gedərək musiqi və ya şahmatdan başlayaraq qadınların təhsilinə qədər bütün sahələrdə və mövzularda köhnəlmiş yanaşmalarını qəbul edirlər. Lakin bu o demək deyil ki, müasir islamda ənənə mərkəzi yer tutmamalıdır. Hər halda, alimlər qeyd etdiyi kimi, islahat mövzusu əl-Qərdavinin əsərlərində ən geniş yer tutan mövzulardandır və o bildirir ki, “yenilənmə bizlər üçün təkcə lazımi zərurət deyil, bu – dini vəzifəmizdir” [248].

Qlobal islam alternativinin ayrılmaz tərkib hissəsi kimi həmçinin İKT çərçivəsində ixtisaslaşdırılmış iqtisadi təşkilatların fəaliyyətinə əsaslanan islam iqtisadiyyatı çıxış edir. İslami iqtisadi model tamamlanmış şəkildə yalnız XX əsrdə formalaşmış nisbətən yeni bir konsepsiyadır. Şəriət normalarına əsaslanan ideal bir sistemə baxışları ortaya qoyan ilk araşdırmalar 1947-ci ildə meydana gəlmişdir. Bunlar Seyyid Mənazir Məhəmməd əl-Gilaninin “İslami iqtisadiyyat”, Mahmud Əhmədin “İslamın iqtisadiyyatı” və Məhəmməd əl-Qazalinin “İslam və iqtisadi qanunlar” əsərləri idi. Lakin XIX-XX əsrlərin dönəmində kapitalist münasibətlər müsəlman dünyasına nüfuz etməyə başladıqda, onlara islamda alternativ tapmağa “ərəb sosializmi” ideoloqları tərəfindən təşəbbüs göstərilmişdi. Daha konkret olaraq, islam və sosializmin nəzəri sintezinin ilk cəhdini ərəb və islam “nəhdə”sinin görkəmli nümayən-

---

[248] Yenə orada.

dəsi Cəmaləddin əl-Əfqani etmişdir. "İslam iqtisadiyyatı" termininin özü isə nəhayət, 1970-ci illərin ortalarından etibarən elmi ədəbiyyatda təsbit olunmuşdur. İslam iqtisadi modelinin əsas məqsədi islam iqtisadiyyatının mühüm komponenti kimi maliyyə sisteminin yaradılması sahəsində aktual problemlərə alternativ həllər tapmaq idi [249].

Məlumdur ki, islamda Quranın bir çox ayəsində və Peyğəmbərin hədislərində göstərildiyi kimi sələmçilik (*ər-riba*) qadağandır, buna görə gəlirin alınması yalnız real biznes fəaliyyətində iştirak etməklə mümkündür. İslam qanunvericiliyindəki əsas müqavilələr kapitaldan gəlir əldə etməyi nəzərdə tutan *müşarəkə* (tam tərəfdaşlıq) və *müdarəbə* (əmanət tərəfdaşlığı) əməliyyatlarıdır, sonuncusunda investorlardan biri mütləq islam bankıdır. Bu müqavilənin mahiyyəti ondan ibarətdir ki, tərəflərdən biri (kapital sahibi) nəticədə əldə edilən mənfəətin əvvəlcədən müəyyən edilmiş nisbətə uyğun olaraq bölüşdürülmə şərtləri ilə sərmayəsini digər tərəfin idarəçiliyinə (idarə edənə) ötürür. Yəni investor üçün gəlir əldə etmək yalnız real kommersiya fəaliyyətində iştirak etməklə mümkündür və mənfəəti əldə etmək prosesi zərər çəkmək riskini nəzərdə tutur. Beləliklə, "müdarəbə" və "müşarəkə" sələmçi münasibətlərə islam alternativi olaraq kapitalist və kommunist iqtisadi münasibətləri arasında orta mövqeyi təmsil edir.

1973-cü ildə İKT-yə üzv ölkələrin maliyyə nazirlərinin iclasında Səudiyyə Ərəbistanının Kralının dəstəyi ilə İslam İnkişaf Bankı yaradıldı. 1975-ci il oktyabrın 20-də həmin bank Ciddədə fəaliyyə-

---

[249] Ислам в мировой политике в начале XXI века: учеб. пособие / под ред. Л.М. Ефимовой, М.А. Сапроновой; [А.М. Ахунов, В.А. Ахмадуллин, Р.И. Беккин и др.]; Кафедра востоковедения МГИМО. «МГИМО-Университет», Москва: 2016. 345 с. S. 30-22.

tinə başladı. Bankın ilkin kapitalı dövlət qurucularının töhfəsi hesabına formalaşmışdır və əsas məqsədi İKT üzv ölkələrinin və müsəlman icmalarının şəriət prinsiplərinə əsaslanan iqtisadi inkişafı və sosial tərəqqisini təşviq etmək idi. 1975-ci ildə bir neçə müsəlman ölkəsindən bir qrup iş adamları ilk özəl kommersiya "Dubay İslam Bankı"nı qurdular. 1977-ci ildə Misirdə və Sudanda "Feysəl İslam Bankı" fəaliyyət göstərməyə başladı. Həmin illərdə Küveyt hökuməti "Küveyt Maliyyə Evi"ni təsis etdi. Bundan savayı islam bankçılığının inkişafına bir çox Qərb ölkələri maraq göstərirlər. Beləliklə, İngiltərədə islam "pəncərələrindən" əlavə olaraq bütün bank xidmətlərini həyata keçirən "Böyük Britaniya İslam Bankı" da fəaliyyət göstərir. Dinamik inkişaf edən bazarın üstünlüklərindən həmçinin öz islami "pəncərələrini" açmış *HSBC, Barclays, BNP Paribus, Citi Group, Deutsche Bank, Standard Chartered* və *Royal Bank of Scotland* kimi böyük ənənəvi bank qurumları tərəfindən də istifadə olunur. Həmçinin islam banklarını dövlət səviyyəsinə çıxarmaq üçün də səylər göstərilir. Pakistanın bank sisteminin islamlaşması 1979-cu ildə başlamış və 1985-ci ilə qədər Mərkəzi Bankın hökumət qərarları və  sirkulyarların buraxılması ilə davam etmişdir. 1983-cü ildə İran faizsiz bank əməliyyatları haqqında qanunu qəbul etdi və bütün bankları milliləşdirdi[250]. İslam bankçılığının nəzəriyyəçiləri klassik "kapitalist" bankının fəaliyyət prinsiplərinə tənqidlə yanaşırlar, çünki sonuncusunun fəaliyyəti pul vəsaitlərinin faizlə təmin edilməsini qadağan edən şəriətlə və sərvətlər və əmanətlərin bölünməsinə öz münasibətinə malik olan "islam iqtisadiyyatı"nın əsasları ilə ziddiyyət təşkil edir. Belə bir norma Quranın "Əl-

---

[250] Исламский банкинг: история развития. Исламская экономика. http://yaumma.ru/islamicfinance/2015/04/24/islamskiy-banking-istoriya-razvitiya.html

Bəqərə" surəsindən (278-280 ayələr) qaynaqlanır. Bununla yanaşı, qlobalizm tərəfindən neoliberal kapitalist Qərb iqtisadi modelinin, hətta bəzən demokratiyanı zorla "ixrac" etdirmək vasitəsi ilə yeridilməsi şəraitində alternativ islami iqtisadi modelinin tam şəkildə həyata keçirilməsi istər islamdaxili, istərsə də ümumbəşəri kontekstdə mümkün deyil. İraqdakı şiələrin dini icmasının rəhbəri Ayətüllah Məhəmməd Bəkir əs-Sadr qeyd etdiyi kimi "islam bankçılıq sistemi yalnız mühüm bir hissəsi olacaq müsəlman cəmiyyəti şəraitində mümkündür" [251].

Müasir islamşünaslıqda qeyd olunur ki, bu gün üçün islam dünyasının iqtisadi siyasəti – "iqtisadi bir illüziyadı", çünki "İslam həmrəyliyi" hərəkatına qatılan ölkələrin heç biri müasir inkişaf etmiş sənaye və elmi-texnoloji bazaya kompleks şəkildə sahib deyil və islamın yayıldığı bütün sahələri inkişaf etmiş Qərb dövlətlərindən asılı qalmaqda davam edir". Hər halda, islam iqtisadiyyatı qlobal iqtisadi əlaqələrdən qopardılmış deyil. Qərb biznesi artıq qloballaşan maliyyə sisteminin yeni bir elementinə çevrilmiş islam bankçılığının perspektivlərini tanımağa məcbur olmuşdur. Dünya bank sistemi özü üçün islam krediti və sığorta xidmətləri, islam mühasibatlığı şəklində tamamilə yeni bir seqmenti qəbul etdi. Hazırda dünyanın 40-dan çox ölkəsində faizsiz fəaliyyət göstərən 200-ə yaxın islam maliyyə institutu mövcuddur. Təsbitlənən islam maliyyə qurumları beynəlxalq təşkilatların məsləhətləşmələrindən və qabaqcıl metodologiyalarından istifadə edirlər. Ümumiyyətlə, islam banklarının kapitalları on milyardlar, aktivləri isə yüzlərlə milyardlar dollar həcmində qiymətləndirilirlər. Bir sıra tanınmış

---

[251] Иванеев С.В. Исламский банкинг – как угроза духовной безопасности светского государства. // Национальная безопасность – №1(30), NOTA BENE (ООО «НБ-Медиа): 2014. С. 94-103. S. 97.

Avropa və ABŞ şirkətləri və bankları onun məhsulları və texnologiyalarından bacarıqla istifadə edirlər. Onun ayrıca təməl prinsipləri ənənəvi bankçılıq qaydalarından fərqlənir. Hər şeydən əvvəl, söhbət faiz mexanizminə güvənmədən kreditləşmədən gedir. Bu növ kreditləşmənin yalnız teoriyası deyil, həm də praktikası onun müasir iqtisadiyyatda fəaliyyət göstərməyini nümayiş etdirir və bankların və maliyyə sistemlərinin kredit faizlərini ödəmədən kredit əməliyyatlarını aparmağa qadir olmamaları barədə fikri rədd edir.

Bir sıra müsəlman ölkələrində islami ticarət şirkətlərinin, fondlarının və vaqfların təcrübəsi, dövlət əmlakında strateji resursların istifadəsi, islamın sosial, mənəvi və etik prinsiplərinə əsaslanan sosial və iqtisadi inkişaf planlaşdırılması da eyni dərəcədə maraqlıdır. Bütövlükdə, bunu əlbəttə ki, aydın şəkildə tərtib edilmiş bir model deyil, müxtəlif ölkələrdə fərqli versiyalarda həyata keçirilən islam iqtisadiyyatının təcrübəsi adlandırmaq olar. Təbii ki, islam iqtisadiyyatının inteqrasiya prosesinə mane olan islam ölkələrinin inkişaf səviyyələri, onların hakim və siyasi quruluşları arasındakı kəskin fərqlər; aparıcı dövlətlərin inteqrasiya prosesinə daxil olarkən bazar iqtisadiyyatı mövqeyindən yanaşması; daxili bazarların imkanlarının məhdudluğu; ixtisaslaşmış kadrların və müasir texnologiyaların çatışmaması kimi mənfi göstəricilər də mövcuddur [252]. Buna baxmayaraq, islam iqtisadiyyatını bir sıra islam ölkələrinin dövlət strukturunun nümunələri ilə yanaşı, inkişafın "üçüncü yolu" [253] – "neoliberalizmin ifratçılığı... və xüsusi mülkiyyəti, vətəndaşların

---

[252] Mürsəlov R.Ə. Müasir islam fundamentalizmi. "Nurlan", Bakı: 2004. S. 103.

[253] Üçüncü dünya – XX əsrin 70-ci illərində fransız politologiyasında yaranmış *tiers monde* (tiermondism) terminindən irəli gəlir. İnkişaf etməkdə olan ölkələr haqqında bir sıra elmi konsepsiya və tədqiqatların məcmusunu nəzərdə tutan anlayış.

individual stimulunu və azadlığını minimuma endirən sərt sosialist eksperimentləri arasında orta seçimdir” [254]. Onu da qeyd edək ki, hələlik bu qlobalizmə yeganə dini-etik cavabdır ki, neoliberal Qərb iqtisadiyyatına dünya səviyyəsində iqtisadi alternativini qurub tətbiq etməyə çalışır.

## İslam reformizminin alternativ təşəbbüs kimi uğur və uğursuzluqları

Bu gün biz hamımız islam dünyasının çox ağır bir dövr yaşadığının şahidiyik. Ötən əsrin 70-illərində Yaxın Şərqdə tənəzzülə uğramağa başlayan millətçilik ideologiyaların iflası İraqda Səddam Hüseynin dünyəvi-millətçi rejiminin yıxılması ilə nəticələndi. Bu proseslər islami hərəkatların ictimai-siyasi fəallığının artması ilə müşahidə olunurdu. Və bu da ki, heç də təsadüf deyildi. Əksər ərəb ölkələrinin əhalisini müsəlmanlar təşkil edir və onların dini-ictimai şüurlarında islam identikliyi çərçivəsində etno-milli komponentdən daha üstün olan *ümmət* anlayışıdır. Hal-hazırda aydındır ki, hamımıza məlum olan “Ərəb baharı” adlandırılmış Yaxın Şərq hadisələri ərəb-müsəlman dünyasının dəyişdirilib yenidən qurulması üzrə irimiqyaslı, siyasi-iqtisadi prosesin yalnız ilk mərhələsi idi. Lakin biz burada bu məsələni təhlil etmək niyyətində deyilik. Bizi burada maraqlandıran “ərəb baharı”nın iqtisadi-siyasi aspekti və fəsadları deyil, qeyd etdiyimiz hadisələr zamanı Yaxın Şərq və Şimali Afrikada kütlələri oyadıb sosial dəyişiklərə təşviq edən dini-ictimai şüur amilidir.

---

[254] Исламская цивилизация в глобализирующемся мире. / Отв. ред. – В.Г. Хорос. ИМЭМО РАН, Москва: 2011. 336 с. S. 146-147.

Həmin vaxtlar kütləvi informasiya vasitələrində “islam dirçəlişi” anlayışından geniş istifadə olunurdu, sonralar bu tərifə daha az və ehtiyatla müraciət edildi. Bununla belə, kütləvi şüurlarda “Ümumbəşəri Xilafət” haqqında şirin xəyala dalan “islam fundamentalizmi”nin mübariz, cihadçı ruhu ilə qorxunc və səthi assosiasiya yaradaraq həmin anlayışın izahı, onun terminoloji konteksti və məzmunu çox vaxtı üstüörtülü və qeyri-müəyyən qalırdı. Lakin həmin konseptin belə qavrayışının nə dərəcədə paradoksal olduğu yalnız dar bir elmi mütəxəssis dairəsinə məlumdur. Bu paradoksu izah etmək üçün qısaca olaraq tarixə nəzər salaq.

Əvvəla qeyd edək ki, tarixən “islam dirçəlişi” ərəbcə “ən-nəhdət əl-islamiyyə” anlayışı mövzumuz olan islam reformizmi (*əl-islahiyyə*) ilə ən sıx şəkildə bağlıdır. XIX əsrin sonunda ərəb və digər müsəlman ölkələrində yerli intellektual elitaların diqqət mərkəzi islamın yenilənməsi ideyası ətrafında olmuşdur. Söhbət əsasən Qərbin elmi və texniki nailiyyətlərindən faydalanaraq həqiqi islama həm ictimai-siyasi, həm də texniki-iqtisadi sahələrdə nail olmaqdan gedirdi. İslam reformizminin spesifikliyini səciyyələndirən çox mühüm bir aspekt məhz bundadır ki, müsəlman aləminin Avropa sivilizasiyasının təsirləri və Qərbin ekspansiyası ilə rastlaşmasına qədər islamda “reformizm” anlayışının yaranmasına heç bir zəmin yox idi. Bu proses 1798-ci ildə Napoleon Bonapartın Misirə ekspedisiyası ilə başlamışdır və demək olar ki, indiyədək davam edir.

Bütövlükdə islama reformatorluq deyil, yenilənmə yəni ərəbcə – *təcdid* ənənəsi məxsusdur və dini yeniləşdirən şəxslər islamda və ərəb dilində *mücəddid* sözü ilə ifadə olunurlar. Bu terminlərin hər ikisinin klassik islamda kökləri və əsaslandırmaları var və müasir islami hərəkatların öyrənilməsində onlar geniş istifadə olunurlar. Məşhur islahatçı Camaləddin əl-Əfqani (1838-1897) və onun tələbəsi – görkəmli misirli alim Məhəmməd Əbduh (1849-1905) ən-

ənəvi olaraq islam *nəhdə*sinin baniləri sayılırlar. İslam dirçəlişinin klassiklərindən biri olan S.Qütbün sözlərinə görə: "Müsəlman ümməti – elə bir insanlar cəmiyyətidir ki, onların həyatı intellektual, sosial, ekzistensial, siyasi, əxlaqi və praktiki aspektlərində islami nümunəyə əsaslanır" [255]. Ancaq müasir elmdə belə bir fikir də mövcuddur ki, "Müasir islam mühiti Abu Əla Mövdudi, Həsən əl-Bənna, Seyid Qütb, Yusif əl-Qərdavi və başqaları kimi bütün müsəlman Şərqi miqyasında nüfuza malik olan ilahiyyatçı, ideoloq və praktiklərini demək olar ki, daha əmələ gətirmir" [256].

"İslam dirçəlişi" fenomeninin paradoksallığı ondadır ki, öz tərifinə görə heç bir radikal təmayül və inqilabi dəyişiklikləri nəzərdə tutmayan və həyatın müxtəlif sahələrində hər hansı dəyişiklikləri sülh yolu ilə həll etməyə çalışan reformizm, zaman ərzində bir əsrdən artıqdır ki, müharibə və inqilablar yolunu keçərək uzanan əks reaksiya doğurmuşdur. İlk islahatçıların Qərb mədəniyyəti ilə dialoq qurmaq niyyətləri Qərbin mədəni, ictimai-siyasi ekspansiyası qarşısında islam dünyasının identikliyini qorumaq məqsədi ilə tam əksinə transformasiya olaraq "vesternizasiya" (ər.: *ət-təğrib*) və bidətlərdən təmizlənmə istiqamətinə yönəldi.

Məlumdur ki, XIX əsrin sonunda Dağlıq Livanda, Misirdə, Fələstin və Suriyada, eləcə də mühacirətdə yaşayan xristian-ərəblər ərəb dirçəlişində (*ən-nəhdət əl-ərəbiyyə*) böyük rol oynamışdırlar. Yəni panərəbizmə güclü təkan verənlər də məhz xristian-ərəblər olmuşdurlar. Qeyd edək ki, burada belə bir maraqlı paradoks yer

---

[255] Наумкин В.В. Ислам и мусульмане: культура и политика. Статьи, очерки, доклады разных лет. ИД «Медина». М-Н. Новгород: 2008. 768 с. S. 650.

[256] Валиахметова Г.Н. Исламский фактор в мировой политике: курс лекций. Министерство образования и науки РФ, Ур.ФУ, «Урал». Екатеринбург: 2013. 124 с. S. 50.

alır ki, əvvəlcə ərəb millətçiliyinin avanqardında gedən görkəmli, tərəqqipərvər şəxslər (C. əl-Əfqani, M. Əbduh və başqaları) sonradan *islam nəhdə*sinin baniləri və görkəmli nümayəndələrinə çevrildilər və bunun da öz səbəbləri var. Demək olar ki, *nəhdə*nin islam aspekti öz güclü potensialını yığmağa başlayan andan ərəbizm və islam arasında bir sıra daxili ziddiyyətlər böyüyüb kəskinləşməyə başladı. Bunların da səbəbi onda idi ki, ərəbizmin mənəvi platforması Yaxın Şərq xristianları tərəfindən hazırlanmışdı və islamın dirçəlməsi məsələsindən tam fərqli olan məqsədlərə xidmət edirdi. Ərəb millətçiliyinin Ərəb Şərqində birləşdirici amil kimi ideyasının liderləri və tərəfdarları olan xristian-ərəblər Avropa liberalizminin ideyaları və dəyərlərinin təsirində idilər.

Məhz islam *nəhdə*si XIX əsrin sonu – XX əsrin əvvəllərində saleh əcdadların (*əs-sələf əs-salihun*) ənənəsinə[257] müraciət edən qoruyucu bir sələfi reaksiyasını törətmişdir. Bu növ sələfiliyin səpkilərini təhlil edərkən, qeyd edək ki, əvvəlcədən o, "...osmanlı dini ənənəçiliyin böhranına reaksiya kimi çıxış edən" vəhhabilik hərəkatı ilə təmsil olunmuşdur. İslam diskursu çərçivəsində vəhhabilər təqliddən[258] imtina etməni nəzərdə tutan və müstəqil

---

[257] Ənənəvi sünni islamda sələfilik həmişə Məhəmməd peyğəmbərin əshabələrinə, yəni saleh əcdadlara səmtləşməni nəzərdə tuturdu. İslam tarixinin müxtəlif dövrlərində erkən müsəlman icmasının həyat tərzi və əqidəsinə istiqamətlənməyə çağıranlar və sonrakı yenilikləri, o cümlədən Quranın rəmzi-alleqorik təfsir metodlarını və Qərblə əlaqələr nəticəsində yaranmış yeni təzahürləri bidət kimi qiymətləndirənlər sələfi hesab olunurlar. Şəriətin şərh edilməsində sələfilər Quran və Sünnəyə qayıtmağa çağırılar. Sələfiliyin nəzəri əsaslarını imam Əhməd İbn Hənbəl (780-855) məktəbinin ənənələrini XIII əsrin sonu –XIV əsrin əvvəllərində dirçəldərək öz əsərlərində Şeyxülislam İbn Teymiyyə (1263-1328) hazırlamışdır.

[258] Təqlid – şəriət hökmlərində savadlı və geniş dünyagörüşlü bir alimin (müctəhidin) dini göstərişlərinə (fitvalarına) əməl etmə.

ictihadın[259] həyata keçirilməsinə yol açan yeni bir metodologiya hazırlamışdırlar. Və burada daha bir paradoks yer alır. Məsələ bundadır ki, "vəhhabiliyin nəzəri metodologiyası alət baxımından tamamilə başqalarına – institusional moderni islam diskursu çərçivəsində əsaslandırmağa çalışan insanlara faydalı oldu. Onlar islamdaxili polemikanın keçirilməsi üçün ideal bir alət əldə etdilər: təqlidə qarşı ictihadı" [260]. Həmin şəxslər məhz *nəhdə* islahatçıları idi.

Yada salaq ki, *nəhdə* kontekstində islam reformizmi bir neçə əsas məqsədə yönəlmişdir. Birincisi, müsəlman dünyasını Qərb müstəmləkəçiliyindən azad etmək. İkincisi, islam *ümmət*inin birliyinə nail olmaq. Və üçüncü mühüm məsələ – inkişafda Qərbə çatmaq və onu ötüb keçərək onun dünyada üstünlüyünə son qoymaq idi. Bu gün gördüyümüz kimi, bu məqsədlərdən yalnız birincisi – müstəmləkəçilikdən azad olunma – nisbətən əldə edilmişdir. Yerdə qalan ikisini – uğursuz, hətta  müasirliyin son hadisələri işığında bir qədər utopik hesab etmək olar. Qərb və Avropa alimləri müsəlman reformizminin bu konkret uğursuzluqlarının səbəbini bu sahədə yaranmış ideoloji vakuumu dolduran sələfi neo-fundamentalizmində və müasir cihadçılarda görürlər. Həmçinin, onlar qeyd edirlər ki, müsəlman aləmini dərin böhrandan çıxarmaq üçün alternativ təklif hələlik yoxdur, çünki sələfi reformist fikri müasir Qərbin tələblərinə cavab verən yeni dini davranış modelini hazırlaya bilməmişdir. Yeri gəlmişkən, həmin fikir 7 may 2016-cı il tarixində Parisdə İs-

---

[259] Burada modern dövrünün sələfi maarifçiliyinə ictihad konsepsiyası və ya ənənəsi vasitəsi ilə müsəlman cəmiyyətlərinin sosial və dini həyatında dəyişiklik və yenilənmələrin zəruriliyini əsaslandırmağa kömək edən islamın təcdid ənənəsi gəlir.

[260] Алексеев И.Л. Реформация и Революция в категориях исламской традиции. // Периодический сборник «Философско-религиозные тетради», № 6: «Пути реформации», М.: 2012. С. 73-78. S. 77.

lam Fikri Fransa Akademiyası tərəfindən təşkil olunmuş "Fransızdilli Müsəlman Ziyalıların Birinci konfransı"nda da səsləndirilmişdir [261] .

Məhz bu aspektə toxunaraq, görkəmli ərəb filosofu Məhəmməd Abid əl-Cabiri (1935-2010) qeyd edirdi ki, XIX əsrin *nəhdə*si müsəlman-ərəbin epistemoloji və fəlsəfi şüuruna, onun davranışının koqnitiv ünsürlərinə dəyişiklik gətirmədi və indinin özündə də onlar ənənəvidirlər [262].

Rusiyada yaşayan müasir İraq mənşəli alim Maysəm əl-Cənabinin sözləri ilə desək: "İslam islahatçılığı ərəb fikri tarixinin ən geniş və dərin dramasına çevrilmişdir. Çünki ərəb tarixinin yeni dönəmində o, nə ərəb ölkələrinin siyasi quruluşunda təhkim olunmağı bacardı, nə də ki, ərəb dünyasının təbii və immanent inkişafının əsaslarını islahatlar tərəfə istiqamətləndirə bildi" [263].

Müasir dövrün digər bir məşhur ərəb alimi – Məhəmməd Arkun (1928-2010) *nəhdə* diskursunun yenidən nəzərdən keçirilməsi məsələsinin zəruriliyini öz növbəsində vurğulayırdı, "fundamentalizm" və cihadçı hərəkatların yaranmasını isə Qərb sivilizasiyasının mənfi modern təmayüllərinə cavab bir reaksiya olması kimi qiymətləndirirdi [264].

---

[261] Ousmane Timera. Vers un post-réformisme musulman: le dépassement. https://blogs.mediapart.fr/ousmane-timera/blog/281214/vers-un-post-reformisme-musulman-le-depassement Fransız dilində.

[262] Фролова Е.А. Концепция эпистемологического разрыва у аль-Джабири // Ишрак: Ежегодник исламской философии. № 2; Ishraq: Islamic Philosophy Yearbook. № 2 / Гл. ред. Я. Эшотс. М.: Издательская фирма «Восточная литература РАН», 2011. 719 с. С. 238-253. S. 243.

[263] Аль-Джанаби М.М. Философия современной мусульманской реформации. 2014. Изд.-во «Садра», 2014. 436 с. S. 294.

[264] Фролова Е.А. Арабское «возрождение» как проект модернизации. 30.06.2013 г. // Вопросы философии. М.: 2013. № 5. С. 11-18. S. 16-17.

Ümumiyyətlə, şərqşünas-alimlər qeyd edirlər ki, "müsəlmanlar heç zaman xristianlığı bir din olaraq özləri üçün düşman elan etməmişdirlər, axı onlar üçün o, üç "ibrahimi" konfessiyadan biridir; islamın tərəfdarları İbrahimi də, İsanı da peyğəmbər sayaraq onlara ehtiram bəsləyirlər. "Sələfiyyə" öz əsaslarında xristianlıq dininə qarşı deyil, Qərbin zərərli təsirinə qarşı yönəlib" [265].

Əlavə edək ki, bu tendensiya tək sələfi reformizminə yox, şiəlikdə "islam dirçəlişi" ideyası ilə bağlı olan teoloji-siyasi nəzəriyyələrə də məxsusdur. Məsələn, 1978-79 ildə İranda baş vermiş anti-monarxist inqilabı və Ayətullah Xomeyninin "Vilayəte Fəqih" konsepsiyasını yada salsaq, onların da radikal vasitələr ilə həyata keçməsi nəzərə çarpır. Qeyd edək ki, bu gün islamda müasir reformist hərəkat, cərəyan, axın və konsepsiyaların bir çoxunun səpkiləri tarixi, xronoloji, məfkurəvi və fenomenoloji baxımdan islam *nəhdə*sindən qaynaqlanır [266].

Bunun qarşısında müasir islamşünaslıqda bütün bu istiqamətlərin müntəzəm bir təsnifatı yoxdur və təriflərdə tez-tez hətta absurda gətirib çıxaran qarışıqlıq baş verir. Məsələn, İŞİD kimi islam "şüarları" altında çıxış edən, lakin beynəlxalq miqyasda sırf gizli siyasi məqsədlərə xidmət edən radikal cihadçı qruplaşmalar səhvən, bəzi hallarda isə bilə-bilə və qəsdən "islam dirçəlişinin" aparıcı qüvvəsi və hegemonu kimi təqdim edilirlər[267]. Fikrimizcə, bu

---

[265] Мирский Г.И. Ислам: история и современность. // Новая и новейшая история. 2010. № 1. С. 3–20. S. 20.

[266] Lakin burada bir istisna kimi İran İslam İnqilabının əsas ideoloqlarından biri olan Əli Şəriətini (1933-1977) qeyd etmək olar. Gənc yaşlarında o, qismən *nəhdə* ideyalarının təsirində olsa da, onun reformasiyaya yanaşması məfkurəvi olaraq *nəhdə* islahatçılarının yanaşmalarından (ərəb sələfiliyinin Qərblə əlaqələri nəticəsində yaranmış müxtəlif təzahürləri) tam fərqlidir.

[267] خالد غزال. "داعش فرصة تاريخية لمباشرة الإصلاح الديني في الإسلام؟!". 23 آب، 2014.

səbəbdən müasir islami hərəkat və cərəyanların düzgün təsnifatlandırılması üçün onların məhz *nəhdə* diskursuna uyğun olub-olmaması kontekstdə nəzərdən keçirmək zəruri olardı.

Bu və digər amilləri nəzərdən keçirərək, islam islahatçılığı layihəsinin tarixdə postreformizm dövrünü yaşadığı və xronoloji baxımdan bu prosesin Qərb və yaxud Avropa postmodernizmi (ər.: *ma bədə əl-hədasət*) ilə üst-üstə düşməsi haqda fikir söyləmək olar. Bunu hələ 1947-ci ildə Arnold Toynbi "Tarixin dərkedilməsi" əsərində din və mədəniyyətdə Qərbin təsirlərindən qurtulmaq kimi səciyyələndirmişdir. Artıq XX-ci əsrin 60-cı illərinin ortalarından bu faktı Həsən Hənəfi, Osman Əmin, Əbdürrəhman Bədəvi, Malik Bin Nəbi kimi ərəb fikrində sırf Qərb fəlsəfi ənənəsini təmsil edən mütəfəkkirlər də dərk etməyə başlayırlar. 1967-ci ilin Altıgünlük müharibəsində məğlubiyyət acılığı hətta onları da Qərbin rasionalist fəlsəfi konsepsiyalarından kənara çəkilərək mənəvi-psixoloji böhrandan çıxış yolunu öz dininə və ərəb islam irsinə qayıdışda axtarmağa vadar etdi. Xüsusən bu ideya modernizmin ruhunu məntiqi pozitivizmdə görən və həmin fəlsəfi məktəbin görkəmli nümayəndəsi, ərəb fəlsəfi fikrinin dahisi, məşhur misirli filosof Zəki Nəgib Mahmudun "İslam fikrinin yenilənməsi" (1973) ("Təcdid əl-fikr əl-ərəbi") kitabında yer alır [268].

XX əsrin sonundan Qərb fəlsəfi fikri klassik elmə qarşı marginallaşdığı kimi islam islahatçılıq fikri də mənəvi kollapsa uğrayaraq bütövlükdə, o cümlədən *nəhdə* kontekstində baş verən dini

---

Xalid Ğəzal. «"DAİŞ" – fürsət tarixiyyə li-mübaşərət əl-islah əd-dini fi əl-islam?!» // «Cəridə ən-nəhar», Lübnən: 23.08.2014. (Livanın «Ən-Nəhar» («Gün») qəzeti, 23 avqust, 2014-cü il buraxılışı). https://newspaper.annahar.com/article/163955 Ərəb dilində.

[268] زكي نجيب محمود. تجديد الفكر العربي. القاهيرة, مكتبة الأسرة دار الشروق:1993, 388 ص. S. 266-268.

diskursu böhran vəziyyətinə salmışdır. Bu da öz növbəsində qanunauyğundur, çünki hər hansı bir diskursun ümumiyyətlə, inkar edilməsi, qeyri-rasionallıq, elmi üsulların nisbiliyinin qəbul edilməsi və epistemoloji böhran məhz postmodernizmin səciyyəvi xüsusiyyətləridir. Lakin burada sual yaranır. Niyə görə bu reaksiya İŞİD-ə bənzər cihadçı islam qruplaşmaları kimi radikal surətdə özünü ifadə edir, axı ümumilikdə, postmodernizmə ekstremizm məxsus deyil?

Burada fərz edə bilərik ki, bu artıq islam postreformizminin postmodernə olan etiraz reaksiyasıdır. Və bu da ona görə baş verir ki, postmodernizmin[269] mövcudluğunun bütün dövrü ərzində (XX əsrin ikinci yarısı – XXI əsrlər) Qərb digər qeyri-Qərb mədəniyyətlərinin bərabər mövcudluğunu qəbul etmək, onlarla dialoq qurmaq əvəzinə bütün islam dünyasını öz postmodern paradiqmasının “Prokrust yatağı”na yerləşdirmək istəyir. Həmin proses məhz modern, yəni Yeni Dövr ilə başlamışdır, bu da ki, xronoloji olaraq sözü gedən “islam reformizmi” kimi qeyd edilən hadisənin yaranması və inkişafı ilə üst-üstə düşür. Əlavə edək ki, fikrimizcə, elmi ədəbiyyatda həmin anlayışın hüdudları olduqca geniş və yayğındırlar və onun vasitəsi ilə çox vaxt islam aləmində mövcud olan müxtəlif (hətta bəzən biri-birinə zidd olan) ideya, təzahür və təmayülləri ifadə edilirlər.

Bunun əsnasında müasir dövrdə biz Yaxın Şərqdə növbəti dəfə “vesternizasiya” proseslərini həyata keçirmək məqsədi ilə ərəb və islam cəmiyyətlərinin yeni “demokratlaşdırılması” layihəsini gerçəkləşdirmək cəhdlərinin şahidi oluruq. Qeyd edək ki, bu halda

[269] Qeyd edək ki, postmodernizm fəlsəfəsinin səciyyəvi xüsusiyyətlərindən biri ingilis dilində «recognition» (yəni, “tanıma”) sözü ilə ifadə olunan və dünyada hər hansı başqa, qeyri-Qərb mədəniyyətlərin tanınmasını və onlar ilə dialoq qurmanı nəzərdə tutan fenomendir.

islam və demokratiya arasındakı əlaqələr və ya onların nisbəti haqqında bir sıra suallar ortaya çıxır [270]. Şərqşünaslar və xüsusən islamşünaslar ərəb-müsəlman cəmiyyətlərində modernləşmə proseslərinin böyük çətinlik və əngəllər ilə müşayiət olunması haqda çoxdan yazırlar. Müasir rusiyalı tarixçi-ərəbşünas İ.Alekseyev çox doğru olaraq qeyd edir ki, hətta "liberal-burjua və ya marksist versiyasında qələbə çalan Qərb demokratiyası dövründə də müsəlman cəmiyyətlərini avroposentrist nəzəriyyələr vasitəsi ilə şərh etmək çətin idi... Müasir qlobal trend "Modern layihəsi"nin bütün komponentləri ilə birlikdə – milli dövlət və siyasi milliyyətçilik, sənaye modernləşməsi, texnokratiya, sekulyarizm, qlobal güc qütbləri və sairə – mirasının qəti şəkildə aradan qaldırılması ilə bağlıdır" [271].

Bütün yuxarıdakıları nəzərə alaraq unutmayaq ki, islam cəmiyyətləri olduqca monolitdirlər və hər hansı "qərbləşmə" cəhdlərinə fəal surətdə müqavimət göstərirlər. Bunu A.Toynbi də tarixi kontekstdə təsdiq edərək, qeyd edir ki, "müasir Qərbin islam aləminə konsentrik hücumları, bugünkü sivilizasiyaların toqquşmasının səbəbidir... eyni zamanda bu Qərbin bütün dünyanı "qərbləşdirmək" istəyini nümayiş etdirən çox səciyyəvi bir hadisədir" [272]. Ümid edirik ki, yaxın gələcəkdə ən azı məhz bu çağırışların qarşısında islam dünyası bütün var gücünü toplayaraq həqiqi həmrəyliyini bütün dünyaya nümayiş etdirəcək.

---

[270] Аркун Мухаммад. Ислам и демократия. Какая демократия? Какой ислам? // Отечественные записки. №6(15), 2003. Məqalənin orijinal mətni fransız dilində: Mohammed Arkoun, "Islam et democratie. Quelle democratie? Quele Islam?" in Cites, PUF 12 (2002). Copyright © 2002 by Mohammed Arkoun.

[271] Алексеев И.Л. Между Ибн Таймийей и Ибн Халдуном: в поисках аналитической модели. // Мир ислама. 1(6), М.: 2011. С. 90-113. S. 94-95.

[272] Тойнби А.Дж. «Цивилизация перед судом истории. Мир и Запад». М.: «Изд.-во АСТ: Астрель»; Владимир: «Изд-во ВКТ», 2011, 318 с. S. 116.

# Nəticə

XXI əsrdə islam öz dünyagörüşü, dəyərlər sistemi, siyasi praktikası, maddi və mənəvi mədəniyyəti, milyonlarla dindarlar və davamçıları, fikir cərəyanları, partiyaları, hərəkatları, beynəlxalq dövlət təşkilatları ilə birlikdə bəşər sivilizasiyasının istiqamətlərindən biridir. İslam universal, ümumbəşəri xarakterə malik olan bir dindir və artıq özünə görə qlobal mahiyyətə malikdir. Bunun nəticəsi olaraq onu müasir anlamda qloballaşdırmağa çalışdıqda, eyni zamanda müsəlmanlar tərəfindən qloballaşmanın mənfi təzahür kimi postmüstəmləkəçi qavrayışını nəzərə alaraq, islamın və müsəlman cəmiyyətlərinin özünəməxsusluğunun qorunub saxlanılması üçün qaçılmaz şəkildə təhlükələr və eləcə də bu prosesə müqavimət göstərmək cəhdləri yaranır. Qərbin qloballaşma layihəsinə özünəməxsus şəkildə bir cavab olaraq hərəkətverici qüvvəsi və siyasi-ideoloji komponenti “islamçılıq” olan islam alternativi ideyası, “islam qloballaşması” çıxış edir. Bu fonda müsəlman həmrəyliyi ideyaları müsəlman dünyasında baş verən hadisələrə tarixən təsir göstərmişdir və göstərməyə davam edir. Qloballaşma fenomeni ilə bağlı fikir ayrılıqlarına baxmayaraq, islam mütəfəkkirləri və ziyalıların əksəriyyəti islam dünyası ölkələrinin çoxunun qloballaşmanın təmsil etdiyi yeni əlaqələr sisteminə bərabər şəkildə daxil olmağa ümumi hazırsızlığı üzündən narahatlığını ifadə edir. Xüsusilə, onlarda milli özünəməxsusluğun, dini və mədəni ənənələrin və identikliyin itkisi ehtimalları narahatlıq doğurur. Bununla belə, müsəlman dünyasında qloballaşma fenomeninin demək olar bütün tədqiqatçıları hazırda islam aləmi çərçivəsində mövcud olan milli-etnik və dini xüsusiyyətlərin qorunub saxlanılması şərti ilə iqtisadi və siyasi sahələrdə islahatların keçirilməsi ehtiyacını vurğulayırlar.

Müsəlman cəmiyyətlərinin dəyişdirilməsi üzrə islam islahatçılığının zəminində yaranmış ictimai-siyasi layihələr XIX əsrin əvvəlində meydana gəlmişdirlər. İslamda "islahatçılıq" və "modernizm" anlayışlarının yanlış şərh edilməsi və eyniləşdirilməsi islam dininin doktrinal əsaslarının tam başa düşülməməsi və ya yanlış başa düşülməsindən irəli gəlir. Fikrimizcə, islam islahatçılığı problemini məhz "islamçı diskursu" çərçivəsində nəzərdən keçirmək zəruridir və bu halda da həm islam dünyası səviyyəsində, eləcə də qlobal bəşəri müstəvidə siyasi alternativ təqdim etməyi bacaran yalnız bəzi ayrı islahatçı layihələrin uğurundan bəhs etmək mümkündür. Hər halda, bu konsepsiyaların praktiki tətbiqi uğrunda çalışan dini-ictimai və siyasi xadimlər bu məsələni belə şəkildə görmək istəyərdilər. Lakin islam dünyasında islahatçılıq artıq müasirlik və postmodern dövrünün məhsuludur, onun inkişafı davam edir və təsiri artır. Ərəb baharı zamanı Tunis və Misirdə demokratik əsaslarda mötədil islamçıların hakimiyyətə gəlmə prosesi baş vermişdir və bu uğursuzluq ilə nəticələnsə də, onlar gələcək siyasi mübarizə üçün təcrübə qazanmışlar. Ehtimal edilə bilər ki, gələcəkdə islamçılar öz siyasi ideologiyalarında və təcrübələrində islam alternativinin sərt komponentlərindən mötədillik və rasionalizmə doğru yönələcəklər. Lakin bu islam ənənəsi, şəriət, davranış normativləri və dini mənsubiyyətin zahiri xüsusiyyətləri üzərində dalğınlaşmış islamçı-ekstremist qolların qaçılmaz şəkildə fəallaşmasına gətirib çıxaracaqdır. Bütün yuxarıda göstərilən tendensiyaları təhlil edərək islamçılığın müxtəlif təzahürlərində qlobal siyasi prosesin legitim bir iştirakçısı halına artıq gəldiyini və onu yalnız mənfi bir fenomen kimi qəbul edilməsinin səhv olduğunu söyləmək olar. İslam dininin siyasi-ideoloji komponentinin identikliyinin özünütəsdiqi əvvəlcədən olduğu kimi, hazırkı mərhələdə də Qərb qloballaşmasına qarşı müqavimət rəmzi altında cərəyan edir, mənfi

aspekt kimi isə burada islam radikalizmi çıxış edir. Əsas alət kimi burada müasir dünyada müsəlmanların kafirlərə qarşı silahlı mübarizəsi ilə assosiasiya edilən *cihad* çıxış edir, lakin bu konsepsiya daha genişdir. İslam sülh dinidir və əsassız təcavüzə qarşı çıxır, çünki Quranda müsəlmanlara nifrət yaymaq, başqalarının hüquqlarını pozmaq və ya günahsızlara zərər vermək ciddi şəkildə qadağan edilir. Lakin öz şəxsi və siyasi maraqlarını güdən, bəzən isə transmilli korporasiyalara xidmət edən beynəlxalq terroristlər öz mənfəətpərəst siyasi məqsədlərini "cihad" adı ilə əsaslandırmaq və hərəkətlərinə haqq qazandırmaq üçün müsəlmanların dini birləşmələrindən istifadə edirlər.

İslam modelinə uyğun olaraq islam dünya nizamı yolunda beynəlxalq əlaqələrin yenidən qurulması üçün bir sıra neft istehsal edən müsəlman ölkələrinin maliyyə potensialı da böyük əhəmiyyətə malikdir. Bu baxımdan qlobal alternativ ideyası və yuxarıda gətirilmiş bütün fikirlər kontekstində perspektivlərinin ideallaşdırması niyyətində olmadığımız "islam həmrəyliyi" anlayışı "islam alternativi" ideyasının mənəvi-etik və iqtisadi platformasına xidmət etmək üçün nəzərdə tutulub. İslam mütəfəkkirləri islam regionunun bütün dövlətlərinin beynəlxalq əlaqələrin yeni sisteminə bərabər səviyyədə daxil olması istiqamətində səylərini birləşdirmə zərurətinə xüsusi diqqət yetirirlər. Lakin Yaxın Şərqdə davam edən münaqişələr və hazırkı dövr üçün yaranmış çox mürəkkəb dövlətlərarası münasibətlər, region ölkələri arasında sabit əlaqələrin və inteqrasiyanın yaranmasına maneçiliklər törədirlər. Beləliklə, ehtimal edə bilərik ki, qloballaşma dövründə beynəlxalq əlaqələr sisteminə Yaxın Şərqin dünyanın ən nüfuzlu bölgələrindən biri kimi daxil olmasını təmin etmək üçün dünyanın bu hissəsinin dövlətləri öz inkişaflarında bir çox mərhələləri keçməli və bir çox maneələri aşmaq məcburiyyətində olacaqlar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


**1.** Əbdülhəmid əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: müsəlman fikri və metodologiyasının yeni istiqamətləri. "İdrak", Bakı: 2014. 299 s.

**2.** Dini radikalizm: Tarixi, yaranma səbəbləri və fəsadları. DQİDK, "Digital Media" MMC, Bakı: 2015, 224 c.

**3.** Mürsəlov R.Ə. Müasir islam fundamentalizmi. "Nurlan", Bakı: 2004. 160 s.

**4.** Аль-Джанаби М.М. Философия современной мусульманской реформации. 2014. Изд.-во «Садра», 2014. 436 с.

**5.** Алексеев И.Л. Между Ибн Таймийей и Ибн Халдуном: в поисках аналитической модели. // Мир ислама. 1(6), М.: 2011. С. 90-113.

**6.** Алексеев И.Л. Реформация и Революция в категориях исламской традиции. // Периодический сборник «Философско-религиозные тетради», № 6: «Пути реформации», М.: 2012. С. 73-78.

**7.** Аркун Мухаммад. Ислам и демократия. Какая демократия? Какой ислам? // Отечественные записки. №6(15), 2003. Məqalənin orijinal mətni fransız dilində: Mohammed Arkoun, "Islam et democratie. Quelle democratie? Quele Islam?" in Cites, PUF 12 (2002). Copyright © 2002 by Mohammed Arkoun.

**8.** Ближний Восток и современность. Сборник статей (выпуск семнадцатый). Институт Востоковедения РАН. Институт изучения Израиля и Ближнего Востока. Москва: 2003, 398 с.

**9.** Валиахметова Г.Н. Исламский фактор в мировой политике: курс лекций. Министерство образования и науки РФ, Ур.ФУ, «Урал». Екатеринбург: 2013. 124 с.

10. Гасанова Э.Ю. Идеология буржуазного национализма в Турции. Баку: 1966. 161 с.
11. Жданов Н.В. Исламская концепция миропорядка. «Международные отношения», М.: 2003. 568 с.
12. Игнатенко А. Ислам и политика. Сборник статей. Институт религии и политики, Москва: 2004. 256 с.
13. Ислам в мировой политике в начале XXI века: учеб. пособие / под ред. Л.М. Ефимовой, М.А. Сапроновой; [А.М. Ахунов, В.А. Ахмадуллин, Р.И. Беккин и др.]; Кафедра востоковедения МГИМО. «МГИМО-Университет», Москва: 2016. 345 с.
14. Исламский фактор в истории и современности. / Ин-т востоковедения РАН; отв. ред. В.Я. Белокреницкий, И.В. Зайцев, Н.Ю. Ульченко. «Восточная литература», М.: 2011. 605 с.
15. Исламская цивилизация в глобализирующемся мире. / Отв. ред. – В.Г. Хорос. ИМЭМО РАН, Москва: 2011. 336 с.
16. ISLAMOLOGY. Журнал исследований ислама и мусульманских обществ. «Фонд поддержки и развития научных и культурных программ имени Ш. Марджани», Москва: ТОМ 7, №1, 2017.
17. Левин З.И. Общественная мысль на Востоке: постколониальный период. «Восточная литература» РАН, Москва: 1999.
18. Малашенко А.В. Исламская альтернатива и исламистский проект. Издательство «Весь Мир», Москва: 2006. 221 с.
19. Мирский Г.И. Ислам: история и современность. // Новая и новейшая история. 2010. № 1. С. 3–20.

**20.** Наумкин В.В. Ислам и мусульмане: культура и политика. Статьи, очерки, доклады разных лет. ИД «Медина». М-Н. Новгород: 2008. 768 с.
**21.** Носенко Т.В. Иерусалим. Три религии – три мира. «ОЛМА-ПРЕСС», Москва: 2003. 440 с.
**22.** Иванеев С.В. Исламский банкинг – как угроза духовной безопасности светского государства. // Национальная безопасность – №1(30), NOTA BENE (ООО «НБ-Медиа): 2014. С. 94-103.
**23.** Почта Ю.М. Ислам и политика: Учеб. пособие. РУДН, Москва: 2008. 135 с.
**24.** Фролова Е.А. Концепция эпистемологического разрыва у аль-Джабири // Ишрак: Ежегодник исламской философии. № 2; Ishraq: Islamic Philosophy Yearbook. № 2 / Гл. ред. Я. Эшотс. М.: Издательская фирма «Восточная литература РАН», 2011. 719 с. С. 238-253.
**25.** Фролова Е.А. Арабское «возрождение» как проект модернизации. 30.06.2013 г. // Вопросы философии. М.: 2013. № 5. С. 11-18.
**26.** Тойнби А.Дж. «Цивилизация перед судом истории. Мир и Запад». М.: «Изд.-во АСТ: Астрель»; Владимир: «Изд-во ВКТ», 2011, 318 с.
**27.** Asad Talal. The Idea of an Antropology of Islam. Occasional Papers Series. Center for Contemporary Arab Studies, Georgetown University, Washington: 1986.
**28.** Aydin Cemil. Global Identity of the Muslim World: The Legacies of the Late 19th Century Intellectual History. // AMSS 38th ANNUAL CONFERENCE “Islamic Traditions and Comparative Modernitites” Cosponsored by: The University of Virginia, Charlottesville, VA September 25-26, 2009.

**29.** Aydin Cemil. The idea of the Muslim world: a global intellectual history. Cambridge, Massachusetts Harvard University Press: 2017. 304 p.

**30.** Olivier Roy. The Failure of Political Islam, Harvard University Press: 1994, 238 p.

**31.** زكي نجيب محمود. تجديد الفكر العربي. القاهيرة, مكتبة الأسرة دار الشروق:1993, 388 ص.

**32.** عبد المجيد الشرفي , مراد هوفمان. مستقبل الإسلام في الغرب والشرق. الطبعة الاولى. دار الفكر.دمشق: 2008. 280 ص.

**33.** مراد هوفمان. الإسلام كبديل. الطبعة الاولى. دار الشروق. القاهرة: 1997 . 170 ص.

**34.** يوسف القرضاوي. الصحوه الاسلاميه بين الجحود و التطرف. سلسلة كتاب الأمة, رئاسة المحاكم الشرعية والشؤون الدينية – قطر: 1402ه. - 1982 م. 231 ص.


### *İnternet resursları:*


**35.** Игнатенко А.А. От Филиппин до Косово: Исламизм как глобальный дестабилизирующий фактор // Независимая газета, 2000-10-12. http://www.ng.ru/ideas/2000-10-12/8_islam.html Əldə edilmə mümkündür: 18.11.2017.

**36.** Курбанов Р.В. Фикх мусульманских меньшинств. Мусульманское законодательство в современном немусульманском мире. http://www.idmedina.ru/books/theology/?4888 Əldə edilmə mümkündür: 18.11.2017.

**37.** День Иерусалима в Москве. 21.08.12 http://www.safarov.ru/06.php?act=news_by_id&news_id=16774 Əldə edilmə mümkündür: 18.11.2017.

**38.** Подцероб А.Б. Солидарность мусульман – мечта или реальность? Источник: "Институт Ближнего Востока

http://www.rodon.org/relig-090826132653 Əldə edilmə mümkündür: 18.11.2017.
39. Ousmane Timera. Vers un post-réformisme musulman: le dépassement. https://blogs.mediapart.fr/ousmane-timera/blog/281214/vers-un-post-reformisme-musulman-le-depassement Fransız dilində. Əldə edilmə mümkündür: 18.11.2017.
40. Islam, Modernity, Nationalism: Interview with Clifford Geertz // Перевод интервью Сергея Глебова для журнала Ab Imperio 3 (2004), с. 91-111. http://islamoved.ru/2016/islam-modern-natsionalizm-intervyu-s-kliffordom-girtsem/ Əldə edilmə mümkündür: 18.11.2017.
41. Soage Ana Belén. Shaykh Yusuf al-Qaradawi: Portrait of a Leading Islamist Cleric. // Filed Under: MERIA Journal Volume 12, Number 01 (Mar 2008), Radical Movements. http://www.rubincenter.org/2008/03/soage-2008-03-05/ Əldə edilmə mümkündür: 18.11.2017.
42. Исламский банкинг: история развития. Исламская экономика. http://yaumma.ru/islamicfinance/2015/04/24/islamskiy-banking-istoriya-razvitiya.html Əldə edilmə mümkündür: 18.11.2017.
43. https://www.e-cfr.org/ المجلس الأوروبي للإفتاء والبحوث.
44. خالد غزال. "داعش فرصة تاريخية لمباشرة الإصلاح الديني في الإسلام؟!". 23 آب، 2014.
Xalid Ğəzal. «"DAİŞ" – fürsət tarixiyyə li-mübaşərət əl-islah əd-dini fi əl-islam?!» // «Cəridə ən-nəhar», Lübnən: 23.08.2014. (Livanın «Ən-Nəhar» ("Gün") qəzeti, 23 avqust, 2014-cü il buraxılışı). https://newspaper.annahar.com/article/163955, Ərəb dilində. Əldə edilmə mümkündür: 18.11.2017.

**Azərbaycan Milli Elmlər Akademiyası**
**akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# İSLAM HƏMRƏYLİYİ VƏ AZƏRBAYCAN: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Çapa imzalanmışdır: 11.06.2018
Formatı: 60×84 1/16
Həcmi:12,25 ç.v.
Sifariş:11
Sayı: 500

«Papirus Nəşriyyat-Poliqrafiya»
MMC-nin mətbəəsində çap olunmuşdur.

Ünvan: Bakı ş. Mətbuat prospekti 24.